www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22 fevral 2019-cu il Cümə № 42 (4212) Qiymәti 60 qəpik

Xəbər

## Dəm qazı ailələrə dərd gətirir - acı statistika

yazısı səh.13-də

Gündəm

### İran "Putin ittifaqı"na qoşulur - bu, regiona və Azərbaycana nə vəd edir?



Ekspertlər deyir ki, sözügedən üzvlük Azərbaycan üçün müəyyən çətinliklər yarada bilər

yazısı səh.4-də

### Ombudsman postunu tərk etmək istəmir

yazısı səh.11-də

### Bakıdan Cənub Qaz Dəhlizi ilə bağlı önəmli mesajlar

yazısı səh.4-də

### SOCAR Gürcüstana qazı ucuz satır - şirkətdən açıqlama

yazısı səh.7-də

### Rəsmi Tiflis Azərbaycana qarşı - Gürcüstan parlamentinin deputatları danışdı

yazısı səh.9-da

### Deputatlar prezidentin əyalət səfərlərində iştirak etmək istəyir

yazısı səh.10-da

### Ziya Məmmədovun 25 milyonluq avtobusları yararsız halda

yazısı səh.14-də

### Ölkədə "milli maddə" ilə tutulanların sayı artır - səbəb

yazısı səh.11-də

### Deputat "qanuni oğru"lara rəğbətdən narazıdır - cəmiyyət niyə onları qəhrəman edir?

yazısı səh.13-də

### Qarabağ adında iki komitə arasındakı söz savaşı böyüyür

yazısı səh.10-da

### "Kupça" ilə bağlı fərman 40 min ailəni sevindirəcək

yazısı səh.11-də

# KREML ERMƏNİSTANI SURİYADA TƏLƏYƏ SALDI - ABŞ-DAN QƏZƏBLİ MÖVQE

İrəvanın Suriyaya göndərdiyi humanitar missiyaya sərt reaksiyanın ardınca Vaşinqton Əsəd rejiminə silah daşıyan erməni şirkətini hədəfə aldı, erməni XİN başçısının Amerika səfəri isə ləğv olundu - vassal olmağın bədəli...




yazısı səh.8-də

## Fazil Məmmədov biznesinin başına keçdi - sahibkarları incidəni indi nə gözləyir?

Hələ nazir işlədiyi dövrdə yaradılan "Synergy Group" MMC istehsalat, tikinti, kənd təsərrüfatı, İKT, hotelçilik, təhsil, səhiyyə və bank işi sahələri üzrə iri yatırımlar edib; uzun illər sahibkarların qorxulu röyasına çevrilən sabiq nazir iş adamı və vergi ödəyicisi kimi özünü doğruldacaqmı?

yazısı səh.7-də



*Qüdrət Həsənquliyev:*

### "Nadanlıq əlamətidir söyləyəsən ki, deputat niyə Naxçıvanın problemlərindən danışır?"

yazısı səh.5-də



Ziyafət Əsgərov

### Təhqir və böhtana görə cəzalar sərtləşdirilə bilər - birinci vitse-spikerdən anons

yazısı səh.3-də



*Sərdar Cəlaloğlu:*

### "İbrahimbəyov siyasətdə Yusif Sərrac rolunda çıxış etdi"

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 42 (7212) 22 fevral 2019



## İlham Əliyev general-leytenant Ruslan Auşevi qəbul edib

**Azərbaycan prezidenti İlham Əliyev fevralın 21-də MDB ölkələri Dövlət Başçıları Şurası yanında Beynəlmiləlçi Döyüşçülərin işləri üzrə komitənin və "Döyüş Qardaşlığı" Beynəlxalq veteranlar təşkilatı Ali Şurasının üzvü, Sovet İttifaqı Qəhrəmanı, general-leytenant Ruslan Auşevi qəbul edib.**

Görüşdə sovet qoşunlarının Əfqanıstandan çıxarılmasının 30-cu ildönümü ilə bağlı Azərbaycanda keçirilən tədbirin əhəmiyyətinə toxunulub.

Ruslan Auşev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevlə görüşlərindən məmnunluqla danışıb və Ulu Öndərin xatirəsini daim yad etdiyini bildirib.

Prezident İlham Əliyev Ruslan Auşevin Azərbaycana səfərindən məmnunluğunu ifadə edib və ona Ulu Öndərin xatirəsi ilə bağlı dediyi xoş sözlərə görə təşəkkürünü bildirib.

Ruslan Auşev Bakıda gördüyü inkişaf proseslərinin tədbir iştirakçılarında xoş təəssürat yaratdığını vurğulayıb, onların bu tədbirdə iştirak etmək üçün böyük məmnuniyyətlə Bakıya gəldiklərini deyib.

## Türkiyə Ermənistanla sərhəddə genişmiqyaslı hərbi təlimlər keçirir

**Türkiyə Ermənistanla sərhəddə, Qars vilayətində genişmiqyaslı hərbi təlimlər keçirir. "Qış-2019" adı verilən təlimdə 15 ölkədən hərbçilər iştirak edir. Təlimlər zamanı Türkiyə hərbçilərinin yerli istehsallı silahlardan istifadə etdiyi deyilir.**

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan videokörpü vasitəsilə təlimlərin gedişi ilə tanış olub.

Xatırladaq ki, bu təlimlərdə Azərbaycan hərbçiləri də iştirak edir.

## Metroda soyğunçulq edən şəxs tutuldu

**İctimai nəqliyyatda soyğunçuluq edən şəxs Metropolitendə Polis Şöbəsinin əməkdaşları tərəfindən yaxalanıb. DİN mətbuat xidmətindən verilən məlumata görə, fevralın 19-da saat 13 radələrində metronun "28 May" stansiyasının platformasında azyaşlı bir qıza zor tətbiq edib əlindəki mobil telefonunu alaraq qaçmağa cəhd göstərən şəxs Metropolitendə Polis Şöbəsinin əməkdaşları tərəfindən yaxalanıb.**

Onun Cəlilabad rayon sakini H.Əbilzadə olduğu müəyyən edilib. "Samsung A7" markalı mobil telefon maddi sübut kimi ondan götürülüb. Metropolitendə Polis Şöbəsində araşdırma aparılır.

## Abunə daha sərfəlidir - "Yeni Müsavat" abunə kampaniyasını davam etdirir




"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**

# Müdafiə Nazirliyi: «Ermənistanın kəşfiyyat dronu vuruldu»

**ATƏT-in Minsk Qrupu həmsədrinin Azərbaycana səfəri çərçivəsində fəaliyyətini həyata keçirdiyi bir vaxtda Ermənistan tərəfi növbəti təxribat törədib. Bu barədə Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**



Fevralın 21-i günorta saatlarında cəbhənin Ağdam rayonu istiqamətində Ermənistan silahlı qüvvələri "X-55" taktiki pilotsuz uçuş aparatı (PUA) vasitəsilə mövqelərimiz üzərində kəşfiyyat uçuşları keçirməyə cəhd göstərib.

Hərbi Hava Qüvvələrimizin Hava Hücumundan Müdafiə bölmələri tərəfindən düşmən PUA-sı dərhal aşkarlanaraq zərərsizləşdirilib.

## Rusiyada əsgərlərə telefondan istifadə qadağan edildi

**Rusiya Dumasında hərbçilərin xidmət başında mobil telefonlardan istifadəsinin qadağan edilməsi ilə bağlı səsvermə keçirilib.**

"Qafqazinfo" xəbər verir ki, təklif 450 üzvdən 400-nün lehinə səs verməsi ilə qəbul edilib.

Qərara əsasən, hərbçilər foto və video çəkən, internetə çıxışı olan smartfonları iş vaxtlarında üzərlərində daşıya bilməyəcəklər. Sadəcə, zəng və mesaj funskiyası olan sadə telefonlara isə qadağa qoyulmayıb.

Duma üzvləri bu addımın milli təhlükəsizliyi qorumaq, hərbçilərin gizli məlumatlarının ifşa edilməsinə mane olmaq məqsədilə atıldığını bidiriblər.

Qərar Rusiya prezidenti Vladimir Putin tərəfindən təsdiqlənəndən sonra qüvvəyə minəcək.

## Qubada itkin düşmüş ekskavator sürücüsünün cəsədi tapıldı

**Qubada itkin düşmüş sürücünün meyiti tapılıb. DİN-in mətbuat xidmətinin Quba regional qrupundan verilən məlumata görə, fevralın 7-də Quba rayonunun Vəlvələ kəndi ərazisində Vəlvələçay çayında qazıntı işləri aparılan zamanı ekskavatorun aşması nəticəsində çaya düşən sürücü itkin düşüb. Araşdırmalarla həmin şəxsin Şabran rayon sakini, 41 yaşlı Vüqar Qasımov olduğu müəyyən edilmişdi.**

Hadisə baş verən andan Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-axtarış qrupu, polis və digər aidiyyəti qurumların əməkdaşları səfərbər olunaraq həmin şəxsin tapılması istiqamətində intensiv axtarışlara başlayıb.

Ərazinin çay kənarı olduğu və torpaq qatının sürüşmə ehtimalı yüksək olduğu üçün baş verə biləcək başqa bir bədbəxt hadisənin qarşısının alınması istiqamətində Quba Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən hadisə yerində qabaqlayıcı tədbirlər görülüb, ərazinin mühafizəsi təşkil edilib.

Birgə həyata keçirilən axtarış tədbirləri fevralın 21-də öz nəticəsini verib. V.Qasımovun meyiti çaydan tapılaraq çıxarılıb və aidiyyəti üzrə təhvil verilib.



# Mustafa Hacılıya hökm oxundu

**Bakı Ağır Cinayətlər Məhkəməsində "Bastainfo.com" saytının baş redaktoru, Müsavat Partiyasının mətbuat xidmətinin rəhbəri Mustafa Hacılının cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb.**

Virtualaz.org-un xəbərinə görə, prosesdə dövlət ittihamçısı çıxış edərək M.Hacıbəylinin 5 il 6 ay müddətinə azadlıqdan məhrum edilməsini və Cinayət Məcəlləsinin 70-ci (şərti) maddəsi tətbiq edilməklə 2 il sınaq müddəti olmaqla, cəza təyin edilməsini istəyib. Məhkəmə müşavirədən sonra hökmü elan edib. Hökmə əsasən M.Hacılı barəsində 5 il 6 ay müddətinə azadlıqdan məhrumetmə cəzası təyin edilib. Onun barəsində Cinayət Məcəlləsinin 70-ci (şərti) maddəsi tətbiq edilməklə 2 il sınaq müddəti olmaqla cəza təyin edilib.

İttihamda yazılır ki, M.Hacılı rəhbəri olduğu saytda 5 iyulda yayımlanmış "Mingəçevirdəki qəza repressiya maşınını dayandırmayıb", 6 iyulda isə "Azərbaycanlılar özlərinin ictimai müqavimət modelini yaradıb" başlıqlı yazılara görə cinayət məsuliyyətinə cəlb olunub. Yazılardan birində AXCP üzvlərinin həbsindən, digərində isə Gəncənin icra başçısı Elmar Vəliyevin güllənməsi, ona qarşı bu əməli törətməkdə təqsirləndirilən Yunis Səfərovun həbs olunduqdan sonra üzərində xəsarət izləri olan fotolarının yayılması və s. məsələlərdən bəhs olunur.

İttihamda yazılıb ki, M.Hacılı "Gəncə və Mingəçevirdəki hadisələr nəticəsində bəzi destruktiv qüvvələr arasında yaranmış vəziyyəti özü üçün əlverişli hesab edərək, vətəndaşlar arasında xaos və çaşqınlıq yaranmasına, ictimai-siyasi sabitliyin pozulmasına, kütləvi iğtişaşların törədilməsinə təsir göstərmək məqsədilə" bu yazıları rəhbərlik etdiyi sayta yerləşdirib.

Daha sonra ittihamda göstərilir ki, Xəzər rayon sakinləri olan üç qadın - İlahə Xalidova, Arzuxanım Məmmədova və Zülfiyyə Babayeva o məqələləri oxuyub qorxuya düşüblər və narahatlıq keçiriblər.

M.Hacılı Cinayət Məcəlləsinin 281.2-ci (dövlət əleyhinə yönələn açıq çağırışlar), 309.2-ci (vəzifə səlahiyyətlərini aşma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham olunub.

## DİN-dən Masazırdakı yanğınla bağlı açıqlama

**Fevralın 20-də gecə saat 3 radələrində Abşeron rayonu, Masazır qəsəbəsinin "Qurtuluş-93" yaşayış sahəsindəki 8 saylı binanın 1-ci mərtəbəsində yerləşən elektrik şitində yanğın baş verib.**

DİN mətbuat xidmətindən verilən məlumata görə, dərhal polis əməkdaşları və Fövqəladə Hallar Nazirliyinin aidiyyəti qurumları hadisə yerinə gəliblər. Sakinlərin yanğından xilas edilməsi məqsədilə təxirəsalınmaz tədbirlər görülüb.

Polis və yanğın təhlükəsizliyi xidməti əməkdaşlarının çevik müdaxiləsi və yaxından köməkliyi ilə sakinlər təxliyə olunub, onların təhlükəsizliyi təmin edilib. Yanğın söndürülüb, xəsarət alan olmayıb.

Bina sakinlərinin təxliyəsi zamanı Abşeron Rayon Polis İdarəsinin Post Patrul Xidməti Bölüyünün əməkdaşları, polis serjantları İlkin Kərimov, Elməddin Alıyev, Bəhruz Heydərli və Kamil Həsənov tüstüdən zəhərləndikləri üçün Kliniki Tibbi Mərkəzinin Toksikologiya şöbəsinə gətiriliblər, burada onlara ilkin tibbi yardım göstərilib.

Hazırda polis əməkdaşlarının vəziyyəti normaldır və xidmətlərini davam etdirirlər.

Faktla bağlı araşdırma aparılır.

## Azərbaycanda tikintiyə icazə verilməsi elektronlaşdırıldı

**Dövlət Tikinti və Şəhərsalma Komitəsi və "ASAN xidmət" birlikdə "Ekspertizanın keçirilməsi tələb olunmayan tikinti obyektlərinin tikintisinə və istismarına icazələrin verilməsi" üçün elektron sistem yaradıblar.**

Virtualaz.org bildirir ki, komitənin aparat rəhbəri Anar Quliyevin sözlərinə görə, tikintiyə icazə indikatoru üzrə Azərbaycan "Doing Business" sistemində 100 pillə irəliləyib.

Təsdiq edilən yeni qaydada ilə tikintiyə icazə üzrə tələb olunan sənədlərin sayı 18-dən 7-yə, xərclər 6700 manatdan 1500 manata düşüb.

Eyni zamanda icazənin alınması üçün vaxt 116 gündən 35 günə salınıb.

"Sahibkar-məmur əlaqəsini minimuma endirməklə, şəffaflığa nail olmağa çalışırıq. Bu gündən fəaliyyətə başlayan sistemə müraciət edildikdən 15 gün ərzində istismara icazə almaq mümkün olacaq. Sahəsi kiçik olan birmərtəbəli, aşırımlarının uzunluğu böyük olmayan binaların istismardan keçməsi tələb olunmur", - deyə A.Quliyev vurğulayıb.

Onun sözlərinə görə, tədricən ekspertiza tələb olunan tikililərin qeydiyyatı ilə bağlı proseslər də elektronlaşdırılacaq.

**Qarabağ Komitəsində ötən həftə baş verən istefalar qurumun daxilində gərginlik yaradıb. Qarşılıqlı ittihamlarla müşahidə olunan prosesə sabiq daxili işlər naziri İsgəndər Həmidovun təşəbbüsü ilə yaranan Azərbaycan Xalq Hərəkatı daxilində Qarabağ Komitəsinin yaradılması əlavə gərginlik gətirib. Baş verənlərlə bağlı AXH-nin İdarə Heyətinin üzvü, sabiq daxili işlər naziri İsgəndər Həmidovla danışdıq.**

# "Təlimatları harada, necə aldıqlarına qədər bilirəm"

## İsgəndər Həmidov: "Qarabağ Komitəsinin 29 sentyabr mitinqinə icazə veriləndə mənə dedilər ki, mitinqdə çıxış eləmə"

***- İsgəndər bəy, Qarabağ Komitəsində nələr baş verdi ki, istefa verdiniz?***

- Qarabağ Komitəsindən hələ üç ay öncədən çıxmaq istəyirdim. Pənah Hüseynin xətrini çox istəyirəm, o xahiş etdi ki, getmə. Qarabağ Komitəsinin 29 sentyabr mitinqinə icazə veriləndə komitənin iclasında mənə dedilər ki, mitinqdə çıxış etmə. Başa düşdüm ki, mənim çıxışım bunlara sərf etmir. Mən isə bəyan etdim ki, mütləq çıxış edəcəyəm, özü də necə istəyirəm elə danışacağam. Sonra xahiş etdilər ki, heç olmasa çıxışında hakimiyyətin üzərinə sərt getmə. Dedim ki, kimsə mənə necə danışmağı diktə edə bilməz. Mitinq oldu və çıxış etdim. Mitinqdən sonra Qarabağ Komitəsində mənim çıxışımı müzakirəyə qoydular. Nədən siyasi çıxış etdiyimi, sərt danışdığımı sorğulamağa başladılar. Çox baş qoşmadım, dedim qoy bir az danışıb ürəklərini boşaltsınlar. Növbəti mitinq üçün Bakı Şəhər İcra Hakimiyyətinə məktub hazırlananda dedilər ki, İsgəndər Həmidov, Mirmahmud Mirəlioğlu və Əvəz Zeynallı məktuba imza atmasınlar. Səbəbini soruşdum, dedilər hakimiyyətdə olanlar sizlərin mitinq məktubunda adınızın, imzanızın olmasından qıcıqlanır. Bu söhbət aramızda mübahisəyə səbəb oldu. Sonra Akif Nağı dedi ki, onu Bakı Şəhər Baş Polis İdarəsinə çağırıb mənim mitinqdə sərt çıxış etməyimin səbəbini soruşublar və ciddi irad bildiriblər. Mən də Akif Nağıya dedim ki, mənə görə sən niyə cavab verməlisən, çağırırdılarsa məni çağıraydılar. Axı mən Akif Nağını heç vaxt səlahiyyətli nümayəndəm və ya vəkilim təyin etməmişəm. Qarabağ Komitəsinin ümumi işi xatirinə mitinq üçün müraciətə kimlərin imza atması məsələsində güzəştə getdim. Lakin mən güzəştə getdikcə, oradakı bəzi adamlar daha irəli getdilər, elə danışırdılar ki, sanki bütün uğursuzluqlarının, mitinqlərə icazə verilməməyinin səbəbkarı mənəm. Beləliklə, mən təxminən üç ay öncə Qarabağ Komitəsindən istefa vermək qərarımı açıqladım. Pənah Hüseyn xahiş etdi ki, istefa vermə, qal. Mən də buna görə istefamı rəsmən bəyan etmədim, amma faktiki komitənin iclaslarına demək olar ki, qatılmırdım. Qarabağ Komitəsində xətrini istədiyim, səmimi adamlar da var. Amma elə adamlar da var ki, orada olmaları səmimi deyil, hakimiyyətdəki qruplara bağlıdırlar, onların təlimatları ilə hərəkət edirlər. Təlimatları harada, necə aldıqlarına qədər bilirəm. Hətta kimin bağına gedib görüş keçirdiklərini də... Həmin adamlar Qarabağ Komitəsini hakimiyyətin bir şöbəsinə çevirmək istəyirlər. Ona görə də keçən həftə istefamı rəsmən iclasda elan etdim və getdim. Oradaca bəyan etdim ki, Qarabağ kimi müqəddəs işimizdə alverə, möhtəkirliyə göz yuma, şərik ola bilmərəm.



"Akif Nağı döyüşdə, səngərdə olmayıb, erməni ilə döyüşdə üz-üzə gəlməyib, haradan bilə bilər ki, kim torpaq uğrunda döyüşüb"

***- Kimlər alverə gedirlər, hakimiyyət düşərgəsindən təlimatlar alırlar?***

- Konkret adlardan bəzilərini iclasda istefamı elan edəndə açıq bəyan etdim. Yəni mən arxada danışmamışam, üzlərinə demişəm. Canlı yayım gedən iclasda istefa verib çıxanda üzümü Akif Nağıya tutub dedim ki, siz - Qarabağ Azadlıq Təşkilatı hakimiyyətə işləyirsiniz.

***- Akif Nağı isə sizi ittiham edib. Deyib ki, İsgəndər Həmidov çoxdan getmək istəyirdi ki, sadəcə, bəhanə axtarırdı...***

- Zəng edib Pənah Hüseyndən soruşun, görün mən nə vaxt Qarabağ Komitəsindən getmək istəyirdim. Bəhanəyə isə ehtiyac yox idi. Çünki gedişim üçün yuxarıda sadaladığım səbəblər var idi. Mənim 3 ay öncə Pənah Hüseyn "mən ölüm" deyib oradan rəsmi getməyimin qarşısını almışdı. Mənim hədəfim hakimiyyətdir, Akif Nağı deyil. Akif Nağı çox kiçikdir. Mənim o cür kiçik hədəfim ola bilməz.

***- Qarabağ Komitəsi fəaliyyətdə ola-ola sizin təşəbbüsünüzlə yaranan Azərbaycan Xalq Hərəkatı daxilində Qarabağ Komitəsi hansı zərurətdən irəli gəldi? Buna ehtiyac var idimi?***

- Qarabağ Komitəsi yaranmaq ideyası Azərbaycan Xalq Hərəkatının hələ təsis konfransından öncə var idi. Bunu bəyan da etmişdik ki, AXH-nin nəzdində mütləq Qarabağ məsələsi ilə məşğul olan komitə olmalıdır. Bütün partiyaların da daxilində Qarabağla bağlı komissiyalar, komitələr var. Bundan narahat olmaq və uzağa gedən nəticələr çıxarmaq yox, sevinmək lazımdır ki, Qarabağ məsələsi bütün qurumların diqqətindədir. Burada heç bir alternativ yaratmaqdan söhbət gedə bilməz. Qarabağ məsələsində alver edənlər əgər düşünürlərsə ki, İsgəndər Həmidov Qarabağ Komitəsinə alternativ yaradıb, böyük səhvə yol verirlər.

***- AXH İdarə Heyətinin üzvü Elşad Musayev isə deyib ki, bəziləri Qarabağ məsələsini inhisara almaq istəyirlər və AXH-də Qarabağ Komitəsinin yaradılmasına narazılıq edilməsi həm də bununla bağlıdır.***

- Qarabağ məsələsini heç kim monopoliyaya ala bilməz. Elşad tamamilə düz deyib. Qarabağın azadlığı silahlı qüvvələrimizin əməliyyatlara başlamasından keçir. Biz hökuməti məcbur etməliyik ki, hərbi əməliyyatlara başlansın.

***- İstefa verdiyiniz Qarabağ Komitəsinin sıralarında çox az sayda Qarabağ döyüşçülərinin olduğunu, döyüşçülərin AXH-dəki Qarabağ Komitəsində olduğunu deyirlər. Doğrudanmı belədir?***

- Biz Qarabağ Komitəsini yaradarkən AXH-nin İdarə Heyətinin üzvlərindən iki nəfəri-Əhməd Orucu və keçmiş döyüşçü Həsən bəyi həmsədr seçdik. Mən gözlədiyimdən yüksək səviyyədə keçmiş döyüşçülər, polkovniklər, mayorlar, kapitanlar-döyüşdən keçmiş insanlar AXH-nin Qarabağ Komitəsinə gəldilər. Bu cür insanların olması Qarabağ Komitəsinə üstünlük verir. Mənim özüm də Qarabağ Komitəsinin sıravi üzvüyəm. Mən AXH-nin nəzdində yaranan komitənin tərkibindən çox razıyam.

***- Akif Nağı isə musvat.com-un canlı yayınında sizi torpaq uğrunda döyüşən görmədiyini bildirdi. Mərhum qardaşınız Sərdar Həmidov barədə isə "Tərtərin icra başçısı idi, rayonu qorumaq onun vəzifəsiydi" fikrini işlətdi...***

- Akif Nağı böyük səhv edir. Sərdar haqqında o cür danışmaq ən böyük allahsızlıqdır. Sərdar icra başçısı olmazdan öncə batalyon komandiri idi, döyüşürdü. Sərdar Həmidov icra başçısı olanda kabinet üzü görmürdü, səngərlərdə olurdu. İkincisi, Sərdarın və İsgəndər Həmidovun harada vuruşmağını, torpaq uğrunda döyüşdüyünü Akif Nağı bilməz. Akif Nağı döyüşdə olmayıb, səngərdə olmayıb, erməni ilə döyüşdə üz-üzə gəlməyib. O, haradan bilə bilər ki, kim torpaq uğrunda döyüşüb. Bunu torpaq uğrunda döyüşənlər daha yaxşı bilir ki, kim döyüşüb. Akif özü bilməz, mənim döyüşüb-döyüşmədiyimi keçmiş döyüşçülərdən soruşsun, Bakatinin, keçmiş KQB sədri Vaqif Hüseynovun kitablarını oxusun, oradan da bir şeylər öyrənə bilər. Mən keçdiyim döyüş yolunun xəritəsini sinəmə yapışdırıb gəzməli deyiləm ki, Akif Nağı oxuyub öyrənsin. Sərdar haqqında allahsız danışmasınlar, getsinlər alverlərini eləsinlər. Ümumiyyətlə, o cür adamlar Sərdar kimi şəxsiyyətlərin adını çəkib kişi söhbətinə qarışmasınlar. Bəlkə Akif Nağı Tərtərin işğalının qarşısını alıb, biz bilmirik?! Bu gün-sabah desə ki, Tərtəri mən qoruyub saxlamışam, təəccüblənməyin.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

***P.S.*** *Müsahibənin geniş variantını müsavat.com saytından oxuya bilərsiz.*

# Əfv siyahısında kimlərin adı var?

## Novella Cəfəroğlu: "Ümid edirik ki, onların hamısı azadlığa buraxılacaq"



**"Avropadan bizə heç kim istinad etməsin deyə siyasi məhbus problemini tamamən həll etməliyik". Bu sözləri "Yeni Müsavat"a açıqlamasında Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri, İnsan Hüquqları üzrə Birgə İşçi Qrupun üzvü Novella Cəfəroğlu bildirib. Müsahibimiz Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞ PA) nümayəndə heyətinin rəhbəri Səməd Seyidovla, habelə Prezident yanında Əfv Məsələləri Komissiyasının üzvü Azay Quliyevlə və son olaraq da Əfv Komissiyasının üzvü, daxili işlər naziri Ramil Usubovla görüşdüklərini bildirdi: "Amma bu, bizim son görüşümüz deyil. Əfv Komissiyasının nə qədər üzvü varsa, onların hamısı ilə görüşmək istəyirik. Çünki bu gün Avropada bir qrup hüquq müdafiəçisi adı altında gedən insanlar Avropa Şurasına siyahı təqdim ediblər. 128 nəfər. 120 də ola bilər, 160 da. Onlar bunu hansı kriteriya üzrə təyin ediblər, biz onu bilmirik. Sadəcə olaraq, böyük qalmaqalla bu siyahını təqdim edirlər. Azərbaycana qarşı bir növ addımların atılmasını tələb edirlər. Biz siyasi məhbuslarla 30 ildir məşğul olan insanlarıq. Hazırladığımız ilk siyahı deyil. Biz 716 nəfər də buraxdırmışıq, 300 nəfər də. Vaxtaşırı bu siyahılarla işləmişik".**

N.Cəfəroğlu dedi ki, Azərbaycana Avropa Şurasından, Avropadan deyilən iradları qəbul edə bilməzlər. Müsahibimiz bu baxımdan da siyasi məhbus məsələsi yekunlaşsın deyə hər yerə müraciət etdiklərini vurğuladı: "İstəyimiz budur ki, Avropadan bizə heç kim istinad etməsin. Siyasi məhbus məsələsi Azərbaycanda tamamən həll olunmalıdır. Biz Azərbaycan dövlətini suveren, Qarabağ torpaqları ilə birlikdə olmaq şərtilə görmək istəyirik. Ona görə də Azərbaycana olan bütün iradları adlamalıyıq ki, sözümüzü deyə bilək".

Hüquq müdafiəçisi Əfv Komissiyasına təqdim olunan siyahıda jurnalistlərin, blogerlərin, NİDA üzvü olan İlkin Rüstəmzadənin, eləcə də Səid Dadaşbəylinin, Nardarandan olan məhbusların adlarının olduğunu dedi. "Ümid edirik ki, onların hamısı çıxacaq" deyən N.Cəfəroğluna görə, sabiq səhiyyə naziri Əli İnsanovun da azadlığa çıxması onların arzuları sırasındadır.

**Söhbət zamanı N.Cəfəroğlu alternativ əfv siyahıları barədə də danışdı. Dedi ki, özlərinin hazırladığı siyasi məhbus siyahısında kriteriya var:** "Amma Leyla Yunusgil kim həbs olunursa, onun adını siyahıya salırlar. Onlar heç bir kriteriya əsasında işləmirlər. Leyla Yunus ömründə siyasi məhbus məsələsi ilə məşğul olmayıb. Əvvəllər o siyahını Səidə Qocamanlı tərtib edib. Səidə gedəndən sonra da Eldar Zeynalov və Əvəz Zeynallı bu siyahını tərtib edib. Heç kim siyasi məhbuslar barədə danışmayanda mənim həmkarlarım həbsxanaya gedir, onları adbaad siyahıya alırdılar. Onda heç kəsdə siyahı yox idi. Siyahını əldə yazırdıq. Elə insan var ki, terrorçudur. Amma Leylanın siyahısında o adamın adı var. Metro partladanın adı da var orada. Məqsəd Azərbaycanı pisləmək, Azərbaycana qarşı addımların atılmasına nail olmaqdır".

❑ **Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

# Təhqir və böhtana görə cəzalar sərtləşdirilə bilər - birinci vitse-spikerdən anons



**"Sosial şəbəkələr təyinatına uyğun istifadə edilsə, yaxşı olar. Sosial şəbəkələrdən qanunsuz istifadə etmək cəhdləri qəbulolunmazdır. Burada baş verən qanunazidd hərəkətlərin, insanların şəxsiyyətinin, şərəf və ləyaqətinin təhqir olunması yolverilməzdir, cinayət qanunvericiliyi ilə təqib olunur".**

Modern.az xəbər verir ki, bunu Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov deyib. O bildirib ki, belə halların qarşısının alınması üçün qanunvericilikdə, o cümlədən "Kütləvi informasiya vasitələri haqqında" Qanunda müəyyən dəyişikliklər edilə bilər. "İnsanların özləri bunu dərk etməlidirlər, ictimai qınaq güclü olmalıdır. Jurnalistlər fəal olmalıdırlar ki, əxlaqa zidd hallar baş verməsin.

Cinayət Məcəlləsində təhqir və böhtana görə cəza nəzərdə tutulur. Əgər təkliflər olarsa, cəzalar sərtləşdirilə bilər. Amma cəmiyyətin təpki göstərməsi əsasdır, insanların mədəni səviyyəsi yüksəlməlidir. Əgər sənin kiminləsə mübahisən düşübsə, nədənsə narazısansa, söyüşə əl atmamalısan.

Bu, çıxış yolu deyil. Bunun normal və sivil yollan var. Kompüterin arxasında oturub müxtəlif yazı yazaraq kimisə niyə təhqir etməlisən ki? Xaricdə oturub kimisə təhqir etmək hansı əxlaqa sığır? Bu yazıları sən və digərlərinin ailəsi - anası, bacısı, qardaşı oxuyur. Bu, biabırçı vəziyyətdir. Bu məsələdə hamının barışmaz mövqeyi olmalıdır".

YENİ MÜSAVAT
N 42 (7212) 22 fevral 2019

# Bakıdan Cənub Qaz Dəhlizi ilə bağlı önəmli mesajlar

## Vahid Əhmədov: "Bu layihənin siyasi əhəmiyyəti də böyükdür..."

**Fevralın 20-də Bakıda, Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı keçirilib. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev toplantıda iştirak və sıxış edib. İlham Əliyev deyib ki, 2015-ci ildə bu mühüm prosesə start verilib və Azərbaycan belə bir əməkdaşlıq formatının təşəbbüskarı olub.**




"Bu təşəbbüs Avropa Komissiyası tərəfindən də dəstəkləndi və beləliklə, bu proses başlandı. Biz belə toplantıların və bu nəhəng layihənin irəli aparılması ilə bağlı görülməli işlərə dair geniş müzakirələrin faydasını görürük. Mən Avropa Komissiyasına bu prosesdə fəal iştiraka görə təşəkkürümü bildirmək istəyirəm. Azərbaycan və Avropa Komissiyası bu şuranın həmtəşkilatçılarıdır və bizim sıx əməkdaşlığımız yaxşı nəticələr verir. Böyük məmnuniyyətlə komissar Ottingeri salamlayıram. O, vaxtilə Avropa İttifaqının enerji məsələləri üzrə komissarı olub və Avropa İttifaqı ilə Azərbaycan arasında enerji məsələləri üzrə əməkdaşlığın möhkəmlənməsi və Cənub Qaz Dəhlizi layihəsinin irəliləməsində mühüm rol oynayıb. Bu, həqiqətən də vahid komanda işidir və ildən-ilə biz bunun nəticəsini görürük", - deyə prezident qeyd edib.

**Ölkə başçısı Azərbaycanın təşəbbüskarı olduğu bütün enerji layihələrinin, xüsusilə də Cənub Qaz Dəhlizinin reallaşdırılmasında göstərilən davamlı dəstəyə görə ABŞ hökumətinə minnətdarlığını bildirib. İ.Əliyev deyib ki, Trans-Adriatik boru kəmərinin inşasında da böyük irəliləyiş var:** "Ötən ilin fevral ayında şura qarşısında çıxışımda TAP-ın hazırlığının 67 faiz səviyyəsində olduğunu qeyd etmişdim. İndi isə son göstəricilərə görə bu rəqəm 87 faizdir. Yeni bir ildə biz böyük irəliləyişə nail olmuşuq, işlər uğurla gedir və ümidvaram ki, gələn il biz yeni nəticələr haqqında danışacağıq".

**Dövlət başçısı deyib ki, Azərbaycana yatırılmış investisiyaların ümumi həcmi 250 milyard dollara yaxındır:** "Bunun yarısı xarici investisiyalardır. Bu, bizə iqtisadiyyatımızı şaxələndirməyə, islahatları uğurla həyata keçirməyə, yaxşı biznes mühiti yaratmağa imkan verib. Dünya Bankının sonuncu "Doing Business" hesabatına əsasən Azərbaycan 25-ci yerdədir. Beləliklə, biz möhtəşəm uğur qazanmışıq və biznes mühiti nöqteyi-nəzərindən 10 ən islahatçı ölkədən biriyik".

**Azərbaycanın qaz ehtiyatlarına gəldikdə, İ.Əliyev deyib ki, təsdiq edilmiş ehtiyatlarımız 2,6 trilyon kubmetrdir:** "Ona görə də mən əminəm ki, "Şahdəniz" Cənub Qaz Dəhlizi üçün yeganə resurs mənbəyi olmayacaq və yataqlarımızdan nə qədər çox qaz hasil edilsə, tərəfdaşlarımızı təchiz etmək və haqqında danışdığımız təchizat şəbəkəsini şaxələndirmək üçün daha çox potensial olacaq".

Qeyd edək ki, prezident İ.Əliyev fevralın 20-də ABŞ dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri xanım Sandra Oudkirk ilə görüşüb. Dövlət başçısı ABŞ prezidenti Donald Trampın Cənub Qaz Dəhlizi layihəsinə göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini qeyd edib. Oudkirk 2018-ci ildə layihənin uğurlu icrası istiqamətində mühüm nailiyyətlərin əldə olunduğunu deyib. O, ötən il bu layihə çərçivəsində yeni xətlə Türkiyəyə ilk dəfə olaraq 1 milyard kubmetr qazın çatdırıldığını vurğulayıb.

**Deputat Vahid Əhmədov "Yeni Müsavat"a bildirdi ki, Azərbaycana diqqət böyükdür:** "Çünki faktiki olaraq Avropa Rusiya qazından çox asılıdır. Fikir verdinizsə, o vaxt Ukraynada baş verən hadisələr zamanı boru kəmərinə çox ciddi təhdidlər var idi. Ona görə də Azərbaycan qaz ixracını artırmağa başladı. Bu iki kəmərin çəkilməsi böyük əhəmiyyət kəsb edir. 2020-ci ildə istifadəyə verilməlidir. Həm Avropa dövlətləri, həm də ABŞ bu kəmərin çəkilməsinə çox maraqlıdırlar, hərtərəfli yardım edirlər. Hətta İrana sanksiyalar tətbiq ediləndə Tramp bu layihə ilə əlaqədar sanksiyaya imza atmadı, dedi ki, bu layihə sanksiyalara düşmür".

**V.Əhmədov Cənub Qaz Dəhlizi layihəsinə diqqətin böyük olduğunu vurğuladı. O, Azərbaycanın ev sahibliyi ilə keçirilən tədbirdə ABŞ və Avropanın yüksək çinli şəxslərinin, həmçinin ayrı-ayrı ölkələrdən gəlmiş nazirlərin iştirak etdiyini vurğuladı:** "Bu, onu göstərir ki, layihəyə maraq çox böyükdür. Prezident də tədbirdə çıxış edib bir daha öz mövqeyini ortaya qoydu. Bu layihəni reallaşdırmaq doğrudan da çox ağır idi. Rusiya çalışırdı ki, Azərbaycan qazını öz kəməri vasitəsilə ixrac eləsin. Amma cənab prezidentin səyi və qətiyyətli mövqeyi nəticəsində qaz kəməri Türkiyə vasitəsilə Avropaya çıxarıldı".

**V.Əhmədov qeyd etdi ki, bunun iqtisadi tərəfi ilə yanaşı, həm də siyasi cəhətdən böyük əhəmiyyəti var:** "Çünki iri şirkətlər Azərbaycanda işləyəcək ki, bu da ölkəmizin müstəqilliyi üçün çox böyük əhəmiyyət kəsb edir".

Deputat əmindir ki, maneələrə baxmayaraq, artıq bu kəmərin məsələsi həll olunmuş sayılmalıdır: "Maliyyə cəhətdən də heç bir problem yoxdur". Şimal qonşumuzun adətən iştirak etmədiyi layihələrə qıcıqlı münasibət sərgiləməsinə gəldikdə, V.Əhmədov dedi ki, bu, hər zaman olub: "İndi isə Rusiya Şimal Qaz Dəhlizi çəkir, amma Avropa Birliyi, ABŞ ciddi xəbərdarlıq edir, istəmirlər bu kəmər çəkilsin, müəyyən təhdidlər var. Ümumiyyətlə, neft-qaz məsələləri həm də siyasi məsələ olduğu üçün onun ətrafında mübahisələr həmişə çox olub. Bu kəmərlə əlaqədar da Rusiyanın mövqeyi çox sərt idi. Diqqət etdinizsə, Rusiyadan heç kim iştirak etmirdi. Ancaq bunun əhəmiyyəti yoxdur. Artıq birinci hissə başa çatıb, ikinci hissə də 2020-ci ilin axırlarında başa çatdırılacaq və kəmər istifadəyə veriləcək".

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

# İran "Putin ittifaqı"na qoşulur - bu, regiona və Azərbaycana nə vəd edir?

## Ekspertlər deyir ki, bu üzvlük Azərbaycan üçün müəyyən çətinliklər yarada bilər

**İranın bu il martın sonuna kimi Avrasiya İttifaqına qoşulması layihəsi təsdiqlənəcək. Bunu İranın energetika naziri Rza Ərdəkanian deyib. R.Ərdəkanianın sözlərinə görə, hazırda layihə İran parlamentinin gündəmindədir və ilin sonuna kimi təsdiqlənməsi qərara alınıb. Rusiya ilə yanaşı İranın da Avrasiya İttifaqında olacağı indidən müzakirə mövzusudur. Bunun regiona, o cümlədən Azərbaycana təsirləri yönündə müxtəlif fikirlər səslənir.**



**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu:** "İranın iqtisadi və sosial vəziyyəti ağırdır. İran islam inqilabından bu yana 40 ildir ki, ABŞ-ın sanksiyaları altındadır. Buna baxmayaraq, İran bu sanksiyalara illər uzunu öyrəşdi və keçmiş illərdə iqtisadiyyatda hətta müəyyən irəliləmələr də əldə etməyə çalışdı. Buna baxmayaraq, sanksiyalar İranı daha irəliyə getməyə imkan vermədi. İranda işsizliyin miqyası və inflyasiya getdikcə artır. Donald Trampın ABŞ prezidenti seçilməsi İran hakimiyyətinin bütün planlarını pozdu. Tramp İranla imzalanan anlaşmadan imtina etdi və İrana qarşı yeni sanksiyalar elan olundu. 80 milyon əhalisi olan İranın xərcləri çoxdur. Bundan başqa, İran təhlükəsizlik məsələlərinə də çox vəsait ayırır. Ona görə də ABŞ-ın sanksiyaları İranda iqtisadi vəziyyəti daha da ağırlaşdırır. Avropa Birliyi də İranla bağlı verdiyi vədləri yerinə yetirmir. Məsələn, Avropa Birliyi İrandakı Avropa şirkətlərini ABŞ sanksiyalarından qoruyacağını vəd etsə də, bu mexanizm işləmir. İrana investisiyalar lazımdır. Tehran bu məqsədlə Rusiyaya müraciət edib. Rusiya və ya Çin yeganə ölkələrdəndilər ki, İrana kredit ayıra bilərlər. Rusiya İrana 5 milyard dollar kredit verəcəyini vəd edib. Bu xəbərin açıqlanmasından sonra İranın Avrasiya İqtisadi Birliyinə üzv olacağı xəbəri yayıldı. İran bu yolla özünü və iqtisadiyyatını qorumağa çalışır. İranın bu təşkilata qoşulması Tehranın Moskva ilə yaxınlığını daha da artıracaq. Görünür, Tehran buna hazırdır. Halbuki İranda islam inqilabı baş verdikdən sonra inqilabın ideya daşıyıcısı mərhum Xomeyni "nə Qərb, nə də Şərq" şüarını irəli sürmüşdü. Ancaq indi İranın durumu elədir ki, Tehran qütblərdən birini seçməlidir və həmin qütb Rusiyadır. İranın Avrasiya İqtisadi Birliyinə üzvlüyü Azərbaycan üçün müəyyən çətinliklər yarada bilər. İki əsas qonşumuz eyni birliyin üzvü olacaqlarsa, Moskva daha gur səslə Azərbaycanı Avrasiya İqtisadi Birliyinə səsləyəcək. Üstəgəl, Azərbaycanın reallaşmasında maraqlı olduğu "Şimal-Cənub" nəqliyyat dəhlizinin də iki əsas iştirakçı dövləti Rusiya və İrandır. Buna baxmayaraq, indiki halda Azərbaycanın Avrasiya İqtisadi Birliyinə üzvlüyünə mane olan iki amil var. Birinci amil odur ki, torpaqlarımız işğal altındadır və bu problem həll olunmayınca Azərbaycanın Ermənistanla eyni iqtisadi məkanda varlığı yolverilməzdir. İkinci amil elə Ermənistanın özüdür. Avrasiya İqtisadi Birliyində üzvlük konsensus əsasında həll olunur. Yeni Azərbaycan təşkilata üzv olmaq istəsə belə Ermənistan veto hüququndan istifadə edəcək. Doğrudur, Rusiya istəsə Ermənistanı "anlada" bilər. Ancaq bütün hallarda İranın, hətta gələcəkdə Türkiyənin Avrasiya İqtisadi Birliyinə üzvlüyü Azərbaycanın da avtomatik eyni qərar verməsini şərtləndirmir".

**Politoloq Əhəd Məmmədli:** "İranın Avrasiya İttifaqına qoşulması həmin quruma yeni sərhədlər, beynəlxalq genişlənmə vəd edir. Bu, Rusiyanın xarici siyasətinin bir uğurudur. Rusiyanın rəhbərliyi altında olan Avrasiya İttifaqına üzv olmaq qərarı İranın nə qədər dalanda olduğunun göstəricisidir. Bu, İranın Rusiyanın böyüklüyünü qəbul etməsidir. Görünür, bunun ciddi siyasi-iqtisadi nədənləri var. İslam inqilabı yanaşmasına ziddir hansısa tərəfin yanında olmaq. İran isə bu qərarı ilə özünə tərəf seçdi. Halbuki İslam inqilabından dərhal sonra Xomeyni İranın özünün dünyada yeni tərəf olduğunu bəyan etmişdi. İran inqilabının 40 illiyi təmtəraqla qeyd ediləndən sonra rəsmi Tehran Avrasiya İttifaqına daxil olmaq bəyanatı ilə çıxış etdi. Görünür, İran rəsmi şəkildə tərəfini bəlirləmək qərarını verdi. Ola bilsin, bu addımla Tehran Moskvanın Suriyadan çıxmaq təzyiqlərini yumşaltmaq istəyir. İranın Avrasiya İttifaqına qoşulması bu qurum üçün müsbət haldır. Sanksiyalar əhatəsində olan İran üçün isə siyasi-ideoloji baxımdan müsbət hal demək olmaz. Siyasi baxımdan böyük İran tarixi rəqibi Rusiyanın böyüklüyünü qəbul etməyə məcbur oldu. Yalnız bu xeyrin çox olacağını düşünmürəm. Avrasiya İttifaqının ən başlıca dövləti Rusiyanın özü heç də yaxşı dönəmlərini yaşamır. Avrasiya İttifaqının digər ölkələri Belarus, Türkmənistan, Qırğızıstan, Tacikistan və Ermənistan Rusiyadan asılıdırlar. Bu gedişi müəyyən mənada İranın Qərbə cavabı kimi də dəyərləndirmək olar. Bu məsələdə yeganə udan tərəf Rusiyadır. İranın Avrasiya İttifaqında olması regiona, xüsusilə Azərbaycana Rusiyanın təsirinin gücləndməsini vəd edir. Rusiya-İran ittifaqının güclənməsi Azərbaycana yaxşı heç nə vəd etmir. Nəzərə alsaq ki, Avrasiya İttifaqında düşmənimiz Ermənistan da var, onda Azərbaycan təcili Türkiyə ilə siyasi-hərbi müttəfiqlik paktı imzalamalıdır. İranın Ermənistan və Rusiyanın yer aldığı Avrasiya İttifaqına üzv olma qərarı Azərbaycan-Türkiyə İttifaqının nə qədər doğru olduğunun göstəricisidir. Düşünürəm ki, Qərb İranın Avrasiya ittifaqına üzv olmaq istəməsinə qarşı ciddi addımlar atacaq".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 42 (7212) 22 fevral 2019

# "Baş Prokurorluğun tabeliyində vahid İstintaq Komitəsi yaradılmalıdır"

## **Qüdrət Həsənquliyev:** "Nadanlıq əlamətidir söyləyəsən ki, deputat niyə Naxçıvanın problemlərindən danışır?"

**Deputat, BAXCP sədri Qüdrət Həsənquliyev "Yeni Müsavat"a geniş müsahibə verib. Ölkə gündəmini əhatə edən müsahibədə əvvəlcə bir qrup deputatın Şeyx həzrətləri ilə bərabər bir sıra ölkələrə səfərlərindən danışdıq:**

***- Qüdrət bəy, Misir səfərinizdə diqqət çəkən bir məqam oldu: Məhəmməd Peyğəmbərin qılıncını əlinizə alıb şəkil çəkdirmişdiniz. O, nə mesaj idi elə?***

- (Gülür). Biz Şimali Qafqazda, Misirdə, Abu-Dabidə və Avstriyada olduq. Həmin şəkil Misirdə çəkilmişdi. Əslində o ziyarət Şeyx həzrətlərinə, həmçinin Azərbaycan dövlətinə olan hörmətin bir ifadəsi idi. Biz Qahirədəki Hüseyniyyə - bizdə İmam Hüseyn məscidi adlanır - məscidində olduq. Məscidin içərisində də xüsusi hazırlanmış əlavə bir yer var. Deyilənə görə, İmam Hüseynin başı həmin yerdə dəfn olunub. Həmçinin orada İmam Əlinin öz xətti ilə yazdığı Quranın nüsxəsi var. Peyğəmbərimizin də qılıncı orada saxlanılır. Qılıncın üzərində də "Bu qılınc Məhəmməd Peyğəmbərə məxsusdur" yazılıb. Qılınc şüşənin arxasındadır, şüşənin özü də əlavə taxta qapılarla bağlanır. Məscidin içində muzey kimi, ayrıca qapısı olan bir guşə var. Bizi ora buraxdılar. Hörmət əlaməti olaraq həmin qılıncı çıxartdılar, Şeyx həzrətlərinə tutmaq üçün verdilər. Sözsüz ki, mən belə bir şansı əldən buraxmazdım. (Gülür). Düzdür, tələbə dostum Səxavət bəy o şəkli heç də yaxşı çəkməyib. Amma Məhəmməd Peyğəmbərin qılıncını əlində tutan şəxs kimi çox xoş hisslər yaşadım.

***- Səfərdən öncə sizin Naxçıvan Muxtar Respublikasındakı nazirlərdən birinə ünvanlı sərt açıqlamalarınız, mesajlarınız olmuşdu. Qılınclı fotodan da uzaqgedən nəticə çıxartmaq olardı. Ötüb-keçdimi həmin konflikt?***

- Yox, heç bir əlaqəsi yox idi. Müqəddəs qılıncı əldə tutub rəzil adamlar haqqında düşünmək böyük günah olar. Ümumiyyətlə, mən təbiət etibarilə kinli adam deyiləm və sözün doğrusu, o reaksiyanın da elə sərt olacağını gözləmirdim. Tərbiyəsizlik əvəzinə, etika çərçivəsində hər kəs mənə cavab verə bilərdi. Bu da çox normal qarşılanardı. Parlament müxbiri olaraq bilirsiniz ki, mən hətta Naxçıvandan deputat seçilməyəndə də, Naxçıvanın problemlərini həmişə qaldırmışam. İndi də Naxçıvandan seçilmişəm, görürsünüz ki, Qarabağ qaçqınlarının, şəhid ailələrinin problemlərini, ümumən Qarabağ problemini ən çox diqqətdə saxlayan millət vəkillərindənəm. Nadanlıq əlamətidir söyləyəsən ki, deputat niyə Naxçıvanın problemlərindən danışır? Əvvəla, mən o müsahibədə kimisə tənqid də etməmişdim. Sadəcə, problemlərin həll yolları ilə bağlı fikirlərimi səsləndirmişdim. Demişdim Naxçıvanın sosial-iqtisadi inkişafına dair xüsusi dövlət proqramı qəbul olunmalıdır ki, insanlar oranı tərk etməsin. Mən təklif edirəm ki, Naxçıvanda azad iqtisadi zona yaradılsın. Bilirəm ki, hökumət bu istiqamətdə uzun müddətdir danışıqlar aparır. Hazırda vəziyyətin nə yerdə olduğunu bilmirəm. Ümumiyyətlə, mən bu məsələləri mütəmadi qaldırmışam.

***- Bəs nədən bu dəfə dedikləriniz belə qıcığa səbəb oldu?***



- İndiki ərəfədə qıcıqla qarşılanması gözlənilməz oldu. Orada bizim partiyaya münasibətdə də çox qanunsuz davranış olmuşdu. Bizim partiyanın üzvünü Naxçıvan MSK-sı heç bir aidiyyəti olmasa da polislə hədələyərək DSK-dan istefa verməyə məcbur etmişdi. Bəlkə də düşündülər ki, müsahibəm bu hadisəyə cavabdır. Lakin mən oradakı üzvlərimizə problemlər yaranmasın deyə, həm də həmin şəxsin fikrini əsas götürərək onları şərdən qorumaq naminə təkid etmədim və güzəştə getdim. Bəlkə də bunlar düşünüb ki, mənim Naxçıvanın problemlərinin həlli ilə bağlı təkliflərim kiminsə nüfuzunu zədələyir. Amma mən əvvəllər də demişəm ki, Naxçıvanda iş yerləri açmaq lazımdır ki, insanlar oranı tərk etməsin. Naxçıvanı minik avtomobilləri istehsal edən bir mərkəzə çevirmək olar və s. Artıq Bakıda naxçıvanlıların çoxlu sayda qəbiristanlıqları var. Hətta bəzi kəndlər ayrıca qəbiristanlıqlar salıb. Bəzən insanları Naxçıvandan gətirib burada dəfn edirlər, çünki ailənin əksəriyyəti buradadır. Nəyinsə xətrinə bunu deməmək, üstündən keçmək olmaz. Mən bütün gəncliyimi Azərbaycanın müstəqilliyinə həsr etmişəm, milli azadlıq hərəkatının üzvü olmuşam. Elə məsələlər var ki, onların üstündən keçmək, sadəcə, mümkün deyil. Özü də Naxçıvanda görülən müsbət işləri, Vasif Talıbovun müəyyən müsbət addımlarını da təqdir etmişəm. Devalvasiyadan sonra banklardan götürülən dollar kreditlərinin 1.05 AZN-lə qaytarılması ilə bağlı qərar verəndə də təqdir etmişəm. Amma Naxçıvan iqtisadiyyatının Naxçıvan Gömrük Komitəsi ilə birlikdə ödədiyi vergi Naxçıvanın büdcəsinin 21,7 faizini təşkil edirsə və 34 şəhər və rayon dotasiya almadığı muxtar respublika bütün digər rayon və şəhərlərə 104 milyon manat dotasiya ayrıldığı halda bundan 3 dəfə çox- 300 milyon 360 min manat dotasiya alırsa, bu rəqəmi də deputatlara hökumət büdcə layihəsini təqdim edəndə verirsə, mən də bunu səsləndirirəmsə, bu, niyə belə qıcıq yaratdı, səbəbini başa düşmürəm.

***- Siz muxtar respublikanın faydasına təkliflər vermişdinizsə, məntiqlə təşəkkür edilməliydi...***

- Mən ümumən Azərbaycanla bağlı bu qədər təkliflər sürürəm, bu qədər problemlərin həlli yolları barədə danışıram. Hətta Naxçıvanda heç kimi tənqid etmədiyim halda, bəzən ölkənin bütün siyasi elitasını, iqtidarı tənqid edirəm. Atılan addımların bir çox hallarda yetərli olmadığını deyirəm, daha sürətli islahatların aparılması təşəbbüsü ilə çıxış edirəm. Onda gərək məni Bakıda asalar. (Gülür). Amma əksinə... Gördüyünüz kimi, mən prezident seçkilərində də hökumətin fəaliyyətini kifayət qədər sərt şəkildə tənqid edirdim. Hətta seçkilərdən sonra prezidenti təbrik edəndə o dedi ki, bütün namizədlərin çıxışlarına diqqətlə qulaq asırdım və orada qaldırılan problemlərin öyrənilməsi, həll yolları barədə göstəriş də vermişəm. Hansı məsələləri həll etmək gücündəyiksə, buna imkanlarımız varsa, bunu mümkün hesab ediriksə, onları edəcəyik. İnauqurasiya mərasimində də prezident bunu söylədi. Sözün doğrusu, mən bu qədər aqressiyanın səbəbini başa düşmədim. Bilirsiniz bu, nəyə oxşayır? Bir dəfə adını çəkmək istəmədiyim birisi haqda suala cavab olaraq demişdim ki, həmin adam özü mətbuata açıqlama verib ki, o, prezident olmaq istəmir. O adam da başladı məni söyməyə ki, təəssüf ki, belə adamlar parlamentdə var və mən bilirəm o parlamentə necə düşüb və s.

***- Qüdrət bəy, əksər müşahidəçilər bu fikirdədir ki, ölkədə yeni dönəm başlayıb, ciddi islahatlara start verilib. Prezidentin, birinci vitse-prezidentin əhali ilə görüşləri, əhalinin müxtəlif kateqoriyaları ilə bağlı imzalanan sərəncamlar yüksək qiymətləndirilir. Parlament müxalifəti olaraq bu barə qənaətiniz necədir?***

- Prezident və birinci vitse-prezident tərəfindən atılan addımlar, qəbul edilən qərarlar xalq tərəfindən rəğbətlə qarşılanır. İnsanlarımız bu islahatların dərinləşməsini gözləyir. Mən dəfələrlə bəyan etmişəm ki, Azərbaycan xalqının xoşbəxt gələcəyi yuxarıdan islahatlar yolu ilə cəmiyyətimizi inkişafın yeni mərhələsinə keçirməkdir. Əgər bu, olacaqsa, biz sivil ölkə kimi regionda öz mövqelərimizi qoruyub-saxlayacağıq, gücləndirəcəyik və dünyanın nüfuzlu ölkələrindən birinə çevriləcəyik, Dağlıq Qarabağ problemini də həll edəcəyik. Yox, əgər bu islahatlar yubanacaqsa - səmimi şəkildə deyirəm - ölkədə vətəndaş qarşıdurması yaranacaqsa və bundan sonra hökumət hansısa islahatlara gedəcəksə, o, artıq islahatlar kimi qəbul olunmayacaq. Yeni bir növ hökumətin zorən və artıq zəiflikdən qəbul etdiyi qərarlar kimi qəbul olunacaq və hökumətdən tələb olunacaq ki, digər addımlar da atılsın. Bu da sonda gətirib ölkəni çox ciddi siyasi böhrana soxacaq. Mən əvvəl də demişdim ki, islahatlar yubanarsa, Azərbaycan böyük bir durğunluq dövrünə qədəm qoyacaq. Bunun üçün də konkret təkliflər vermişdim.

***- Konkret nələri nəzərdə tutursunuz?***

- Əlbəttə, ciddi islahatlar ilk növbədə iqtisadiyyatda həyata keçirilməlidir. Yeni iqtisadi sferada biz böyük özəlləşməyə getməsək, sizi əmin edirəm ki, nə qədər başqa qərarlar qəbul olunur-olunsun əhəmiyyətli nəticələr olmayacaq. İqtisadiyyatı dövlət idarə edirsə, bu, sosialist təsərrüfat sistemi deməkdir. Bu, 70 il ərzində özünü doğrultmadı və doğrultmayacaq da. Sovetlər birliyi dövründə insanların böyük hissəsi kommunizm quruluşuna inanırdı, amma indi artıq o inam da yoxdur. Hökumətin iqtisadiyyatda rolu tənzimləyici xarakter daşımalı və məhdudlaşdırılmalıdır.

Ona görə də "Azərişıq", "Azərenerji", "Azəristilik", "Azərsu" və s. kimi böyük xidmət sahələri, o cümlədən SOCAR və AZAL özəlləşdirilməsə... Nəqliyyat sistemini əvvəl sahibkarlara vermişdik, indi yenidən hökumət Bakı Nəqliyyat Agentliyini yaratdı və bu sistemi idarə etməyə başladı. Səhmdar cəmiyyətlər hamısı birlikdə bu il büdcəyə cəmi 3,5 milyon manat vergi verəcəklər. Faktiki olaraq bunlar səmərəsiz fəaliyyət göstərən qurumlardır. Bunlar özəlləşdirilməlidir. Özü də yubanmadan bu işlər görülməlidir. İri, nüfuzlu beynəlxalq bankları Azərbaycana gətirmək, Azərbaycan sahibkarının ucuz kreditlərə çıxışını təmin etmək lazımdır. Əlbəttə, neft pulları ilə çox işlər görülüb. Amma bizim gözlədiyimiz o güclü iqtisadiyyatı ona görə qura bilmədik ki, neft pullarını hökumət xərclədi. Mən ona görə Dövlət Neft Fondu yaranandan özümü öldürürəm ki, bu pulların bir hissəsini - demirəm ki, hamısını - gətirin, yerləşdirin yerli özəl banklarda. Birinci, Azərbaycan vətəndaşları öz pullarını xaricə çıxarmasın, görsün ki, hökumət bizim özəl banklara etibar edir, onlar da pullarını gətirib ölkənin özəl banklarında saxlasın. İkincisi, vətəndaşlarımızın ucuz kreditlərə çıxışı olsun. Üçüncüsü, banklar da inkişaf etsin. Əgər biz sahibkarların ucuz kreditlərə çıxışını təmin edə bilməsək, indiki kredit faizləri ilə heç bir sahibkar kredit götürüb ondan rentabelli biznes sahəsi qura bilməz.

***- Bunlar iqtisadi sfera ilə bağlı təkliflərdir. Bəs digər sahələr haqda nə deyə bilərsiniz?***

- Təbii ki, ölkədə qanunların aliliyinin təmin olunması istiqamətində paralel addımlar atılmalı və məhkəmə islahatları həyata keçirilməlidir. Məsələn, indi ölkədə 8 dövlət orqanının istintaq departamenti var. Bunların hamısı birləşdirilməlidir. Baş Prokurorluğun tabeçiliyində vahid dövlət İstintaq Komitəsi yaradılmalıdır. Yəni hər hansı bir cinayət faktını aşkar edən orqan həmin materialları istintaq aparılması üçün Dövlət İstintaq Komitəsinə göndərilməli və araşdırma burada getməlidir. Bu, həm də əsassız cinayət işlərinin, təqiblərin qarşısını alacaq. Çünki eyni orqan həm cinayət faktını aşkar edir, həm də onun istintaqını aparır. Amma burada cinayət faktını aşkarlayan istintaqın aparılması üçün onu başqa orqana göndərir.

Bundan əlavə, hakimlər ömürlük seçilməlidir. İkincisi, hakimlər yalnız cinayət törətdiyinə görə onlar vəzifəsindən kənarlaşdırıla bilər. Amma indi bizdə intizam məsuliyyətinə cəlb etməklə hakimləri vəzifədən kənarlaşdırırlar. Hətta ədliyyə naziri dedi ki, Məhkəmə-Hüquq Şurası formalaşandan sonra 120-yə qədər hakim vəzifəsindən kənarlaşdırılıb, bu, dəhşətli statistikadır. Bu qədər hakimi necə vəzifəsindən kənarlaşdırmaq olar? Ona görə də hakimlərin tam müstəqilliyi təmin olunmalıdır. Hakimlərin maddi təminatı olmalıdır. Söhbət 600 hakimdən gedir. Hesab edirəm ki, 600 hakimin hər birinə indiki reallıqda ən azı ayda 10 min manat məvacib verilməlidir və ehtiyacı olanlar mənzillə təmin olunmalıdır. Onlardan da tələb olunmalıdır ki, qanunları göz bəbəyi kimi qorusunlar, ədalətli qərarlar qəbul etsinlər. Bax, bizdə 120 hakim qanunu pozduğuna görə vəzifədən kənarlaşdırılıb. Bunların neçəsi həbs olunub? Hesab edirəm 120 hakim qanunu pozduğuna görə cəzalanıbsa, 120-si də məsuliyyətə cəlb olunmalıdır. Yəni onlar həbsə atılmalı idi.

*__P.S.__ Müsahibənin tam mətnini musavat.com-da oxuya bilərsiniz.*

**❑ Elşad PAŞASOY,
"Yeni Müsavat"**



# Şimal ayısına yaslananlar, cənub şirinə güvənənlər

Xalid KAZIMLI

**Bu ölkədə siyasətdən az-çox baş çıxaran hər kəs fərqindədir ki, şərqlə qərbin, şimalla cənubun qovuşuğunda olan regionumuzda kiçik ölkə olmaq, olub da baş girləmək çox çətindir.**

Şimal ayısı bir tərəfdən, cənub şiri o biri tərəfdən üstümüzə diş qıcayır. Hələ bunun bizi diri-diri udmaq istəyən qərb akulaları var. Gerçəkdən çətindir.

Bu qədər qəliz regionda və zamanda 10 milyon əhalisi, 86 min 600 kvadrat kilometr ərazisi (de-yure) olan dövlətin müstəqilliyini, mövcudluğunu qorumaq da asan deyil.

Kənardan baxan düşünə bilər ki, nə təhlükə var, hansı iri dövlət qoşunla hücum edib BMT üzvü olan dövləti işğal edə bilər?

Elə deyil. Birincisi, regionumuzda elə bir gizli niyyət daşıyan və tarixi fürsət gözləyən iki böyük (Rusiya və İran) dövlət var.

İkincisi, bu niyyətini gizlətməyən və biz qarşı açıq aqressiya nümayiş etdirən, əzəli ərazilərimizin hesabına böyümək istəyən kiçik dövlət də mövcuddur.

Üçüncüsü, bu saat dünyada silahlı, qanlı işğallardan çox, mədəni, iqtisadi işğala üstünlük verirlər. Elə şərait yaradırlar ki, bir dövlət xarici qoşunu öz ərazisinə yalvararaq çağırır, iqtisadiyyatının dayağı olan müəssisələri böyük dövlətlərə yalvararaq satır, hər hansı bir müstəqil qərar qəbul edəndə mütləq özünə ağa saydığı paytaxtdakı baş iqamətgaha baxır və s.

Ermənistanın günü göz önündədir. Gürcüstanın başına nə oyun gətirildi, gördük. Ukrayna hansı günlərə qalıb, izləyirik. ABŞ Əfqanıstandan qoşununu çıxarmaq istədi, ölkənin prezidenti "etməyin, eləməyin" deyə yalvardı. İraq da eləcə.

Yuxarıda adları mötərizə arasında yazıldı, ancaq Rusiya və İran vaxtilə anllaşıb böldükləri ölkəmizi hələ də özlərinin "arxa bağçası" sayır. Rusiyanın da bir ayağı buradadır, İranın da. Hər iki dövlətin ölkəmizdə saxladığı casuslar şəbəkəsi, 5-ci kolonu, tərəfdarlar korpusu var.

Bu korpuslar Azərbaycanı müstəqil dövlət kimi tanımırlar, içində yaşasalar da, qəlbləri Tehran və Moskva ilə həmahəng döyünür. Onların televizorlarının peyki Moskvaya və Tehrana tuşlanıb, siqnalı oradan gözləyir, tarixi fürsətin yetişəcəyi günün intizarını çəkirlər.

Keçmiş vaxtlarda öz ölkəsinin başqa bir böyük dövlətin əyaləti olmasını istəyənlərin tutarlı arqumentləri vardı, yeri gələndə deyirdilər: "Azərbaycanın işıqlı gələcəyi Rusiyaya bağlıdır"; "Biz istəyirik ki, Azərbaycan dili, dini, mədəniyyəti bir olan qardaşı ilə daha da yaxınlaşsın".

O devizlər hələ də gündəmdədir, yeri gəldikcə işlədilir.

Bunlar əsl niyyətin diplomatik ibarələrlə pərdələnməsidir. Hamı bilir ki, məqsəd şəxsi mənsəb və mənfəət naminə ölkə xalqının mənafeyini satmaqdır.

Görünür, ötən əsrin 20-ci illərində, düz 99-100 il öncə müstəqil Azərbaycanı Rusiyaya satıb əyalətə çevirənlərin aqibəti (Nərimanovdan Çingiz İldırıma qədər) bir çoxlarına dərs olmayıb.

O xainlərin hamısını ya zəhərlədilər, ya da güllələdilər, sürgünlərdə çürütdülər, heç biri xoşbəxt olmadı. Çünki öz dövlətlərini böyük dövlətə satdıqları andan öz talelərinin sahibi deyildilər. Əllərinin üstündə əl vardı və o əl bir gün onların öz əlini bağlayıb, üzlərini divara çevirdi...

Hələ şimal ayısının etibarına bələd olanlar nisbətən çoxdur, cənub şirinə güvənənlər isə duza gedirlər. Onlar da elə bilirlər ki, Azərbaycan müstəqil dövlət yox, İranın tərkibində Lənkəran, Gəncə, Şirvan, Qarabağ, Quba ostanlıqları olsa, xalq daha xoşbəxt olar.

Bu, avantüradır. Dünyanın ən demokratik ölkəsi belə müstəqilliyini əlindən vermiş xalqı xoşbəxt edə bilməz. Zatən, müstəqil dövlət qurduğu halda özünü idarə edib xoşbəxt ola bilməyən xalqlar qısa müddətdən sonra köləliyin nə qədər böyük bədbəxtlik olduğunu anlayırlar, amma gec olur, yenidən müstəqilliyin bərpa edilməsi azı 30-40, bəzən isə 70 il çəkir.

5-ci kolon fəallarının müstəqil dövlətin içində kompakt yaşayan azsaylı xalqların arasında fitnə-fəsad işləri apararaq, separatizmə meylləndirməsinə də bu prizmadan yanaşmaq lazımdır.

O adamlara müstəqil mikrodövlət -filan lazım deyil. Nəhəng dövlətlərin əhatəsindəki 5-10 milyonluq əhali kütləsinə malik dövlətlər problemlər məngənəsində sıxılırsa, daha kiçik dövlətlərin nəinki ağ günə çıxmaq, heç uzun yaşamaq şansı da yoxdur. Sadəcə, böyük dövlətlər onlardan maşa kimi istifadə etmək istəyir.

**Kinodramaturq Rüstəm İbrahimbəyovun uzun fasilədən sonra Azərbaycana qayıtması və Bakıda Kinematoqrafçılar İttifaqının üzvləri, həmçinin bir neçə yazıçının iştirakı ilə 80 illik yubileyini qeyd etməsi bir neçə gündür onu diqqət mərkəzinə gətirib. Xüsusən R.İbrahimbəyovun yubiley ziyafətini dar çərçivədə keçirməsi və siyasi xadimlərdən heç kimi dəvət etməməsi maraqla qarşılanıb. Hakim Yeni Azərbaycan Partiyasının icra katibinin müavini Siyavuş Novruzov bildirib ki, Rüstəm İbrahimbəyov onu yubiley məclisinə dəvət etsəydi iştirak edəsi deyildi.**

# "İbrahimbəyov siyasətdə Yusif Sərrac rolunda çıxış etdi"

## Tanınmış siyasət adamları Rüstəm İbrahimbəyovun yubileyi haqda danışdılar



**VHP sədri, xalq yazıçısı Sabir Rüstəmxanlı isə "Yeni Müsavat"a bildirdi ki, Rüstəm İbrahimbəyovun vətənə gəlişinə və yubileyini burada keçirməsinə sevinib:** "Gəlib özünün 80 illiyini burada keçirməsi və buna şərait yaradılması sevindiricidir. Rüstəm İbrahimbəyov Azərbaycan mədəniyyətini həm ölkəmizdə, həm də dünya miqyasında təmsil eləyən çox istedadlı adamdır. Onun bütün siyasi görüşlərinə baxmayaraq, Azərbaycandan kənarda qalması, incidilməsi, inciməsi xoşagələn deyildi. Rüstəm bəyin burada bir torpaq mübahisəsi olmuşdu, orada kino mərkəzi yaratmaq istəyirdi. Ona bu iş üçün şərait yaradılsaydı, Azərbaycan mədəniyyətinin xeyrinə idi. Narazılıq sonra çevrildi siyasi mübarizələrə, buna da ehtiyac yox idi.

Məncə, Rüstəm İbrahimbəyovun Mədəniyyət Nazirliyi səviyyəsində böyük yubileyini də keçirə bilərdilər və yazıçılar da orada iştirak edərdilər. Amma Rüstəm bəy öz yaxın çevrəsi ilə məhdud bir çevrədə yubileyini keçiribsə, bu da onun haqqıdır. Bizim Rüstəmlə yaxınlığımız o səviyyədə deyil ki, məhdud çevrəli məclisinə də bizi dəvət eləsin. Mən onun qardaşı Maqsud İbrahimbəyovla daha çox yaxın idim. Rüstəmlə o dərəcədə yaxınlığım yoxdur ki, onun məhdud çevrədə keçirilən məclisində mən iştirak edim".

**AXP sədri Pənah Hüseyn bildirdi ki, Rüstəm İbrahimbəyov dəvət edərdisə, yubileyinə qatılardı:** "Rüstəm İbrahimbəyovun 80 illik yubiley ziyafəti, belə demək mümkünsə, Kinematoqrafçılar İttifaqı üzvlərinin, kino xadimlərinin məclisi kimi nəzərdə tutulub. Mən də kino xadimi və kinematoqrafçı deyiləm. Amma istənilən halda, Rüstəm İbrahimbəyov məni dəvət edərdisə və edərsə, mən iştirak edərəm. Onun vətənə qayıdışına gəldikdə, Azərbaycana gəlişinə nə zamansa rəsmi hüquqi qaydada qadağa qoyulduğu barədə heç bir məlumatım yoxdur. Amma qeyri-rəsmi şəkildə onun gələrsə, həbs olunacağı barədə informasiyalar yayılmışdı. Dünya şöhrətli mədəniyyət xadiminin vətəninə gəlməsinə qeyri-rəsmi də olsa qadağa qoyulması yaxşı hal deyildi. İndi bu hal aradan qaldırılıbsa, hər halda, yaxşı olub. Hər bir azərbaycanlının haqqıdır öz vətəninə gəlsin".

**ADP sədri Sərdar Cəlaloğlu bildirdi ki, Rüstəm İbrahimbəyov siyasətçi olmadığını hər addımında sübuta yetirir:** "Mən Rüstəm İbrahimbəyovu siyasətçi kimi tanımıram və hətta o, Milli Şuraya sədr gələrkən də mən onun siyasətçi olmadığını bəyan etmişdim. Hələ o vaxt demişdim ki, belə bir adamın Milli Şuraya sədr seçilməsi yanlışdır. Milli Şuranın da o zaman Rusiyanın layihəsi olduğunu demişəm. Qısa müddət sonra mənim dediklərimin haqlı olduğu təsdiqlənib. Rüstəm İbrahimbəyov siyasətçi deyil, amma miqyaslı mədəniyyət xadimidir, dünyada tanınmış mədəniyyət xadimlərindən biridir. Böyük filosoflardan biri deyib ki, ziyalıların siyasətdə iştirakı təlxək rolundan ibarətdir. Mən bu fikrin haqlı olduğunu düşünürəm. Mədəniyyət xadimləri, ziyalılar əgər əvvəldən tam olaraq siyasətdə olmayıblarsa, siyasi baxımdan yetkinləşməyiblərsə, nə qədər böyük ziyalı olsa da siyasətçi ola bilməyəcək. Siyasətdən başı çıxmayan ziyalı siyasətə qoşulanda primitiv davranışlar nümayiş etdirirlər və özlərini gülüş hədəfinə çıxarırlar. Rüstəm İbrahimbəyovun prezidentliyə iddiası ortaya çıxanda o bəyan edirdi ki, mənim Azərbaycanda torpağımı əlimdən almasaydılar mən heç müxalifətçi olmazdım. Heç bir siyasətçi hətta şəxsi maraqlarına görə siyasətə gəlsəydi belə, fikrini bu cür ifadə etməzdi. Yaxud da Rüstəm İbrahimbəyov gedirdi Fransaya, ondan soruşurdular ki, qayıdacaqsan Azərbaycana? O isə deyirdi ki, "dəliyəm qayıdam". Oradan isə Moskvaya gəlirdi və orada deyirdi ki, "məni öldürsələr də Azərbaycana qayıdacağam". Əslinə baxsan, Rüstəm İbrahimbəyov siyasətdə Yusif Sərrac rolunda çıxış elədi. Amma Rüstəm müəllim Azərbaycan kino mədəniyyətinin dünyada təmsil olunmasında çox böyük xidmətləri olan mədəniyyət xadimidir. Buna görə ona minnətdar olmaq lazımdır. Rüstəm İbrahimbəyov bir mədəniyyət xadimi olaraq yubileyinə məni dəvət etsəydi, mən məmnuniyyətlə gedib iştirak edərdim. Çünki dünya şöhrətli mədəniyyət xadimidir. Hakimiyyətə yaxın şəxslərin də Rüstəm İbrahimbəyovun ziyafətində iştirak etməsi göstərdi ki, hakimiyyətin onun bura qayıdışına və mədəniyyət xadimi kimi fəaliyyət göstərməsinə razılığı var. Yubiley ziyafətinə fəxri sədri olduğu Milli Şuradan bir nəfəri də olsun dəvət etməməsi isə onun Milli Şuraya arxa çevirməsidir. Bu hadisə Rüstəm müəllimlə Milli Şura üzvləri arasında "məhəbbətin" nə qədər səmimi olduğunu göstərdi".

❑ Etìbar SEYİDAĞA,
"Yenì Müsavat"

# Fazil Məmmədov biznesinin başına keçdi-sahibkarları incidəni indi nə gözləyir?

**Hələ nazir işlədiyi dövrdə yaradılan "Synergy Group" MMC istehsalat, tikinti, kənd təsərrüfatı, İKT, hotelçilik, təhsil, səhiyyə və bank işi sahələri üzrə iri yatırımlar edib; uzun illər sahibkarların qorxulu röyasına çevrilən sabiq nazir iş adamı və vergi ödəyicisi kimi özünü doğruldacaqmı?**




**Fevralın 8-də "ölüm" xəbəri yayılan sabiq vergilər naziri Fazil Məmmədovun səhhəti normaldır və hazırda Bakıda biznes işləri ilə məşğuldur. Yaxın çevrəsində olan mənbənin modern.az-a verdiyi məlumata görə, F.Məmmədova əvvəlki biznesi İlə məşğul olmaq icazəsi verilib. Bu səbəbdən də o, hazırda əsas diqqətini "Synergy Group" MMC şirkətlər qrupuna yönəldib.**

Məlum olduğu kimi, "Synergy Group" MMC şirkətlər qrupu hələ Fazil Məmmədov nazir olduğu dövrdə yaradılıb, rəsmi olmasa da, de-fakto ona məxsus olub.

"Yeni Müsavat" bildirir ki, 2010-cu ildə təsis edilmiş, şüarı "Davamlı gələcəyə doğru" olan "Synergy Group" MMC Azərbaycanda fəaliyyət göstərən ən iri özəl investisiya şirkətlərindən biridir. "Synergy Group" MMC qeyri-neft sektorunda müxtəlif və inkişaf yönümlü şirkətlərdən ibarətdir.

"Synergy Group" istehsalat, tikinti, kənd təsərrüfatı, İKT, hotelçilik, təhsil, səhiyyə və bank işi sahələri üzrə iri yatırımlar etməkdədir. Şirkətlərin böyük əksəriyyəti Bakıdan kənarda yerləşməklə, regionların sosial-iqtisadi inkişafında mühüm paya malik olduğu bildirilir. Qrupa rəsmi olaraq, 30-a yaxın, qeyri-rəsmi isə 60-dan çox şirkət daxildir. Bu şirkətlərin bəzisində xarici kapital da iştirak edir. "Synergy Group"un tərkibindəki "Excelsior Hotel Shamkir", "AzAqro" qızılgül istixanaları, Zəyəm Texnologiyalar Parkı, "Zəka" Gənclər Mərkəzi kimi bəzi şirkətlər Fazil Məmmədovun hələ də kurasiyasında olan Şəmkirdə yerləşir.

"Synergy Group"un yalnız bankı yox idi. 2015-ci ildə YAP-çı deputatlardan birinin qardaşına məxsus "Kövsər Bank"ı "Synergy Group" alıb. "Kövsər Bank"ın 38 milyon manatlıq yeni səhm emisiyasını "Synergy Group"alıb.

Devalvasiyadan sonra isə "Synergy Group" MMC-yə daxil olan iki şirkətin ləğvi ilə gündəmə gəlmişdi. Bildirilirdi ki, neftin qiymətinin kəskin düşməsindən sonra yaranan böhran şirkətə də ciddi təsir edib. Çünki neftin qiymətinin düşməsi ilə oliqarxların tikinti-təmir üçün şirkətlərinə "xortumladığı" pullar da kəsildi ki, onlar da nəzarətlərində olan şirkətlərin bir neçəsini ya ləğv etməyə, ya da ciddi ixtisarlar aparmağa məcbur oldular.

İnternet üzərindən araşdırmalardan belə məlum olur ki, hüquqi sənədlərdə "Synergy Group" sahibinin Əşrəf Kamilov olduğu bildirilir.

"Synergy Group" saytında hazırkı icraçı direktorun İlyas Həsənov olduğu göstərilir. O, 2018-ci ilin sentyabr ayında "Synergy Group" MMC-nin icraçı direktoru vəzifəsinə təyin edilib. İlyas Həsənov əmək fəaliyyətinə 2009-cü ildə Mərkəzi Gömrük Hospitalında başlayıb. O, 2013-2016-cı illərdə "Med Corporation" və "Avrasiya Hospital" MMC-nin Baş direktoru vəzifələrində çalışıb. 2016-cı ildən etibarən "Synergy Medical "MMC-nin Baş direktoru olub.



İlyas Həsənov 2004-cü ildə Azərbaycan Tibb Universitetində "Müalicə işi" ixtisası üzrə, Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində yerləşən Mərkəzi Rentgen-Radiologiya İnstitutunda "Radiologiya", Almaniyanın Hamburq şəhərində isə "İnvaziv neyro-radiologiya" üzrə təhsil alıb. Tibb üzrə fəlsəfə doktorudur.

Yada salaq ki, F.Məmmədovun işdən çıxarılandan sonra uzun müddət ölkə xaricində müalicə alması müxtəlif iddialara səbəb olmuşdu. Məsələn, iddia olunurdu ki, sabiq nazirin səhhətində heç bir ciddi problem yoxdur. Durumunun ağır olması barədə məlumatlar isə özünün istəyi ilə yaxınları tərəfindən məqsədli şəkildə, qəsdən yayılır. F.Məmmədovun yaxın çevrəsi ilə ünsiyyətdə olan şəxslərdən birinin sözlərinə görə, F.Məmmədov vəzifədən çıxdıqdan sonra həm Bakıda rəsmi orqanlarda qarşılaşacağı bir çox sualları cavablandırmaqdan qaçmaq, həm də vergi adı ilə əvvəlcədən külli miqdarda pul ödətdirdiyi iş adamlarının tələblərindən yayınmaq üçün Bakıya qayıtmırdı. Onun ötən ilin sonunda Bakıya qayıtmasından sonra isə obyektlərində təftiş aparılması xəbərləri vardı. Yeri gəlmişkən, xəbərlərə görə, sabiq nazir səhhətini nəzarətdə saxlamaq üçün mütəmadi olaraq, özünə məxsus Gəncə Beynəlxalq Hospitalında olur. Lazımi müayinələrdən keçdikdən sonra yenidən Bakıya qayıdır.

**F.Məmmədov işdən çıxarılandan sonra onun yerinə təyin edilən Mikayıl Cabbarov bir neçə gün əvvəl ad çəkməsə də, yenidən sabiq nazirin fəaliyyətini tənqid edib. Nazir deyib ki, "kölgə iqtisadiyyatı" qanuni əsaslarla işləyən sahibkarların əl-qolunu bağlamışdı:** "Elə bir vəziyyətlə üz-üzə idik ki, praktiki olaraq intizamla işləmək istəyən şirkətlər bazar paylarını itirməyə məhkum idilər. Uçot sisteminin iflic olması nəticə etibarilə vergi potensialının gizlədilməsinə, bazarın qeyri-sabitliyinə şərait yaradırdı. Uçot sisteminin bərpası üçün sahibkarlara vaxt verildi, geniş maarifləndirmə işləri aparıldı. Bəzi sektorlarda, xüsusilə aksizli malların istehsalı və satışı, tibbi xidmət sektoru, ticarət obyektləri şəbəkəsi kimi sahələrə nəzarət artırıldı. Uçot sisteminin bərpa edilməsi ilə bağlı tələblərimiz müəyyən müqavimətlə, bəzi hallarda narazılıqla qarşılandı. Kimsə bunu kampaniya xarakterli saydı, kimsə gözləməyə üstünlük verdi. Lakin düşünürəm ki, nəticə etibarilə qəbul edildi. Çünki hər kəs başa düşür ki, gec-tez qanunlar çərçivəsində işləməkdən daha faydalı yol yoxdur. Bulanıq suda balıq tutmaq zamanı bitib".

**Maraqlıdır, görəsən, uzun illər sahibkarların qorxulu röyasına çevrilən sabiq nazir indi iş adamı və vergi ödəyicisi kimi özünü doğruldacaqmı?**

❑ ORXAN,
"Yeni Müsavat"



# SOCAR Gürcüstana qazı ucuz satır-şirkətdən açıqlama

## İbrahim Əhmədov: "Gürcüstanda qazpaylayıcı şirkətlərin əksəriyyəti öz satış tariflərini hələ SOCAR-dan əvvəl artırıb"

**Gürcüstan hökumətinin Rusiyadan qaz almaq istəyi bu ölkəni uzun illərdir etibarlı şəkildə qazla təmin edən Azərbaycanda birmənalı qarşılanmayıb. Xüsusilə Tiflisin atdığı addımı SOCAR-ın Gürcüstanda biznes üçün qaz tariflərini martın 1-dən etibarən qaldırması ilə əsaslandırmağa cəhd etməsi Bakıda təpkilərə səbəb olub. Əksər mütəxəssislər hesab edirlər ki, bu, daha çox Azərbaycandan qaz alqı-satqısında əlavə güzəşt əldə etməyə yönəlmiş bir addımdır.**

Gürcüstanın əsas qaz təchizatçısı olan SOCAR-da Tiflisdən səslənən iddialara münasibət necədir? Şirkətin qonşu ölkədə biznes üçün qaz tariflərini qaldırmaq qərarından imtinası gündəmə gələ bilərmi?

**SOCAR İctimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini İbrahim Əhmədovun "Yeni Müsavat"a bildirdiyinə görə, Gürcüstanda sosial istehlakçılar üçün təbii qaz tarifləri dövlət tərəfindən tənzimlənirsə, əsasən sənaye müəssisələri olan kommersiya istehlakçıları üçün təbii qaz tarifləri qazpaylayıcı şirkətlər tərəfindən müəyyən edilir:** "Nəzərə alsaq ki, Gürcüstanda qazpaylayıcı şirkətlərin əksəriyyəti öz satış tariflərini hələ SOCAR-dan əvvəl artırıblar və hazırda Gürcüstan bazarında kommersiya istehlakçıları üçün qaz tarifləri əsasən 95-131 tetri arasında dəyişir, aydın olur ki SOCAR öz tarifini hətta 95 tetriyə qədər artırandan sonra Gürcüstan bazarının ən aşağı tarif seqməntində yer alır. Bunu da qeyd etmək vacibdir ki, şirkətimiz tərəfindən Gürcüstanda qaz tarifinin artırılması bizdən asılı olmayan obyektiv səbəblərlə bağlıdır, o cümlədən:

- Gürcüstanın milli valyutası olan larinin devalvasiyası;
- dünya bazarlarında neft və qazın qiymətinin dəyişməsi və bununla Gürcüstana təbii qazın idxal qiymətinin dəyişməsi;
- dövlət tərəfindən SOCAR üçün qazpaylama tarifinin qaldırılması".

İ.Əhmədov qeyd edir ki, hazırda Azərbaycan təbii qazın hasilatını ciddi şəkildə artırmaqla, həm öz daxili tələbatını tam təmin edir, həm də qonşu Gürcüstanın tələbatını tam qarşılayır və qardaş Türkiyənin enerji təhlükəsizliyinə mühüm töhfə verir: "Gürcüstanla tərəfdaşlığımızın tarixçəsi Azərbaycanın səmimi, güvənli və dayanıqlı tərəfdaş olduğunu göstərir və buna görə biz qarşılıqlı mənafelərimizi təmin etmək şərti ilə öhdəliklərimizi tam yerinə yetirmək əzmindəyik. Təbii olaraq, hər bir ölkə öz enerji təhlükəsizliyini təmin etməkdə maraqlıdır. Qarşıdakı dövrdə həm Gürcüstan, həm də Türkiyə bazarına ixrac olunan təbii qaz həcmlərində azalma deyil, əksinə, artım gözlənilir. Əlbəttə, alternativ mənbələrdən qaynaqlanan boru xətlərinin mövcudluğu, sırf mümkün fövqəladə vəziyyətlərə qarşı sığortalanmaq baxımından həmin xətlərdən istifadə mexanizminin işlənməsi idxalatçı ölkələrdə bəzən müzakirə mövzusu ola bilər. Bununla yanaşı, Azərbaycanın təbii qazı regionun bazarlarında öz yüksək rəqabət qabiliyyətini davamlı şəkildə təmin edir və bazarlardakı mövqelərini daha da gücləndirir".

❑ DÜNYA,
"Yeni Müsavat"

# Müşfiq kimi



Zamin HACI
zaminhaci@gmail.com

"- Sən necə bilirsən, bu quzuya çoxmu ot lazımdır?
-Necə məgər?
-Axı mənim evimdə hər şey çox azdır..."

*(Ekzüperi, "Balaca şahzadə")*

**Dillər Universitetindən qadın müəllim şikayətlənir, deyir rektor məni necə sıxışdırırsa, özümü Müşfiq kimi hiss edirəm. Əlbəttə, biz buna inanmaq istəmirik, çünki oranın rektoru Kamal müəllimdən belə hərəkətlər gözləmirik. Mədəniyyət Fondunun müdiri olub, sonralar Multikulturizm İdarəsinə başçılıq edib və sairə. Asudə vaxtlarında da şeir yazır. Ola bilərmi şair ruhlu insan öz idarəsində repressiya rüzgarları əsdirsin, işçilərini Nargin adasında öldürmək fikrinə düşsün? Ola bilməz. Əksinə, bizdə şairlər qaz idarəsinə müdir olub əhalini qızdırıblar, evlərə istilik gətiriblər. Bu yaxında radioda bir kişidən reportajı özüm dinlədim, deyir polisdə polkovnik olub, ancaq 45 dənə şeir kitabı çıxıbdır. Səhər cinayətkara qandal vurub axşam ilham pərisi ilə qucaqlaşırmış. Bəs niyə belə söhbətlər ortaya çıxır? Görünür, bu temada "Gizli Xarici Dillər" adlı ədəbi-bədii, lirik-sentimental, pullu-monumental araşdırmaya ehtiyac vardır. KİVDF-dən proje gözləyirəm.**

Ancaq ümumiyyətlə, bizdə Müşfiq ömrü yaşamaq istəyən insanlar çoxdur. Nəyi pisdir ki? Qısa müddətdə kitabını yazıb, xalqın sevimlisinə çevrilib öldürülməyə gedirsən. Yoxsa vəzifədə otur, səni yazıçılar ittifaqına katib-zad qoysunlar, sən də ev alveri ilə, qəlyan ticarəti ilə, nə bilim, arvad-uşağın əyin-başını fikirləşməklə çürü. Hərçənd bizim uca millətimiz elə qanacaq və hörmət yiyəsidir ki, Müşfiqin ölüm hökmünü kəsən, başını istəyən şairlərə də Müşfiqə bəslədiyi məhəbbət qədər məhəbbət bəsləyir, hələ bəlkə daha çox. Bu ziddiyyəti başa düşmək çətindir. Misal üçün, bu yaxında Latviyada KQB arxivlərini açdılar, xeyli hörmətli adamlar - keşişlər, aktyorlar, deputatlar-zad  agent çıxdı. Aləm qarışdı bir-birinə, adı SSRİ zamanı agent çıxan yoldaşlar bundan qətiyyətlə imtina etməyə çalışdılar. Biri dedi, adımı qeyd elətdirmişəm, ancaq kimsəni satmamışam, işvərən olmamışam. O biri dedi, KQB məndən xaricdəki proseslər haqda məlumat alırdı, daxildə, Latviyada işim olmayıb və sairə. Mən o zaman fikirləşdim ki, bənzər arxiv bizdə açılsa nə olardı. Əlbəttə, adı çıxanlar fəxr edərdilər! Millət də həmçinin. Hətta bəzi analar uşaqlarına, arvadlar isə ərlərinə qapaz vurardı ki, kül sənin kişi başına, camaat agentlik eləyib, pul qazanırmış, sən isə bizi acından öldürürdün, kolbasa növbələrində ayağımıza su gəlmişdi. Bunu fərziyyə üçün, ehtimal kimi yazmıram, ortada min dənə faktlar var. Misal üçün, şairlər var, komsomol mükafatı almasını indi də qürurla tərcümeyi-halına yazır. Elə bil Nobel, Buker alıb. Yazıçımız var, mənasız cızmaqaralarının 70-ci illərdə sovet proletkult propaqandası idarəsinin xətti ilə buşmen dilinə tərcümə edilib Mozambikin banan kolxozunda çapdan çıxmasını böyük uğur sayır, deyir, əsərlərim dünyanın filan qədər dilinə çevrilmişdir.

Ancaq gəlin qanımızı qaraltmayaq. Düzələcək. Elə Afrikadan söz açmışkən, bu həftə aldığım sevindirici xəbəri hörmətli oxucularla bölüşməyin ləzzətini yaşamaqdan məmnunluq duyduğumu Nəsimi adına Dilçilik İnstitutunun müdiri Mirmövsüm ağaya bildirmək istərdim. Bildiyiniz kimi (oxucuların boynuna qoyursan, sonra ağlına gələni yazırsan - bu, yeni stildir), kənd təsərrüfatı idarəmizin nümayəndə heyəti Cənubi Afrika Respublikasına səfərdən qayıtmışdır. Deyir, oradan yeni qoyun sortları almışıq, ölkəmizdə yayacağıq. Açığı, biz elə bilirdik qoyunlarımızın dünyada analoqu yoxdur, əti ən daddı, yunu ən yumşaq, quzusu ən şirin mələyən, canım sənə desin, qoçu ən bərk kəllə atan qoyunlar ölkəmizdə yaşayır. Elə deyilmiş. Elə olsa niyə dünyaya yayılıb qoyun yığırıq? Hətta qoyunu da ixrac etməyə məcburuqsa, daha niyə yaşayırıq? Respublikamızın gələcəyinə ümidlərim bir az sarsılmışdır.

Sonda rektorlardan xahiş edirəm, işçilərinə Müşfiq münasibəti göstərməsinlər, onların dərisini soysunlar. Çünki bizdə Nəsimi ili elan olunub, Müşfiq yox. Dövlət tədbirinə qarşı çıxmayın.

# Kreml Ermənistanı Suriyada tələyə saldı - ABŞ-dan qəzəbli mövqe

## İrəvanın Suriyaya göndərdiyi humanitar missiyaya sərt reaksiyanın ardınca Vaşinqton Əsəd rejiminə silah daşıyan erməni şirkətini hədəfə aldı, erməni XİN başçısının Amerika səfəri isə ləğv olundu - vassal olmağın bədəli...




**Martın 1-də İrəvanın mərkəzində vətəndaş marşı olacaq. "Yeni Müsavat" erməni qaynağına istinadən xəbər verir ki, marşın ideya müəllifi baş nazir Nikol Paşinyan, motiv isə - 10 nümayişçinin öldürüldüyü 2008-ci ilin qanlı mart hadisələrinin ildönümüdür.**

"Bu il 1 mart hadisələrinin 11 ili tamam olur. Bu marş Ermənistan vətəndaşının seçkilərin saxtalaşdırılmasına, zorakılığa, korrupsiya və qanunsuz əməllərə qarşı mübarizədə qələbəsinə həsr olunacaq", - deyə o qeyd edib.

*****

Beləcə, hələ də inqilab eyforiyasından çıxmayan Paşinyan verdiyi əsas vədi - xalqın güzəranının yaxşılaşmasına nail olmaq əvəzinə, onun başını yenə küçə yürüşü ilə qatmağa hazırlaşır. Ancaq Nikol növbəti küçə yürüşünə hazırlaşırkən ABŞ-dan onun üçün çox pis xəbərlər gəlib.

Biri odur ki, ABŞ Maliyyə Nazirliyinin Xarici aktivlər üzərində nəzarət idarəsi (U.S. Department of the Treasury's Office of Foreign Assets Control-OFAC) Suriyada fəaliyyət göstərən iki iranlı hüquqi şəxsə Suriyaya silah daşıdığı üçün sanksiya tətbiq edib və məlum olub ki, bunlar İran İslam Keşikçiləri Korpusuna bağlı "Mahan Air" aviaşirkəti və həmin şirkətin Ermənistandakı satış üzrə baş agentliyi - "Flight Travel LLC" şirkətidir.

Musavat.com ABŞ-ın Ermənistandakı səfirliyinin rəsmi səhifəsində yayımlanan həmin sensasion məlumatı artıq  təqdim edib. O da bəlli olub ki, Ermənistanda yerləşən "Flight Travel LLC" şirkəti "Mahan Air"in əsas gəlir mənbələrindən biri hesab olunur. Şirkət Ermənistanda "Mahan Air GSA" kimi fəaliyyət göstərməsindən dolayı ABŞ Maliyyə Nazirliyinin diqqətinə düşüb. Bildirilir ki, "Flight Travel LLC" dəfələrlə "Mahan Air"ə verdiyi kommersiya dəstəyinə görə sanksiyalara məruz qalacağı barədə edilən xəbərdarlıqları görməzdən gəlib.

*****

Erməni şirkətinə qarşı Suriyaya görə sanksiya tətbiqinin ardınca Vaşinqton Ermənistan xarici işlər naziri Zoqrab Mnatsakanyanın ABŞ-a neçə vaxtdır hazırlıq görülən səfərini ləğv edib. Bu haqda Ermənistanda nəşr edilən "Qraparak" ("Meydan") qəzeti XİN-dəki mənbəyə istinadən yazır (virtualaz.org). Bildirilir ki, İrəvan bu səfərin üzərində çoxdandır işləyirdi və xeyli səylər göstərmişdi. Lakin Ermənistanın Suriyaya hərbi missiya göndərməsi bütün işləri korlayıb.

"Mənbə deyir ki, bu məsələdə ABŞ prezidentin milli təhlükəsizlik müşaviri Con Boltonun baş nazir Nikol Paşinyanla yanvarın sonlarında baş tutmuş telefon danışığı əsas rol oynayıb. Bolton soruşub ki, Ermənistanın Suriyaya hərbi missiya göndərməsi barədə qərarı qətidirmi? Və buna müsbət cavab alıb" - qəzet yazır.

Qəzetin bildirdiyinə görə, Ermənistan XİN bütün mümkün yollarla situasiyanı düzəltməyə və ABŞ dövlət katibi Mayk Pompeonun Mnatsakanyana dəvət göndərməsinə çalışır. Lakin bütün səylər boşa çıxır. "İstisna deyil ki, bu səfərin təşkili üçün erməni tərəfi lobbiçilərin xidmətindən istifadə etsin. Yeri gəlmişkən, bizim Vaşinqtondakı səfirimizin də vəziyyəti yaxşı deyil", - mənbə əlavə edib.

*****

Xatırladaq ki, bu günlərdə erməni mənbələri baş nazir Nikol Paşinyanla Azərbaycan prezidenti İlham Əliyevin Qarabağ danışıqları üçün ABŞ-da görüşə biləcəklərini iddia etmişdi. "Yeni Müsavat" onu da xatırladır ki, ötən həftə ABŞ Dövlət Departamenti Paşinyan hökumətinin Rusiyanın xahişi və himayəsi altında Suriyaya hərb həkimlər də daxil olmaqla, 83 nəfərlik humanitar missiya göndərməsinə olduqca sərt reaksiya vermiş, rəsmi İrəvanı Moskva ilə birgə "zalım Əsəd rejiminə dəstəkdə" ittiham eləmişdi.

Həmin bəyanatdan öncə isə Ermənistanın müdafiə naziri David Tonoyan bu mövzuda danışarkən hətta demişdi ki, lazım gəlsə, Ermənistan Suriyaya silahlı qüvvə də göndərə bilər. Əlbəttə ki, söhbət Rusiya komandanlığına tabe olacaq hərbi kontingentdən gedir.

Qeyd edək ki, Rusiya çoxdandır Suriyada tək olmadığını nümayiş etdirmək, koalisiya görüntüsü yaratmaq istəyir. Ermənistan bu xüsusda yeganə postsovet ölkəsi, hətta yeganə KTMT üzvüdür ki, Moskvanın xahişini yerinə yetirdi (Azərbaycan da Suriyaya missiya göndərməyib). Təsadüfi deyil ki, Moskva İrəvanın bu jestini yüksək qiymətləndirib. Eyni zamanda öz forpostu və vassalı Ermənistanı Suriyada əməllicə tələyə salıb.

*****

Göründüyü kimi, Ermənistanın guya qərbpərəst olan yeni hökumətinin Moskvaya bu cür açıq reveransları Vaşinqtonda güclü qıcıq doğurub. ABŞ Dövlət Departamentinin məlum bəyanatı, erməni şirkətinə ABŞ-ın sanksiyası, Mnatsakanyanın ləğv edilən Amerika  səfəri... bunlar İrəvan üçün hələ "jurnal" ola bilər.

Son baş verənlər "iki stul"da oturmağa çalışan Paşinyan hökumətinə sözsüz ki, yaxşı heç nə vəd eləmir. Qərbin arzularını sürətlə "basdıran" Nikol artıq həmin Qərbin böyük maliyyə dəstəyindən əlini üzə bilər. Vassal ölkə olmağın bədəli doğrudan da ağır imiş - onun başında kim olur-olsun...

❑ **Sİyasət şöbəsİ, "Yenİ Müsavat"**

## Türkiyənin müdafiə naziri Pentaqonun başçısı ilə görüşəcək

**Türkiyənin müdafiə naziri Hülusi Akar sabah ABŞ-a yollanır. Baş Qərargah rəisi Yaşar Gülərin də daxil olduğu nümayəndə heyəti ilə ABŞ-ın paytaxtı Vaşinqtona yollanacaq.**


Hülusi Akar

Akar ABŞ-lı həmkarı Patrik Şenahenlə görüşəcək.

Görüşdə Suriya məsələsi, həmçinin ikitərəfli əlaqələr və digər regional məsələlər müzakirə ediləcək.



## Tramp İŞİD üzvünün arvadını ABŞ-a buraxmadı

**ABŞ prezidenti Donald Tramp bildirib ki, İŞİD döyüşçüsünün arvadı, ABŞ vətəndaşı olduğunu iddia edən Xoda Mutananın Birləşmiş Ştatlara buraxılmaması barədə göstərişi o özü verib.**

Bu barədə o, özünün twitter səhifəsində yazıb.

"Mən dövlət katibi Maykl Pompeoya tapşırdım və o, Xoda Mutananı ölkəyə buraxmamaqla tam razıdır", - deyə Tramp yazıb.

24 yaşlı Xoda Mutana dörd il terrorçunun arvadı olub. O, döyüşçülərin düşərgəsindən qaçıb. Qadın indi öz uşağı ilə Suriyadakı qaçqın düşərgəsindədir. Xoda Mutana bildirib ki, Alabama sakinidir və ABŞ hakimiyyətindən onu vətənə gətirməyi xahiş edib. Amma Dövlət Departamentində bildirilib ki, Mutana ABŞ vətəndaşı deyil və Birləşmiş Ştatlara buraxılmayacaq. Çünki onun pasportu, viza hüququ yoxdur.

# Rəsmi Tiflis Azərbaycana qarşı - Gürcüstan parlamentinin deputatları danışdı

**Bir müddətdir ki, rəsmi Tiflisdən Bakıya qarşı sərt, riskli gedişlər edilir. Belə ki, Azərbaycanda ictimai şəxslərin etirazlarına, Gürcüstanda həmvətənlərimizin aksiyasına baxmayaraq, Axalkalaki bölgəsində erməni Xocalı canisi Mikayel Avqayana qoyulan büst hələ də yerində durur. Doğrudur, bir sıra gürcü ziyalıları və ekspertlər, həmçinin gürcü əsilli bəzi deputatlar bu təxribata qarşı çıxdılar. Lakin gürcü rəsmilərindən, o cümlədən ermənipərəst prezident Salone Zurabaşvilidən səs çıxmadı.**





**Azər Süleymanov:** "Heç bir zaman yol verməzik ki, Rusiya öz qazı ilə Gürcüstanı girov saxlasın"

**Mahir Dərziyev:** "Azərbaycanın ziyanına olan məsələyə Gürcüstan indiyə qədər qol qoymayıb, qoymayacaq da"

Bu hadisə ilə bağlı etirazlar sönməmiş Gürcüstan hökumətindən Azərbaycana qarşı növbəti təxribat xəbəri yayıldı. Belə ki, məlumata görə, rəsmi Tiflis Rusiyanın "Qazprom" şirkəti ilə "ölkənin qaz təchizatının şaxələndirilməsi üçün" danışıqlar aparır. Gürcü rəsmilərin bildirdiyi kimi, danışıqlar yekunlaşmaq üzrədir və əldə edilmiş razılaşmaya əsasən, Gürcüstan Rusiyadan "müəyyən həcmdə" qaz alaraq Azərbaycan qazından asılılığı azaldacaq.

**"Yeni Müsavat"a danışan Gürcüstan Vahid Milli Hərəkat Partiyasının Marneulidən seçilmiş deputatı Azər Süleymanov bildirib ki, bu məsələ Gürcüstan ictimaiyyətində ciddi etirazlarla qarşılanır:** "İlk növbədə onu deyim ki, abidə ilə bağlı məsələ heç gürcü ictimaiyyətində də birmənalı qarşılanmadı. Parlamentin qarşısında aksiya keçirildi, parlamentin özündə məsələ qaldırıldı. Görünür, İvanaşvili hakimiyyəti heç də həmin heykəli götürmək fikrində deyil. Bu heykəl Gürcüstanda idarə edilən erməni qüvvələri tərəfindən məqsədyönlü şəkildə yanvarın 20-də açıldı. İstəsəydilər, bunu sakitcə də edə bilərdilər. Ancaq belə formada olması göstərdi ki, Azərbaycana qarşı hansısa mesajı verdilər. Çox təəssüf ki, heykəlin götürülməsi ilə bağlı heç bir müzakirə yoxdur və bunun fikrində belə deyillər. "Qazprom"la bağlı məsələ isə deyərdim ki, yenilik deyil. Bilirik ki, İvanaşvilinin özü "Qazprom"da 10 faiz səhmin sahibidir. O, hakimiyyətdə gələndən məsələ aktuallaşıb və hər gün gündəmdədir. Lakin Rusiya ilə diplomatik əlaqələrimiz olmadığı üçün heç bir zaman icazə verməzik ki, bu ölkə hansısa məhsulu ilə Gürcüstanı əlində girov etsin. Gürcüstanda məsələ çox böyük etirazla qarşılanır. Heç zaman razı qalmarıq ki, İvanaşvili Rusiyanın qazını Gürcüstana yedirtsin. Bununla da bağlı böyük ajiotaj var. Saakaşvili də Avropadan bəyanat verdi. 2008-ci ildə Rusiya Gürcüstana verdiyi qazı kəsən zaman Azərbaycan gürcüləri soyuqdan donmağa qoymadı, öz regionunun qazını kəsib, Gürcüstana ötürdü. Təəssüf ki, İvanaşvili bu dostluğa qiymət vermir. Ancaq İvanaşvili Gürcüstan demək deyil və əhali tamamilə fərqli fikirdədir. Heç bir zaman yol verməzik ki, Rusiya öz qazı ilə Gürcüstanı girov saxlasın. Bu, artıq şərəf məsələsidir. Belə çıxır ki, Gürcüstanı birbaşa Rusiyadan asılı saxlamaq istəyirlər. Yəni Rusiya istədiyi zaman qazı kəsərək, Gürcüstanı qazsız qoya bilər. Azərbaycandan alınan qazla bağlı isə heç bir problem yoxdur. Artıq uzun müddətdir ki, SOCAR Gürcüstanı qazla təmin edir və heç bir problem yaratmır. Sadəcə olaraq, məsələ budur ki, qaz Azərbaycanındır, İvanaşvili isə Rusiyaya bağlı bir adamdır".

**Gürcüstan parlamentinin deputatı, hakim Gürcü Arzusu Demokratik Gürcüstan Partiyasının üzvü Mahir Dərziyev isə "Yeni Müsavat"a mövzu ilə bağlı açıqlamasında aşağıdakıları söylədi:** "Müxtəlif zamanlarda fərqli hadisələrlə bağlı bu kimi narahatlıqlar olub. Lakin görürük ki, bu gün hər şey Azərbaycan-Gürcüstan dostluğuna layiq səviyyədədir. Azərbaycan-Gürcüstan münasibətləri stratejidir. Bunun da bəhrəsini hər kəs görür. SOCAR Gürcüstanda ən geniş yanacaq, doldurma məntəqələrinə, qazpaylayıcı şəbəkəyə malikdir. Eyni zamanda burada yüzlərlə azərbaycanlı çalışır. Abidə məsələsində biz də öz mövqeyimizi ortaya qoyduq, bəyanat verdik, etirazlar bildirildi. Lakin eyni zamanda bu qənaətdəyəm ki, abidə olayı və digər bu kimi skandallar mövcud münasibətlərə kölgə salacaq səviyyədə deyil. Azərbaycanla müqayisədə Ermənistanın buradakı fəaliyyəti çox cılızdır. Bu, həm Azərbaycanın iqtisadi gücü, həm də ölkələr arasında olan münasibətin səviyyəsi ilə bağlıdır. Konkret olaraq "Qazprom"a gəldikdə isə deyim ki, hökumət bəyanat verib və hələ ki heç bir nəticə yoxdur. Ölkənin enerji təhlükəsizliyini təmin etmək və enerji mənbələrini şaxələndirmək məqsədilə danışıqlar aparılır. Gürcüstanın qaza olan tələbatının 90 faizini Azərbaycan təmin edir. Gürcü xalqı da hər zaman minnətdarlıq hissi ilə bunu xatırlayır ki, Gürcüstan üçün çətin olan bir məqamda Azərbaycan öz qazını gürcülərə verib. Gürcü xalqı nankor deyil, alicənab xalqdır. Ancaq təbii ki, Gürcüstanın özünün müstəqil xarici siyasəti və dövlət maraqları var. Bir məqam var ki, Azərbaycanın ziyanına olan məsələyə Gürcüstan indiyə qədər qol qoymayıb, qoymayacaq da. Lakin bu gün Gürcüstan hökumətinin belə bir qərarı olub, danışıqlar aparılır".

**Deputat bildirib ki, hələ ki danışıqların nəticəsi bəlli deyil:** "Ona görə də məsələyə bu cür qiymət verilməsinin tərəfdarı deyiləm. Birmənalı olaraq, Rusiya bizim üçün işğalçıdır, torpaqlarımızı işğal edib. Bizim Rusiya ilə diplomatik əlaqələrimiz mövcud deyil. Ancaq hökumətimiz praqmatik siyasətin tərəfdarıdır. Yəni Saakaşvili dövründə Rusiyaya qarşı döyüşkən şüarlar, ibarələr bilirik ki, 2008-ci ilin avqustunda hansı nəticələri verdi. Ona görə də bizim hökumət nəhəng, nataraz qonşumuza qarşı praqmatik siyasət aparır. Açığı gürcü ictimaiyyətində də "Qazprom" məsələsi təpki doğurub, müxalifət də hökumətimizi tənqid edib. Ancaq bir daha deyirəm ki, danışıqların nəticəsini gözləyək və Gürcüstan-Azərbaycan münasibətlərinə zərbə vuracaq addımlar atmayaq. Məsələni "Gürcüstan hökuməti Azərbaycana qarşı nankorluq edir" deyə qoymağın da tərəfdarı deyiləm. Gəlin nəticəni gözləyək. İqtisadçılar, o sahənin mütəxəssisləri də bilirlər ki, Rusiya şirkətlərinin Gürcüstana tam şəkildə daxil olması mümkün deyil. Bunu hökumət istəsə belə, xalq yol verməz. Xalq Rusiyanı işğalçı kimi görür. Gürcüstan-Azərbaycan dostluğunu qorumaq lazımdır. Hansısa məsələyə görə baltanı dibindən vuranlar var. Hər iki ölkənin milli və dövlət maraqları üçün belə etmək lazım deyil".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# İrəvanın Bəşər Əsədə dəstəyinin pərdəarxası

## Əsas səbəblərdən biri Suriyada böyük sayda erməni icmasının olması, bu ölkədəki ermənilərin Azərbaycanın işğal olunmuş ərazilərinə yerləşdirilməsidir

**ABŞ Maliyyə Nazirliyinin Xarici Aktivlər Üzərində Nəzarət İdarəsi (U.S. Department of the Treasury's Office of Foreign Assets Control-OFAC) Suriyada fəaliyyət göstərən iki iranlı hüquqi şəxsə qarşı sanksiya tətbiq edib.**

Bunlar İran İslam Keşikçiləri Korpusuna bağlı "Mahan Air" aviaşirkəti və həmin şirkətin Ermənistandakı satış üzrə baş agentliyidir. Musavat.com-un tərcümə etdiyi ABŞ-ın Ermənistandakı səfirliyinin rəsmi səhifəsində yerləşdirilmiş məlumatda qeyd olunur ki, Əfqanıstan və Pakistan qaçqınlarının içərisindən toplanan, əfqan döyüşçülərdən ibarət "Fatimiyyun" diviziyası və pakistanlıların daxil olduğu "Zeynəbiyun briqadası" İİKK-nın Suriyadakı komandirləri və onun "Bəsic" milisləri tərəfindən idarə olunur.

2018-ci il oktyabrın 18-də OFAC "Bəsic"in Suriyada döyüşmək məqsədilə sıralarına yeni döyüşçülərin, o cümlədən uşaq yaşındakı əsgərlərin cəlb edilməsi üçün 20 korporasiyadan və maliyyə quruluşlarından ibarət maliyyə şəbəkəsini ortaya çıxarıb. Həmin təşkilatlar birbaşa İİKK-yə dəstək vermək üçün yaradılıb.

Bundan başqa, OFAC "Mahan Air"ə məxsus və nəzarət edilən "Qeshm Fars Air", habelə Ermənistanda yerləşən "Flight Travel LLC" şirkətini aşkar edib. "Mahan Air" İİKK-nın və onun Suriyadakı təmsilçilərinin dəstəklənməsində önəmli rol oynayır. Bu qurumlar ABŞ-ın antiterror orqanlarının hədəfində olan qurumlar sayılır.



Ermənistanda yerləşən "Flight Travel LLC" şirkəti isə "Mahan Air"in əsas gəlir mənbələrindən biri hesab olunur. Şirkət Ermənistanda "Mahan Air GSA" kimi fəaliyyət göstərdiyi üçün ABŞ Maliyyə nazirliyinin diqqətini cəlb edib. "Mahan GSA" aviaşirkətin brendi altında satış və marketinq, habelə inzibati və maliyyə xidmətlərini icra edir.

"Mahan Air"ə verdiyi kommersiya dəstəyinə görə sanksiyalara məruz qalacağı barədə "Flight Travel LLC"-yə dəfələrlə edilən xəbərdarlıq edilsə də, sonuncu görməzdən gəlib. İndi isə bu firma son 7 ayda "Mahan Air" adından çıxış etdiyinə görə Maliyyə Nazirliyinin cəzasına məruz qalıb. 2018-ci ilin iyununda OFAC "Mahan Air GSA"nın Malayziyadakı, sentyabrında isə Tailanddakı qollarını da üzə çıxarıb.

Buraya marketinq xidmətləri, təyyarə üçün avadanlıq və detalların alınması, texniki xidmət barədə müqavilələr, hava şirkətinə yerüstü xidmətin göstərilməsi, yemək xidməti, xətlərarası ötürmə və birgə istifadə, habelə benzindoldurma da daxildir. Bu cür fəaliyyəti həyata keçirən şirkətlərin Birləşmiş Ştatlarda olan və ya nəzarət edilən bütün əmlak və aktivlərinə həbs qoyularaq OFAC-ın sərəncamına verilir.

Qeyd edək ki, "Mahan Air" və onun Ermənistandakı tərəfdaş şirkətinə sanksiya tətbiq olunması ilə bağlı mətbuatda bir qədər əvvəl məlumat dərc olunub. Ermənistan şirkətlərinin İran şirkətləri əməkdaşlığı sirr deyil, iki ölkə arasında sərhədlər açıqdır. Bir çox İran şirkətləri beynəlxalq sanksiyalardan yayınmaq üçün qonşu ölkələrdə şirkətlər yaradaraq ticarət və hesablaşmaları onların üzərindən aparırlar. ABŞ isə indi bu əlaqələri ifşa etməyə çalışır.

Ancaq aydın məsələdir ki, Ermənistan Rusiyanın yaxın müttəfiqi olaraq Suriya məsələsində Moskvanın yanında yer alıb. Burada daha bir amil isə Suriyada böyük sayda erməni icmasının olması, hətta savaşın qızğın dövründə Suriya ermənilərinin Ermənistan və xüsusən də Azərbaycanın işğal olunmuş ərazilərinə yerləşdiriblər. Bundan başqa, ötən ilin yayında Ermənistan hökuməti Suriyaya 94 ton humanitar yardım göndərib.

Bu il fevralın 16-da isə Ermənistan ordusunun 83 hərbçisi Suriyaya göndərilib. Erməni hərbçiləri Suriyada humanitar missiya həyata keçirəcək. Hələb şəhəri və ətrafında yerləşdirilən erməni hərbçiləri hərbi polis, mina təmizlənməsi və hərbi tibb xidmətləri göstərəcək. Erməni hərbçilərinin təchizatını isə Rusiyanın Suriyadakı hərbi missiyası təmin edəcək. Görünür ki, Ermənistan hakimiyyətinin Rusiya və İrana Suriyada açıq dəstək verməsi Vaşinqtonu qəzəbləndirib. Ermənistan şirkətinin sanksiyalara daxil edilməsi də bununla bağlı ola bilər. Ehtimal ki, Ermənistanın İranla əməkdaşlıq edən digər şirkətləri də gələcəkdə sanksiyalar siyahısına daxil ediləcək.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 42 (7212) 22 fevral 2019

# Deputatlar prezidentin əyalət səfərlərində iştirak etmək istəyir

**Deputat Vahid Əhmədov "Yeni Müsavat"a müsahibəsində bildirib ki, əvvəllər prezident rayonlara səfər edəndə millət vəkillərini çağırsalar da, indi belə deyil:**

"Biz kifayət qədər təcrübəli insanlar kimi, orada cənab prezidentlə görüşür və bölgədəki iqtisadi-siyasi vəziyyət barədə də danışırdıq. Amma görünür, bu, bəzi iqtidar nümayəndələrinə sərf eləmədi və deputatları bu görüşlərdən kənarlaşdırdılar. Bunu düzgün hesab etmirəm. Prezident rayonlara səfər edirsə, o rayonların deputatları da prezidentin yanında olmalıdır. Mən kifayət qədər siyasətdə olan, ölkədəki ictimai-siyasi vəziyyəti analiz etməyi bacaran adamam. Cənab prezidentin, həmçinin birinci vitse-prezidentin əhali ilə görüşməsi çox vacibdir. Orada müəyyən şikayətlərin də olması, məktubların da verilməsi normaldır. Amma bəzi iqtidar nümayəndələri xof yaradırlar. Hamımız müşahidə etdik ki, həm Şamaxı, həm Gəncə, həm Beyləqandakı görüşlərdə əhali necə razı idi. Belə görüşlər çox olmalıdır".

Onun bu fikirlərinə digər deputat həmkarlarından da fikir aldıq. "Yeni Müsavat"a danışan deputatlar da təsdiq etdilər ki, son zamanlar prezidentin bölgələrə olan səfərlərinə dəvət almırlar.

**Deputat Aqil Abbas bildirdi ki, əvvəllər prezidentin səfərləri zamanı bir neçə dəfə iştirakçı olub, ona əhalinin problemlərini çatdırıb:** "Xüsusilə də Ağcabədi, Ağdamda dəfələrlə prezidentin səfərlərində iştirak etmişəm. Bu səfərlər çox maraqlı olub. Əvvəla, cənab prezident şərait yaradır ki, ona səmimi qayda-da sözünü deyəsən. Yaxşı qayda mövcud idi, ancaq niyə dayandırılması ilə bağlı məlumatım yoxdur. Bizim təkliflərimizin rayona köməyi dəyirdi. Belə hallar çox olub, sadəcə olaraq, saymaq istəmirəm. Bunun dayanmasının bir səbəbini deyim. Bəzi rayonlar var ki, orada deputatla icra başçısı arasında münasibət yaxşı deyil. Hər zaman belə hala gülürəm. Mənim şəxsən bütün insanlarla münasibətim yaxşı olub. Başçı da, vəzifəli şəxs də, adi vətəndaş da mənim üçün eyni adamdır. Hamısı ilə mehribanam".



**Aqil Abbas:** "Yaxşı qayda mövcud idi, ancaq niyə dayandırılması ilə bağlı məlumatım yoxdur"



**Fəzail Ağamalı:** "Ola bilsin ki, hansısa deputat protokol qaydalarını pozub, uyğun addımlar atmayıbsa, ona fərdi yanaşmaq lazımdır"

**A.Abbas bildirib ki, son zamanlar televiziya ekranlarından gördüyümüz prezidentin xalqla səmimi görüşünü əks etdirən mənzərə əslində hər zaman olub:**

"Neçə dəfə səfərdə olmuşuq, hamısında prezident əhali ilə bu formada səmimi şəkildə görüşüb. Sadəcə olaraq, televiziyalar bunun protokol hissəsini çəkib verirlər. Mən hər zaman baxırdım ki, görüşdə özüm də iştirak etmişəm, orada tamamilə başqa vəziyyət olub, ancaq televiziyada iki-üç nəfərin çıxışını göstərirlər. Protokol hissəsindən sonra hər dəfə prezident başlayır xalqla səmimi söhbət etməyə. Onların problemlərini soruşur, səmimi zarafatlar edir. Bunun dəfələrlə şahidi olmuşam. Həmin görüşlərdə şikayəti olan şikayətini deyir, məktub vermək istəyən məktubunu verir. Bir dəfə prezident Ağcabədidə Kəbirli yolunu açırdı. Təxminən 20-25 kilometr yoldur və bir neçə kəndi birləşdirir. Açılışdan sonra kəndin adamları bir yerə yığılıb, möhtərəm prezidenti gözləyirdilər. Onlarla prezident səmimi söhbət etdiyi vaxt, təxminən 50 metr aralıda 20-25 adamın dayandığını gördük. Onlar bu camaata qarışmırdılar. Birdən prezident onlara tərəf baxdı və bildirdi ki, siz nə üçün aralıda dayanmısız? Onları çağırdı. Camaat dedi ki, bu kəndlərdən deyil, qonşu kənddənik. Bildirdilər ki, bu yolu çəkdirdiyiniz üçün təşəkkür edirik. Ancaq bizim kəndin də yolu yaxşı deyil. Prezident dərhal göstəriş verdi ki, kəndin yolu çəkilsin. Orada da cənab prezident əhali ilə səmimi söhbət etdi. Bu kimi kadrların heç biri televiziyada verilmədi. Yəni son zamanlar verilən kadrlardan belə çıxmasın ki, bu, əvvəllər olmayıb. Xeyr, prezident hər zaman şərait yaradıb ki, əhali öz sözünü deyə bilsin. Mən də həmin zaman təkliflərimi, fikirlərimi demişəm".

**Deputat Fəzail Ağamalı "Yeni Müsavat"a bildirdi ki, o da prezidentin səfərlərinə deputatların dəvət olunmasının tərəfdarıdır:**

"Məlumatlı deyiləm ki, deputatların görüşlərə getməsinə hansı səbəbdən son qoyuldu. Millət vəkillərinin deyərdim ki, yüzdə-yüzü siyasi mövqeyindən asılı olmayaraq, ölkə prezidentinin həyata keçirmiş olduğu siyasəti yüksək səviyyədə qiymətləndirən siyasətçilərdir. Eyni zamanda seçicilərlə görüşdə də ölkə prezidentinin siyasətinin seçicilər tərəfindən müdafiə olunması təbliğatını bir daha önə çəkirlər. Bu gün Milli Məclis bütövlükdə dövlətçiliyimizin yanındadır, cənab prezidentlə bərabərdir. Bu, birmənalıdır. Yaxşı olardı ki, cənab prezidentin regionlara səfərlərində deputatlar da olsunlar. Ola bilsin ki, hansısa deputat protokol qaydalarını pozub, uyğun addımlar atmayıbsa, ona fərdi yanaşmaq lazımdır. Mən də tərəfdarıyam ki, cənab prezidentin olduğu səfərlərdə iştirak edək. Şəxsən mənim özüm cənab prezidentlə ünsiyyət üçün darıxmışam. Bu ünsiyyətdən sonra daha da stimullaşıram, böyük enerji alıram. Çünki cənab prezidentin çox yüksək pozitiv enerjisi, yüksək aurası var. Çox istərdim ki, cənab prezidentimiz Salyan rayonuna gedəndə mən də görüşdə iştirak edib, onu müşayiət edənlərdən biri olum".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Qarabağ adında iki komitə arasındakı söz savaşı böyüyür

## Tural Abbaslı: "Kim harada istəsə, təmsil oluna bilər"

## Akif Nağı: "Əhməd Orucun əli qranta çatmır, onun üçün boş-boş danışır"

**Azərbaycan Xalq Hərəkatı daxilində yaradılan Qarabağ Komitəsinin iki həmtəsisçisindən biri, Azadlıq Partiyasının sədri Əhməd Oruc "Yeni Müsavat"ın ötən sayına verdiyi açıqlamada Qarabağ Komitəsi (QK) adı ilə fəaliyyət göstərən qurumun bostanına daş atıb.**

Partiya sədri QK-nı hakimiyyətin göstərişi ilə fəaliyyət göstərməkdə suçlayıb. Eyni zamanda Ə.Oruc komitənin xaricdən qrant almaq üçün yaradıldığını da bildirib.

Ə.Orucun açıqlamasında digər diqqətçəkən fikirlər bunlardır: "Həm Xalq Hərəkatında, həm də Qarabağ Komitəsində fəaliyyət göstərən siyasi partiya rəhbərlərinin bizim komitədə iştirak edib-etməyəcəkləri barədə hələ ki heç nə deyə bilmərəm. Xalq Hərəkatında təmsil olunan hansısa bir partiyanın sədri Qarabağ Komitəsində təmsil olunursa, yəqin ki, bununla bağlı hərəkat daxilində yaxın zamanlarda aydınlaşmalar olacaq".

İki komitə arasındakı bu savaşın nə zaman bitəcəyi və digər məsələlər müzakirə mövzusudur.

**Həm Xalq Hərəkatının, həm də QK-nın rəhbərliyində təmsil olunan Tural Abbaslı mövqeyini bu cür şərh etdi:** "Burada elə bir qarşıdurma və bir-birini təkzib edəcək bir durum yoxdur. Əgər kimsə belə bir vəziyyətin varlığını iddia edirsə, deməli, onun prosesin mahiyyətindən, ümumiyyətlə, anlayışı yoxdur. Yəni adlarını çəkdiyiniz bu iki komitə qətiyyən bir-birinin rəqibi, alternativi və ziddiyyəti deyilsə, burada hansı qarşıdurmadan və hansı seçimdən söhbət gedə bilər? Dağlıq Qarabağ Komitəsi qarşısına bu iqtidarla mübarizəni məqsəd qoyan, hazırkı hakimiyyəti qanuni, dinc yollarla istefaya göndərməyi hədəfləyən siyasi birlik modeli AXH-nin nəzdində fəaliyyət göstərən bir komitədir. Necə ki, Qarabağ Komitəsində və AXH-də birləşən hər bir partiyanın öz nəzdində Qarabağla və digər sahələrlə məşğul olan komissiya və komitələr mövcuddur. Yəni sizin məntiqlə çıxış etsək, gərək Qarabağ Komitəsində təmsil olunan digər partiyalar KXCP, Ümid, AĞ Partiya, AXP, Milli Konqres və s. öz tərkiblərindəki Qarabağ komissiyalarını ləğv etsinlər. Və yaxud da AXH-də təmsil olunan KXCP, AĞ Partiya, VİP, Azadlıq, Böyük Azərbaycan, ALDP və s. də AXH-nin Qarabağ Komitəsində təmsil olunduqları üçün öz partiyalarındakı komissiyalardan imtina etsinlər. Bu məsələləri bir-birinə qarışdırmaq doğru deyil. Kim harada istəsə, təmsil oluna bilər. İstəyən hər ikisində də təmsil olunar. Bunu da heç kim məhdudlaşdıra bilməz. Çünki bunun üçün heç bir hüquqi və siyasi əsas yoxdur. Mən həm QK-nin, həm də AXH-nin təsisçilərindənəm, mənə kim və hansı əsasla deyə bilər ki, seçim et? Buna heç kimin səlahiyyəti yoxdur və mənim də kiməsə belə bir səlahiyyət verdiyimi xatırlamıram. Odur ki, belə absurd məsələlərdə çox diskussiya olunmasının tərəfdarı deyiləm, buna ehtiyac görmürəm. Ümumiyyətlə, hazırda belə bir problem mövcud deyil, gələcəkdə də mövcud olmayacaq".





**QK-nın təsisçilərindən olan Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı Ə.Oruca sərt cavab verdi:** "Əhməd Orucun başına kimlərin yığıldığından xəbərim yoxdur. O, deyəsən, meydan tapıb. Çoxdan bekar idi, danışmırdı. Qarabağ Komitəsi və QAT-da əksəriyyət Qarabağ döyüşçüləridir. Məcburi köçkünlər də az deyil. Hərəkat daxilində elan etdikləri Qarabağ Komitəsinin iclasına baxdım. Adamları haradansa yığıb gətirmişdilər ki, say göstərsinlər. Onların məqsədlərinin nə olduğunu anlamıram. Bu hərəkətlərinə, sadəcə, gülürəm. İş görmək lazımdır. Görüntü kiməsə lazım deyil. İş gör, nəticəsi olsun, ondan sonra danış. Yoxsa mən çox adam yığdım, sən az yığdın kimi yarışlar qeyri-sağlamdır. Hələ Xalq Hərəkatı yaranan-da deyirdim ki, bu, görüntü üçündürsə, heç bir mənası yoxdur. Əgər onlar iş görüb nəticə ortaya qoymaq istəyirlərsə, onları alqışlayıram. Amma onların iclasına baxdım və iştirakçıları tanımadım. Əhməd Oruc hansı döyüşçülərdən danışır anlamıram. Haradan ortaya çıxıblar, başa düşmək çətindir. Orada tanıdığım azsaylı insanların indiyə qədər ciddi bir iş gördüklərinin şahidi olmamışam. Ancaq orada-burada boş-boş danışırlar, intriqa aparırlar. Nə Xalq Hərəkatının, nə də onun daxilində yaradılan Qarabağ Komitəsinin perspektivini görmürəm. Çox istərdim ki, ən müxtəlif yerlərdə Qarabağ adına təşkilatlar yaradılsın. Təəssüflər olsun ki, bunların heç biri yoxdur. Əhməd Oruc 80-dən yuxarı şəxsin komitələrinə üzv olmaq üçün qeydiyyatdan keçdiyini də deyib. O, bu sözləri ilə bir daha təsdiq edir ki, görüntü yarışına giriblər. Çox təəssüf edirəm ki, belə yarış aparırlar. İlk iclaslarında iştirak edənlər 1-2 iclasdan sonra, ümumiyyətlə, gəlməyəcəklər. Bizim Qarabağ Azadlıq Təşkilatı var və orada da fəaliyyətimizi Qarabağımız üçün aparırıq. Əhməd Oruc hakimiyyətin göstərişi ilə və xaricdən qrant almaq üçün fəaliyyət göstərdiyimizi də deyib. Bunların heç birinin bizə dəxli yoxdur. İldə bir dəfə QHT-lərə verilən 7-8 min qrantı bizim təşkilat da alır. Bütün dünyada qrant siyasəti var. Biz də ildə bir dəfə qrant aldığımızı gizlətmirik. Sadəcə, Əhməd Oruc kimilərinin əli qrant almağa çatmır, onun üçün boş-boş danışır. Onlar 25-30 il əvvəlki vaxtda quruyub qalıblar. Bunların beyinləri quruyub. Mənasız tezislər işlədirlər".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 42 (7212) 22 fevral 2019

# Azərbaycanda "milli maddə" ilə tutulanların sayı artır-səbəb

## Mahmud Hacıyev: "Azərbaycan ərazisindən narkotrafikin artması narkomanların sayını şərtləndirən səbəblərdən biridir"

**Azərbaycanda ilk dəfə narkotik istifadəçisi kimi rəsmi qeydiyyata alınmış narkotik istifadəçilərinin sayı artmaqda davam edir. Azərbaycanda qeydiyyatda olan 30 min 131 nəfər narkomanın 25 min 139 nəfəri dispanser qeydiyyatındadır. Narkomanların 4 min 992 nəfəri profilaktik, 1 031 nəfəri anonim müalicə alır. Səhiyyə Nazirliyindən verilən məlumata görə, narkoman qadınların ümumi sayı 595 nəfərdir. Onların 450 nəfəri dispanser qeydiyyatındadır. Narkomanlar arasında toksikomanların ümumi sayı 212 nəfərdir ki, onların 207 nəfəri dispanser qeydiyyatındadır. 2017-ci il ərzində 2 min 115 narkoman qeydiyyata götürülüb. Onların 1 566 nəfəri dispanser, 549 nəfəri profilaktik qeydiyyata götürülüb. 2017-ci il ərzində qeydiyyatdan çıxarılan narkomanların ümumi sayı 1 432 nəfərdir. Onların 488 nəfəri dispanser, 944 nəfəri profilaktik qeydiyyatda olub. İnyeksion narkotik istifadəçilərinin sayı 21 min 38 nəfər təşkil edir. Onlardan 393 nəfəri qadındır.**

Azərbaycan Statistika Komitəsinin yaydığı son məlumatında qeyd olunur ki, Daxili İşlər Nazirliyi tərəfindən 2018-ci ildə qeydə alınmış 26 min 381 cinayət hadisəsinin 3239-u və ya 12,3 faizi narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar olub. Onların da 57,1 faizi satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma, 33,3 faizi eyni hərəkətləri satış məqsədilə etmə, habelə bu maddələri istehsal etmə, göndərmə, yaxud qanunsuz olaraq satma, 7,2 faizi qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə, 2,2 faizi isə güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi ilə bağlı, 0,2 faizi isə digər cinayətlərdir.

Hesabat dövründə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı 2492 nəfər cinayət törətmiş şəxs müəyyən edilib ki, onların da 99,0 faizi cinayət məsuliyyətinə cəlb olunub. Cinayət törətmiş şəxslərin 86,2 faizini heç yerdə işləməyən və oxumayanlar, 37,2 faizini əvvəllər də cinayət məsuliyyətinə cəlb olunmuş şəxslər təşkil edir. Narkomaniya ilə tutulanların sayının artması səbəbindən həbsxanada buna "milli maddə ilə cəza" adı verilib.



Beynəlxalq təşkilatların hesabatlarında Azərbaycandan keçən narkotiklərin 90 faizinin İran vasitəsilə Əfqanıstandan gəldiyi vurğulanır. Ümumiyyətlə, beynəlxalq qurumların hesabatları Azərbaycanda narkomanların sayının sürətlə artdığını göstərir. İnyeksiya narkomaniyası üzrə Azərbaycanın adı ilk yerlərdə çəkilir.

**Keçmiş polis rəisi, istefada olan polis polkovniki Mahmud Hacıyev deyir ki, Azərbaycan ərazisindən narkotrafikin artması ölkədə narkomanların sayını şərtləndirən səbəblərdən biridir:** "Sovet dövründə Azərbaycanda narkomanların sayı olduqca az idi. Bu, ölkənin qapalı olmasından irəli gəlirdi. Sonradan sərhədlər açıldı, ölkəmiz böyük yük daşımalarının əsas mərkəzlərindən birinə çevrildi. Əlbəttə ki, bundan narkomafiyalar istifadə etməyə başladılar. Azərbaycanın bir çox ölkələrdən fərqi odur ki, narkotrafikin keçdiyi ərazidə yerləşir. Burada hüquq-mühafizə orqanlarını da qınamalı deyil. Yəni kifayət qədər mübarizə aparılsa da, narkomanların sayının artmasının qarşısını almaq mümkün olmur. Dünyanın ən böyük və güclü hüquq-mühafizə sistemi olan ölkələrində, ABŞ, Fransa kimi dövlətlərin sərhədlərindən də tonlarla narkotik keçirilir, həmin dövlətlərin ərazilərində satışı təşkil olunur. MDB məkanında da bu gün narkomanların sayı artmaqdadır. Müstəqil dövlətlər ayağa qalxana kimi, özünü bərpa edib struktur islahatlar aparana qədər proses artan xətlə gedəcək. Mübarizə də güclənir, bununla belə, narkomanların sayı da artır. Bunun da səbəbləri var. İşsizlik, savadsızlıq kimi amillər də öz sözünü deyir".

**Mahmud Hacıyev narkomaniyanın kökünün tam kəsilməsini "ağla gəlməyən iş" adlandırıb:** "Mübarizə aparıb narkomanların sayını məhdudlaşdırmaq, azaltmaq olar. Bu gün Rusiyada da narkotiklərə meyl güclənib. İnsanların psixologiyasında dəyişikliklər olub. Sovet dövründə narkotiklərlə bağlı filmlər qadağan olunmuşdu. Bu gün isə internetdə narkotikləri az qalır təbliğ edir, filmlərin qəhrəmanları narkotikdən asılı olan şəxslər olur. Getdikcə deqradasiya artır. İnsanların psixoloji durumu pis vərdişlərə meyllərini artırır. Kimsə kitab oxumur, bayağı, narkotiki təbliğ edən film və musiqilərə də geniş yer verilir. Bu kimi amillər də narkomanların artmasına səbəb olur".

**❑ E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Ombudsman postunu tərk etmək istəmir

## İnsan hüquqları üzrə müvəkkil martda seçki gözləmir; deputat isə konstitusion müddətin bitdiyini söyləyir

**Azərbaycanın İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) postuna yeni namizəd irəli sürüləcəyi gözlənilir. Bu barədə "Yeni Müsavat"ın əldə etdiyi məlumata görə, seçki martda keçiriləcək.**



Uzun müddətdir ombudsman vəzifəsində çalışan 81 yaşlı Elmira Süleymanovanın təqaüdə yola salınacağı xəbər verilir. Onun yerinə kimin namizəd irəli sürüləcəyi hələ müəyyən olunmayıb. Lakin bu dəfə kişi namizəd olacağı istisna edilmir.

Məlumatlara görə, bu posta gənc, enerjili, çevik bir kadrın seçiləcəyi ehtimalı var. Xüsusən də prezidentin son kadr islahatları, gəncləri yüksək postlara irəli çəkməsi siyasəti fonunda ombudsman vəzifəsinə də cavan, işləyən bir şəxs seçiləcək.

2002 və 2010-cu illərdə İnsan hüquqları üzrə müvəkkil seçilən E.Süleymanovanın səlahiyyət müddəti 2017-ci il martın 5-də bitib. Lakin yeni ombudsman seçilmədiyindən fəaliyyətini davam etdirir.

Çünki qanunvericiliklə ombudsmanın səlahiyyət müddəti bitsə də, yenisi seçilənə qədər işinə davam etməlidir. Qanuna əsasən, müvəkkil 7 il müddətinə seçilir.

Ombudsman vəzifəsinə seçkilər keçiriləcəyi barədə deyilənlərlə əlaqədar E.Süleymanovanın özünə zəng elədik.

Ombudsman "Yeni Müsavat"a qısa şəkildə bildirdi ki, belə bir gözlənti yoxdur: "Bu məlumatı haradan əldə eləmisiniz bilmirəm, amma mən belə bir şey eşitməmişəm". O, növbəti sualımızı dinləmədən telefonu asdı.

Deputat Fazil Mustafa isə qeyd etdi ki, artıq ombudsman vəzifəsinin konstitusion müddəti tamam olur: "Bu baxımdan yeni ombudsman seçilməlidir. Elmira xanım kifayət qədər təcrübəli, işini bilən, vəzifəsini yerinə yetirən insandır. Amma konstitusion müddət bitir və yenisi seçilməlidir".

Deputatın sözlərinə görə, ombudsman postunda yaş faktoru əsas əhəmiyyət daşımır: "Burada bilgi, təcrübə, hazırlıq, beynəlxaq praktika olmalıdır ki, müəyyən işlər görəsən".

**❑ Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# "Kupça" ilə bağlı fərman 40 min ailəni sevindirəcək

## Samir Əliyev: "Bu, bələdiyyələrə də sərf edən addımdır"

**Prezident İlham Əliyevin imzaladığı "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" fərman əsasən paytaxt Bakıda uzun illərdən bəridir mövcud olan problemin həllinə yaşıl işıq yandırır.**



Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin aparat rəhbəri Anar Quliyevin mətbuata verdiyi məlumata görə, fərman əsasında tikintisi bu il yanvarın 1-nə qədər başa çatmış, təxminən 400 bina ilə bağlı müvafiq addımın atılması nəzərdə tutulur: "Həmin binalar artıq istismar edilir. Onların istismarına icazə verilməsinin sadələşdirilməsi üçün fərmanda çox dəqiq mərhələlər qeyd edilib. Bu işlə məşğul olacaq dövlət orqanları məlumdur. Fərmanda qeyd edildiyi kimi, 2 ay ərzində Fövqəladə Hallar Nazirliyi (FHA) həmin binaların dayanıqlığı, texniki cəhətdən istismara tam hazır olması ilə bağlı rəy verəcək. 7 gün ərzində isə binanın istismarına icazə verilməlidir. Bildiyiniz kimi, ötən ilin avqust ayından etibarən komitəyə binaların istismarına icazə verilməsi ilə bağlı səlahiyyət verilib. Bundan sonra, təhlillər aparılıb, bu növ binaların sayı müəyyən edilərək aidiyyəti dövlət qurumlarına məlumat verilib. Bir neçə dövlət qurumunun iştirakı ilə işçi qrupu yaradılıb. İlkin təhlillərə görə, belə binaların sayının 400 olduğu müəyyən edilib. Lakin yaxın aylar ərzində bu rəqəm bir qədər dəqiqləşə bilər. Fərmanda o da qeyd olunub ki, binaya baxış mənfi olarsa, yeni binada hər hansı bir texniki çatışmazlıq aşkar edilərsə, bina sahibinə, tikinti şirkətinə, mənzil tikinti kooperativinə bu barədə məlumat verilir. Bu çatışmazlıqların aradan qaldırılması üçün 5 ay müddət verilir. Müddət bitənə qədər çatışmazlıq aradan qaldırılsa, təkrar baxış aparılacaq və istismara icazə veriləcək".

**İqtisadçı-ekspert Samir Əliyev bildirir ki, yeni tikililərin istismara qəbulu sahəsində atılan addım təxminən 40 min ailənin mənafeyinə cavab verir:** "Bu addımın həm sosial əhəmiyyəti var, həm də iqtisadi. Sosial əhəmiyyəti budur ki, insanlar pul verib ev alıblar, amma ona mülkiyyət hüququnu təsdiqləyən sənədi əldə edə bilmirdilər. Bu səbəbdən həmin evlərin alqı-satqısında da problemlərlə üzləşirdilər. Digər tərəfdən, insanlar on il yaşadıqları evlərdə qeydiyyata düşə bilmirdilər".

**S.Əliyevin sözlərinə görə, çoxmərtəbəli binaların istismara alınması və vətəndaşların "kupça" əldə etməsi bələdiyyələrə sərf edir:** "Bildiyiniz kimi, mülkiyyət hüququnu təsdiq edən sənədi olan daşınmaz əmlak üzrə əmlak vergisini bələdiyyələr toplayır. İndiyədək təkcə Bakıda 400 binadan bələdiyyə əmlak vergisi toplaya bilmirdi. İqtisadi tərəflərdən biri də budur ki, istismara verilməyən binalar MTK-lar tərəfindən idarə olunur. Onlar istədikləri vaxt mənzil haqqını qaldırırlar, vətəndaşlara heç bir izahat verilmir, yəni şəffaflıq yoxdur. Sənədləşmə olduqdan sonra insanlar Mənzil Məcəlləsinə əsasən mənzil mülkiyyətçilərinin müştərək cəmiyyətini yaradıb binaların idarəçiliyini öz üzərinə götürəcək".

**S.Əliyevin fikrincə, fərman yeni tikililərdən mənzil əldə etmək istəyənlərin sayını artıracaq:** "İstismara qəbul olunan binalarda mənzil alanlar sənədli mülkiyyət sahibi olacaqlar. Binaların sənədləşməsi insanlarda həmin binalara etibar yaradır. Düşünürəm ki, yalnız çoxmərtəbəli binalardakı deyil, digər mənzillərin də sənədləşməsi üçün analoji addım atılmalıdır".

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 42 (7212) 22 fevral 2019

# Vatikanda pedofil qalmaqalı - şok detallar

## "Hər 50 katolik keşişdən biri uşaqbazdır" - Fransiskin etirafı dünyanı silkələyib



**Dünya miqyasında 190 piskopos və prelates kilsələrdə rahiblərin uşaqları və böyükləri cinsi istismar etməsinə qarşı bir çıxış yolu tapmaq üçün dünən bir araya gəlib. Onlar Roma papası Papa Fransiskin çağırışına əsasən Vatikanda toplaşıblar.**

"Yeni Müsavat" dünya mediasına istinadən xəbər verir ki, Papanın çağırışı ilə Vatikanda keçirilən toplantı Papa və kilsə iyerarxiyasında, kilsələrdəki cinsi istismarın qlobal səviyyədə bir məsələ olmasının qəbul edildiyinin bir əlamətidir. Son illərdə Avstraliya, Şili, Fransa, Almaniya, İrlandiya və Amerikada baş verən bu qalmaqalların azalması müşahidə olunmadığına diqqət çəkilib. Toplantının bu məsələ ilə bağlı ilk tədbir olduğu qeyd edilib.

Vatikan yetkililəri toplantının mövzusunun məsuliyyət, hesab verə bilmə, şəffaflıq olacağını və bunun bir dönüş nöqtəsi olmasına ümid etdiklərini deyib. Bununla yanaşı, Vatikan yetkililəri bunun konkret nəticələr verməyə biləcəyini də vurğulayıblar.

Maltanın Baş piskoposu Monsignor Çarles J. Scicluna isə üç günlük toplantının ortaya fövqəladə bir nəticə çıxarmayacağını, bütün problemləri çözə bilməyəcəklərini, toplantının davamının da əsas olduğunu qeyd edib.

Vatikan bu həftə uşaqlara atalıq edən rahiblərin izləyəcəkləri bir yol olmasının vacibliyini qəbul edib. Araşdırmalar müəyyən edib ki, cinsi istismara məruz qalanların 80 faizi oğlan uşaqları və 14 yaşdan böyük olanlardır. Amma cinsi istismara məruz qalan qadınların ortaya çıxmadığı və kilsənin bu hadisələri ictimaiyyətə çatdırmadığı üçün dəqiq rəqəmlər barədə də danışmaq mümkün deyil.

Papa Fransisk tərəfindən rütbəsi aşağı salınan və din adamlığından çıxarılanların homoseksualla bağlı olduğu da qeyd edilib. Çikaqo kardinalı Blase Cupich isə problemin homoseksuallıq olmadığını, məsələnin uşaqları qorumaq olduğunu qeyd edərək, "sizin cinsi istismarınız homoseksuallığın bir nəticəsi deyil" deyib.

Bəzi Vatikan mütəxəssislərinin Katolik Kilsəsi üçün Protestant islahatından bu yana ən ciddi böhran kimi qiymətləndirdiyi uşaqlara qarşı cinsi istismar qalmaqalları ilk dəfə belə bir zirvə görüşündə müzakirə olunacaq.

Uşaq təcavüzkarlarına və onları qoruyanlara "sıfır tolerantlıq" sözü verən Papa Francesconun tələbi ilə 21-24 fevral arasında Vatikanda keçiriləcək, "Kilsədə Uşaqların Qorunması" zirvəsinə dünyanın hər yerindən hakimiyyət pilləsindəki Katolik Kilsəsi nümayəndələri iştirak edəcək.

Təxminən 190 min dini vəzifəlinin qatılması gözlənilən sammitdə, uşaq təcavüzlərinə qarşı "məsuliyyət, hesabatlılıq və şəffaflıq" prinsipləri müzakirə olunacaq.

Görüş öncəsi hazırlıq mərhələsində, müxtəlif ölkələrdən din xadimləri təcavüz qurbanları ilə görüşlər keçirib. Sammit əsnasında da iştirakçıların bəzi təcavüz qurbanlarının ifadələrinin yer aldığı videomaterialların nümayiş olunması planlaşdırılır.

Vatikan Mətbuat Ofisinin direktoru Alessandro Gisotti də sabah başlayacaq sammitlə əlaqədar olaraq, "Bu əjdahanı yox etmək istəyiriksə, onunla qorxmadan üzləşməliyik" söyləyib.

Vatikanın maliyyə işləri üzrə səlahiyyətli nümayəndəsi və kilsənin ali səviyyəli üçüncü şəxsi avstraliyalı kardinal Corc Pellin adı öz ölkəsində cinsi təcavüzkar kimi hallanır.

2017-ci ildə də Viktoriya əyaləti polis şöbəsinin müdiri Şane Patton məsələ ilə bağlı çoxlu şikayətin daxil olduğunu bildirib. Vatikanda yaşayan 76 yaşlı kardinal Pell isə məhkəmə gününü səbirsizliklə gözlədiyini və iddialara qarşı özünü güclü şəkildə müdafiə edəcəyini söyləyib. Kilsədən edilən rəsmi açıqlamada isə həkimlərin səyahətə icazə verəcəyi təqdirdə kardinalın Avstraliyaya qayıdacağı bildirilib.

Patton kardinala qarşı da heç bir ayrı-seçkilik qoyulmadığını və ona da digər şübhəlilər kimi münasibət göstərildiyini deyib.

2018-ci ilin avqustunda Vatikanın Vaşinqtondakı sabiq səfiri, arxiyepiskop Karlo Mariya Viqano Roma Papası 1-ci Fransiski istefaya çağırmışdı. O, "National Catholic Register" adlı qəzetdə dərc etdirdiyi 11 səhifəlik məktubda kilsə daxilində cinsi istismara göz yummasına görə Papanı ittiham edib: **"Roma Papası uşaqlara istismar iddialarına görə ötən ay istefa verən kardinal Teodor Makkariklə bağlı məlumatları 2013-cü ilin 23 iyunundan bəri bilməsinə baxmayaraq, heç bir addım atmayıb. Kardinalla bağlı məlumatları Papaya birbaşa özüm demişdim. Onun əməllərini gizlətdiyi və digər kardinal və yepiskoplara örnək olması üçün ilk istefa verməli olan şəxs Papadır".**

Viqano sözlərinə əlavə edib ki, katolik kilsəsinin daxilində olan bu cinsi istismar şəbəkəsi məsum qurbanlarını öz torlarına salır.

Ümumiyyətlə, bu mövzuda genişmiqyaslı araşdırmalar zaman ABŞ-ın Pensilvaniya baş prokuroru Coş Şapiro iki illik istintaqdan sonra uşaqlara qarşı cinsi təcavüzün Pensilvaniya və Vatikandakı stajlı kilsə rəsmiləri tərəfindən sistematik şəkildə gizlədildiyini ortaya çıxarıb.

Məlum olub ki, 300-dən çox keşiş illərlə mindən çox uşağa cinsi təcavüz edib. Bu təcavüz hadisələrinin hamısından Papa Françesko xəbərdar olub.

Katolik Kilsəsinin dünyanın bir çox ölkəsində yüz minlərlə rahibi var. Bir çox ölkədə xüsusilə uşaqlara qarşı cinsi istismarla bağlı çoxlu sayda məlumatlar mətbuatda yer alıb.

Birləşmiş Millətlər Təşkilatı da Katolik Kilsəsi vəzifəlilərinin uşaq istismarları haqqında 2014-cü ildə hesabat dərc etmişdi. Hesabatda Vatikanın verdiyi sistematik qərarlara görə ötən 10 ildə keşişlərin on minlərlə uşağa cinsi təcavüz etdiyi və təcavüzə şərait yaradıldığı ittihamı qeyd olunmuşdu. Vatikan isə 2014-cü ilin yanvar ayında 400 keşişin 2012-2013-cü ildə uşaqlara cinsi təcavüz etdiyi üçün vəzifəsindən çıxardığını qəbul etmişdi.

### Vatikanın üçüncü şəxsi də cinsi təcavüzkarlıqda suçlanır...

2017-ci ildə Vatikanın xəzinədarı avstraliyalı kardinal Georgi Pellə qarşı cinsi təcavüz ittihamı elan edilib. Avstraliyanın Viktoriya ştat polisi Şein Petton Vatikanın önəmli şəxslərindən olan kardinal Pellin bir neçə şəxs tərəfindən təcavüzdə ittiham edildiyini açıqlayıb. Sözügedən şəxs isə bu ittihamları rədd edib.

Kardinal Pell çox qısa zamanda Avstraliyaya gələrək, məhkəmədə özünü müdafiə edəcəyi günü səbirsizliklə gözlədiyini bildirib. Qeyd edək ki, kardinal Pellin iyulun 18-də məhkəmə qarşısına çıxacağı qeyd edilib.

"Yeni Müsavat" xatırladır ki, ümumiyyətlə, qalmaqallardan ən səs-küylüsü 2014-cü ildə baş verib. Həmin vaxt Vatikan keçmiş səfirini ev dustağı etdi. Vatikan bildirdi ki, Domikan Respublikasında keçmiş səfiri olan 66 yaşlı Josef Wesolowski həbs olunub. Amma yaşı və səhhəti nəzərə alınaraq onu ev dustağı ediblər. 2008-ci ildə Dominikanda vəzifədə olduğu vaxtda pedofiliya - uşaqbazlıq cinayətlərinə onun adı qarışmışdı. Josef Vesolovskinin ruhani rütbəsi hələ iyunda alınıb. Sentyabrın 24-də isə Vatikan cinayət məhkəməsində bu işə dair ilkin dinləmə başlayıb və o, ev dustağına çevrilib.

Vatikanın bəyanatında deyilir ki, Vesolovski səhhətinə dair sənədlər təqdim edib, onu daha sərt şəraitdə saxlamaq mümkün olmayacaq.

Qeyd edək ki, katolik kilsəsi uzun müddət media və hətta bəzi siyasətçilər tərəfindən dünyanın bir çox ölkələrində rahiblərin uşaqbazlıq əməllərini ört-basdır etməkdə ittiham olunurdu. Vatikanın sözçüsü Federico Lombardi bildirirdi ki, Papanın göstərişinə uyğun olaraq, bundan sonra bu cür iddialar tam ciddi və təcili şəkildə araşdırılacaq.

2014-cü ilin iyun ayında isə bu mövzu ilə bağlı qalmaqallı bir açıqlama yayılıb.

**"Məndə olan dəqiq məlumatlara görə, hər 50 katolik keşişdən biri uşaqbazdır. Əfsuslar olsun ki, kilsə uşaqbazlıq iyrəncliyinə tutulub".** Roma katolik kilsəsinin rəhbəri Papa 1-ci Fransiskin bu açıqlaması "bomba partlayışı" effekti yaradıb. İtaliyanın "La Repubblica" qəzetinə verdiyi müsahibəsində Vatikanın rəhbəri uşaqlara qarşı zorakılıq və təcavüzü kilsənin mübtəla olduğu cüzam adlandırıb. **"Müşavirlərimin dediklərinə görə, keşişlərin 2 faizi uşaqbazdır. Bu bəlaya qarşı bacardığım qədər sərt mübarizə aparacağam. Həmin 2 faiz arasında keşişlər, yepiskoplar, kardinallar var. Beladan xəbərdar olan, amma susan keşişlərin sayı daha çoxdur"**, - Roma Papası deyib. 1-ci Fransiskin sözlərindən belə çıxır ki, hazırda katolik kilsəsində ən azı 8 min uşaqbaz, əxlaqsız keşiş var.

2010-cu ildə isə Roma Papası Benedikt 90-cı illərdə uşaqlarla cinsi ünsiyyətdə olmaqda şübhəli bilinən amerikalı keşişə qarşı tədbir görməməkdə ittiham edilib. O zaman kardinal Cozef Ratzinger olan Benedikt seksual cinayətləri təhqiq edən Vatikan idarəsinin rəhbəri idi. Həmin vaxt "Nyu York Tayms" yazmışdı ki, papa Benedikt bu işlə bağlı iki məktuba cavab verməyib. Keşiş Lorens Mörfi səhhətinin pis olmasını səbəb gətirəndə onun üzərində kilsə məhkəməsi dayandırılıb. Vatikan sözçüsü bu hadisəni faciəvi adlandıraraq, Kilsə qanunlarında avtomatik cəzalandırmanın nəzərdə tutulmadığını səbəb gətirib.

Vatikan qalmaqallarından danışarkən, 2012-ci ildə yaşananları unutmaq olmaz. Vatikan sözügedən tarixdə son 200 ildə ilk dəfə olaraq belə sərt ittihamlarla qarşılaşmışdı. Dünyanın müxtəlif ölkələrində katolik keşişlərin azyaşlılarl zorlamaları ilə bağlı yüzlərlə faktların aşkarlanması belə, Roma Katolik Kilsəsini belə şoka salmamışdı. Səbəb isə Vatikanın narkotik maddələr, insan və silah alverindən əldə edilən çirkli pulların "yuyulduğu" məkanlardan biri sayılması idi. Xatırladaq ki, həmin tarixdə ABŞ Dövlət Departamentinin "Narkotik vasitələrin dövriyyəsinə beynəlxalq nəzarət strategiyası" (İnternational Narcotics Control Strategy) hesabatında Vatikana qarşı həddən artıq ağır ittihamlar irəli sürülmüşdü. Hesabatda narkotik maddələr, silah və insan alverindən əldə edilən pulların yuyulması ilə bağlı əməliyyatların hazırda dünyanın 68 ölkəsində həyata keçirildiyi vurğulanırdı. Belə ölkələr arasında Yəmən, Əlcəzair, Şimali Koreya və Vatikanın "xüsusilə fəal" olduğu bildirilirdi. Amerikalılar hesab edirlər ki, İtaliyanın paytaxtı Romanın mərkəzindəki cırtdan dövlətə nəhəng həcmdə nağd pullar və maliyyə vəsaiti axını var. Bu axında çirkli pulların yuyulması prosedurları isə yetərli səviyyədə deyil.

### Təkcə uşaqlar yox, rahibələr də qurbandır - hamilə rahibələr

2014-cü ilin yanvarında Roma Katolik Kilsəsində nadir və böyük qalmaqal yaradan olaylardan biri baş verib. 33 yaşlı rahibə Roksana Rodriges hamilə qalıb və ana olub. Katolik kilsəsinin qaydalarına görə, rahibələrin ərə getmək hüquqları əsla yoxdur və onlar "İsa Məsihin gəlinləri" sayılırlar. Əslən Salvadorun paytaxtı San-Salvadordan olan rahibə Roma yaxınlığındakı klinikada övladını dünyaya gətirib.

"İsa Məsihin kiçik şagirdləri" (Little Disciples of Jesus) kilsəsinin rahibəsi olan Roksananın dediyinə görə, hamilə qaldığından xəbərsiz olub.

Qarnındakı kəskin ağrılar, ürəkbulanma, başgicəllənmədən şikayətlərlə xəstəxanaya aparılmış Roksana Rodrigesin ilkin müayinəyə zamanı onda doğuş sancılarının başlandığı müəyyənləşdirilib.

**"Bu xanımı xəstəxanaya gətirən təcili yardım qrupunun dediyinə görə, monastırda ibadət zamanı rahibə Roksana qəflətən qarnını tutaraq yerə yıxılıb. Müayinə onun hamiləliyin son dövründə olduğunu, doğuş sancılarının tutduğunu göstərdi"**, - xəstəxananın həkimləri deyiblər.

Tarixi qaynaqlar göstərir ki, Vatikan kilsəsinin tarixində "hamilə rahibələr", "bic doğan rahibələr"lə bağlı dosyelər yetərincə qabarıqdır.

**Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 42 (7212) 22 fevral 2019

# Deputat "qanuni oğru"lara rəğbətdən narazıdır- cəmiyyət niyə onları qəhrəman edir?

## Xalq kütlələrinin kriminal avtoritetlərə hörmətinin səbəbi; **Əhəd Məmmədli:** "Türmədə cavanlar onlara biət edir"

**"Rövşən Lənkəranski ilə həmkəndliyəm, haradasa qohumluğumuz çatır, hələ atası, babası ilə şəxsi münasibətlərimiz vardı, amma bunun məsələyə aidiyyəti yoxdur. Məsələn, bu gün mətbuatı açanda az qala hər yerdə qarşımıza "Lotu Quli" haqqında xəbərlər çıxır. Lotu Quli olub Brejnev, Reyqan...**

O nə edib axı? Biz niyə onu gənclərimiz, uşaqlarımız üçün təbliğ edirik? Bu, hansı normaya uyğundur? Mən belə şeylərin təbliğinə doğru baxmıram".

**Deputat Cavanşir Paşazadə** teleqraf.com-a açıqlamasında belə deyib. Onun sözlərinə görə, gənclər arasında qanuni oğruların qəhrəman kimi təqdim olunması doğru yanaşma deyil.

C.Paşazadənin hardasa fikirlərini qəbul etmək olar. Amma xalq kütlələri arasında "lotu"ların, kriminal avtoritetlərin böyük hörmətə malik olmasının, qəhrəman kimi təqdim edilməsinin əsas səbəbi onların "aşağı"lara etdikləri yaxşılıqlardır.

"Rövşən Lənkəranski", "Lotu Bəxtiyar", "Sabirabadlı Hikmət", "Masallı Mamed" kimi mərhum avtoritetlərin sevilməsi, rəğbətlə qarşılanması məhz kasıblara, işsizlərə, darda olan adamlara köməklik göstərmələridir.

Ona görə "qanuni oğru" adı daşıyan bu şəxslər barəsində kitablar çap olunur, həmin romanlar "bestseller"ə çevrilir, onların həyat yolu gənclik tərəfindən nümunə kimi qarşılanır, hətta onların yolunu getmək istəyənlərə, özlərini "lotu"lara oxşatmaq arzusunda olanlara rast gəlinir.



Bunun bir səbəbi də haqsızlıqla üzləşən insanların imdadına Lənkəranski, Quli kimi "qanuni oğrular"ın çatması olub. Yəni insanlar hansısa dövlət məmuruna, görkəmli aliмə, siyasi liderə yox, məhz kriminal avtoritetlərə simpatiya bəsləyir.

Məsələn, bəzən tənqidlər səslənirdi ki, cəmiyyət "Lənkəranski"nin ölümünə göstərdiyi diqqət və sayğını dünya şöhrətli alim Lütfi Zadə vəfat edəndə nümayiş etdirmədi. Bu, həm də sözə əməl olunması ilə əlaqədardır.

Darda olan insana əl tutmuş "vor zakon" vədlər verib xalqa heç bir köməyi dəyməyən siyasətçidən, elm adamından, deputatdan üstün qəbul edilir.

Ona görə də elə C.Paşazadənin lənkəranlı, astaralı seçicilərinə etdiklərindən daha çox həmyerlisi R.Lənkəranskinin cənublulara yaxşılığı keçib.

Kimisi işlə təmin edilib, kimisinin müalicə xərci ödənilib, kimisinin təhsil haqqı verilib, kimisinin verdiyi borcu ala bilməməsinə görə yardımı olub.

İkincisi, cəmiyyətdə kriminal avtoritetlərə olan hörmət psixoloji mahiyyət daşıyır. İnsanlar döyüş filmlərinin qəhrəmanlarını, əli silahlı personajları sevir, onların yerində olmaq istəyir.

Bu baxımdan "lotu"lar, "qanuni oğrular" barəsində əfsanələr dolaşır, onların mərdliklərindən söhbətlər açılır, ağızdan-ağıza dolaşan əhvalatlar dillərdə dastan olur.

**Siyasi məhbus həyatı yaşamış AĞ Partiyanın başqan müavini Əhəd Məmmədlinin sözlərinə görə, bu, sovetdən qalan ənənədir:** "Azərbaycanda indi də təsiri var. Amma təkcə bizim ölkədə yox, Rusiyada, İtaliyada, hətta Amerika və Türkiyədə müxtəlif cinayətkar qruplaşmalar var. Məsələn, Siciliyada yaranmış Nyu-Yorka qədər gedib çıxmış "Koza nostra" italyan-amerikan mafiyası var. Çində "Triada" mafiyasını, "Kamorra"nı qeyd etmək olar.

Amma Almaniya, Britaniya və yaxud Hollandiyada bu məsələlər yoxdur. Çünki kriminal aləmin yaranması həm də sosial-iqtisadi inkişafla əlaqəlidir".

**Ə.Məmmədli gənclərin qəhrəman axtarışına çıxması ilə bağlı dövlətin yanlış təbliğat siyasəti yürütdüyünü düşünür:** "Telekanallarda şou-biznes adamlarıdır, cavanlar hansısa cinsi azlığa rəğbət göstərməyəcək ki?

Gənclik özünə qəhrəman axtarır. Əgər şəhid təbliğatı getsəydi, Çələbi, Cavad, Fətəli xanlar barədə, Nəsib bəy Yusifbəyli, Mübariz İbrahimov haqda daha ciddi təbliğat olsaydı, insanlar kriminal adamlara bu qədər rəğbət bəsləməzdilər".

**Ə.Məmmədli qeyd etdi ki, həbsxanalar "qanuni oğru"ların evi adlandırılır:** "Türmədə də cavan təbəqə onlara tabedir, biət edirlər. Əksəriyyəti də ali təhsili olmayan gənclər idi. Bu, Stalin dövründən qalan ənənədir. Həbsxanaları kriminal aləm idarə edir və "qanuni oğru"lar da məhbəslərin "padşahı"dırlar.

Lakin onlar da elmə, savada meylli adamlar olur. Səninlə ədəbiyyat, siyasət, coğrafiyadan danışacaqlar. Hesab etməyin ki, dünya inkişafından uzaqdırlar. Sadəcə, Ukrayna, Qazaxıstan, Rusiya ilə müqayisədə bizim həbsxanalarda vəziyyət fərqlidir. Artıq dövlət bu məsələnin üstünə gedib, sadəcə, yenə də onlar var.

İndiki türmə şəraitində proses nə qədər davam edəcək, bu, dövlətdən asılıdır. Əgər Almaniya həbsxanaları kimi türmələr qurmaq istəyiriksə, dustaqların saxlanma şəraiti, qida, tibbi yoxlanış səviyyəsi yaxşılaşmalıdır".

❑ **Emìl SALAMOĞLU**
**"Yenì Müsavat"**

# Dəm qazı ailələrə dərd gətirir-acı statistika

## Çıxış yolu kimi kütləvi şəkildə detektorların quraşdırılması təklif olunur...

**Dəm qazı günbəgün can almaqda davam edir. Qış fəsli başlayandan bu günədək dəm qazı onlarla can alıb. Son olaraq Bakıda mənzildən nənə və nəvənin meyiti tapılıb. Yaxınları onları mətbəxdə ölmüş vəziyyətdə aşkar ediblər. Nərimanov Rayon Polis İdarəsindən verilən məlumata görə, yaşlı qadın və onun azyaşlı nəvəsi dəm qazının növbəti qurbanı olublar. 66 yaşlı Sevil Əliyeva və onun 12 yaşlı nəvəsi Elşad Ülvi oğlu İsmayılov dəm qazından boğularaq həyatlarını itiriblər. İlkin versiyaya görə, dəm qazı hamamdan mətbəxə çıxan borudan sızıb. Hüquq-mühafizə orqanları baş vermiş ailə faciəsinin səbəblərini araşdırır.**



Bu məsələ Milli Məclisdə də müzakirə olunub. **Deputat Elmira Axundova** bədbəxt hadisələrin qarşısını almaq üçün konkret təkliflə çıxış etdi: "Təklif edirəm ki, hər bir evdə avtomatik işə düşən təhlükəsizlik sistemi quraşdırılsın, tikilən evlərdə sayğacla yanaşı, təhlükəsizlik sistemləri də yerləşdirilsin".

**"Azəriqaz" İstehsalat Birliyinin sabiq idarə rəisi, ekspert Nüsrət Qasımov bildirdi ki, son hadisə baş verən mənzildə suqızdırıcı qaz cihazının tüstü borusunu mətbəxə çıxarıblar:** "Bu qədər düşüncəsiz hərəkət etmək olarmı? Son vaxtlar bir neçə belə hadisə oldu, daha öncə də Biləsuvarda bir gənc qız hamam otağında ölmüşdü. Problem ondadır ki, küləkli havada tüstü bacasından çıxan zəhərli havanın təzyiqi 0,3 mm civə sütunu təzyiqinə bərabərdir, küləyin təzyiqi isə saniyədə 43 metrə çatırdı. O külək bəzi qeyri-standart, köhnə, hətta normal tüstü bacalarına da vuraraq, dəm qazını içəri doldura bilər. Ona görə də küləkli günlərdə bir neçə bədbəxt hadisə yaşandı. Əhalidən tələb olunur ki, belə küləkli günlərdə qeyri-standart qaz cihazlarından istifadə etməsinlər. İnsanlar onu da bilməlidirlər ki, bədbəxt hadisələr ən çox hamam otaqlarında olur. Bu səbəbdən hamam otaqları standartlara uyğun olmalıdır. Hamam otaqlarının da müəyyən standartı var. Hamamın hündürlüyü 2.20 m, həcmi 7,5 kubmetr olmalıdır, mətbəxin həcmi minimum 15 kubmetr olmalıdır. Hər ikisində pəncərə gözlüyü, ventilyasiya kanalları qurulmalıdır, tüstü bacaları işlək vəziyyətdə olmalıdır. Bundan əlavə, hamamın qapısı bayıra açılmalıdır. Çünki içəridə kiminsə vəziyyəti pis olduqda qapının ağzına yıxılır. Qapı içəriyə doğru sındırıldıqda isə həmin insana zərər dəyə bilər".

**Ekspertin sözlərinə görə, bütün bu standartlar təmin olunmadıqda isə insan tələfatı olur:** "1 kubmetr qazın yanması üçün 9,5 kubmetr hava, yəni oksigen lazımdır. Oksigen çatışmayanda həmin təbii qazdan karbon (4) oksid əvəzinə karbon monoksid ayrılır. Bu da zəhərli qazdır, ona dəm qazı da deyilir, "uqar" da deyilir. Karbon (4) oksid zəhərsizdir, karbon monoksid isə zəhərlidir. İnsanın səhhətindən və konsentrasiyadan asılı olaraq 7 dəqiqədən 30 dəqiqəyə qədər ölümə səbəb olan bir qazdır. İnsan hamamda çimən zaman hamam qapısının aşağı hissəsində hava gəlməsi üçün yer olmalıdır. Orada açıq yer olmadıqda içəri hava daxil olmur, bu zaman içəridəki havanın oksigeni yanmaya kömək edir, tüstü bacasından çıxaraq atmosferə atılır. Hava çatışmadıqda isə həmin dəm qazı əmələ gəlir. Buna görə də insanlar zəhərlənib ölürlər. Qeyri-standart, əldə hazırlanan su qızdırıcıları, peçlər və sair bu kimi cihazlardan istifadə qadağandır. Heç bir ölkədə belə qurğulardan istifadə etmirlər. Ucuz olduğu üçün insanlar gedib onu alırlar. "8-ci kilometr" bazarında, "Dərnəgül" bazarında bu cür peçləri yolun kənarına düzüb satırlar. Onu alıb evə aparır, rezin, plastik borularla qaz xətlərinə birləşdirirlər. Bununla da öz həyatlarına son qoyur, günahsız qonşuların da evini başına uçururlar, ya yanğın olur, ya da partlayış. Bu sobaları qazla işlətmək olmaz. Onlar odun, kömür, daş kömür və sairlə işləmək üçündür. Çox təəssüf ki, insanlar onları aparıb qaz yandırıb qızınmaq üçün istifadə edirlər".

N.Qasımov onu da vurğuladı ki, mətbuatda apardığımız maarifləndirmə işlərinin nəticəsi olaraq, dəm qazından zəhərlənmə sayı azalıb.

**Ekspert hesab edir ki, qazın tərkibinin zəhərli olması ilə bağlı fikirləri əsasən savadsız insanlar yayır:** "Əgər belə olsaydı, qazdan istifadə edən 10 milyon adamdan 500 nəfəri birdən zəhərlənərdi, ölkədə kütləvi ölüm halları olardı, bu cür tək-tək bədbəxt hadisələr baş verməzdi. Əgər qaz zəhərlidirsə, o zaman Avropa ölkələri Rumıniya, Bolqarıstan, Türkiyə, Gürcüstan bizim təbii qazı almaqda maraqlı olmazdılar. Onlar zəhərli qazı alacaq qədər ağılsızdırlarmı? Sadəcə olaraq, qazın yanma məhsulları zəhərlidir. Cihazların köhnəliyindən, profilaktik yoxlamalar aparılmadığından, kustar cihazlardan istifadə və düzgün quraşdırılmayan cihazlardan istifadə etməyin nəticəsində qaz düzgün yanmır və burada zəhərli karbon monoksid ayrılır. Mən tam məsuliyyətimlə deyirəm ki, Azərbaycan qazı zəhərli deyil".

**Nüsrət Qasımov problemdən çıxış yolu kimi, mənzildə qaz sızmasını, dəm qazı olmasını xəbər verən detektor deyilən qaz siqnal aparatı quraşdırılmasını təklif etdi:** "Bütün kommunal cihazlar satılan mağazalardan bunu almaq mümkündür. Bu cihaz iki hissədən ibarətdir. Qəbuledici hissəsi mətbəxə birləşdirilir, klapanı isə bayırda, sayğacdan öndə qaz xəttinə birləşdirilir. Mənzildə dəm qazı olduqda elektromaqnit dalğaları göndərilir və klapan dərhal qazın verilişini dayandırır. Çox təəssüf ki, bu cihazdan da istifadə etmirik".

❑ **Nərgìz LİFTİYEVA**
**"Yenì Müsavat"**

YENİ MÜSAVAT
N 42 (7212) 22 fevral 2019

# Devalvasiyadan 4 il ötdü-problemli kreditlər gündəmdə

## Əkrəm Həsənov: "Dövlət imkanlı şəxslərə deyil, sadə vətəndaşlara yardım etməlidir"

**Azərbaycan Mərkəzi Bankı tərəfindən manatın məzənnəsinin kəskin enməsinin açıqlandığı gündən 4 il ötür. Məhz 2015-ci ilin 21 fevralında hökumət manatın məzənnəsini saxlamaq qərarından çəkilərək, 1 ABŞ dollarının 1,05 manata qədər bahalaşmasına getdi. Elə həmin ilin dekabrında bu addımı təkrar atmaqla dolların 1,55 manata yüksəlməsinə qərar verdi. Ardınca isə üzən məzənnə elan olundu, manat/dollar məzənnəsi 1,85 manata qədər yüksəldi.**

Ardıcıl olaraq baş verən kəskin devalvasiyalar banklardan dollarla kredit götürmüş yüz minlərlə insanın borcunun iki dəfədən çox artmasına gətirib çıxardı. Nəticədə, onların böyük əksəriyyəti nümunəvi kredit ödəyicisindən problemli kredit sahibinə çevrildilər. Belələrindən biri də Bakı şəhəri Biləcəri qəsəbə sakini **Həmidova Gülsüm Şəmil qızıdır.** Redaksiyamıza müraciət edən G.Həmidova bildirir ki, həmişə nümunəvi kredit ödəyicisi olub: "Mən əvvəllər də kredit götürmüşəm, vaxtlı-vaxtında qaytarmışam həmişə. 2014-cü ildə də məhz nümunəvi ödəyici olduğum üçün bankdan zəng vurdular ki, sizə əlavə kredit təqdim edə bilərik. Getdim, evimi təmir etdirmək üçün 4500 dollar pul götürdüm. 2015-ci ildə dollar birinci dəfə bahalaşdı, amma mən iki yerdə işləyib onu vaxtlı-vaxtında ödəyirdim. Həm "Qasid" firmasında satıcı işləyirdim, həm də başqa bir yerdə aşpaz".

**G.Həmidova deyir ki, ikinci devalvasiya və ardınca onda onkoloji xəstəliyin aşkarlanması nəticəsində kreditini ödəmək gücündə olmayıb:** "Həkimlər deyirdilər ki, bu halda yarım il ancaq yaşaya bilərəm, amma Allah bilən məsləhətdir. Kimyaterapiyaların sayəsində hələ yaşayıram. Amma hər iki işimdən çıxmağa məcbur olmuşam, çünki səhhətim imkan vermir. Xəstəliyimə görə 216 manat pensiya ilə təqaüdə çıxmışam. Krediti ödəyə bilmədiyim üçün bank məni məhkəməyə verdi, neçə illərdir məhkəmələrdə qalmışam. Bu xəstə canımla məhkəmə xərclərini də mənə ödətdiriblər. Ödənməyən 3500 dolların əvəzində məndən indi 4500 manat pul istəyirlər. Məhkəmə icraçıları bir ay vaxt qoymuşdular, bu günə çağırıblar yenə. Getdim Binəqədi rayon məhkəmə icraçılarının yanına. Dedilər, şənbə günündədək 4500 manatı ödəməsən, səni də, zamini də həbs edəcəyik. Mənə zamin duran adamı incidirlər. Deyirəm, mənim pensiyamın hamısını tutsunlar, o adamı incitməsinlər, onu da etmirlər. Mən o qədər pulu haradan alım?"

**G.Həmidova dövlətin problemli kreditlərin qaytarılmasında vətəndaşlara kömək edəcəyinə dair məlumatları oxuyub ümidlənib:** "Bəlkə cənab prezident bizim canımızı bu məhkəmə yollarından qurtara".



**Bank sahəsi üzrə ekspert, hüquqşünas Əkrəm Həsənov bildirir ki, dövlət yalnız sadə vətəndaşların borclarının qaytarılmasında yardımçı olmalıdır:** "Burada əsas məsələ budur ki, dövlət necə yardım edə bilər? Bildiyiniz kimi, əksər vətəndaşların problemi devalvasiya nəticəsində borcunun birdən-birə kəskin artmasına görə yarandı. Onlar krediti götürəndə məzənnə fərqliydi, devalvasiyadan sonra tamam fərqli. Vətəndaşlar da gəlirləri milli valyuta ilə əldə edirlər və gəlirlərində artım da olmayıb. Bunda isə günahkar vətəndaşlar deyil, devalvasiya qərarını verən Mərkəzi Bankdır".

**Ekspertin sözlərinə görə, bankları kreditləri köhnə məzənnə ilə almağa məcbur etmək mümkün deyil:** "Çünki onlar xarici valyutada götürdükləri əmanətləri kredit veriblər. Krediti aşağı məzənnə ilə alsalar, əmanətləri necə qaytara bilərlər? Buna görə də yaranmış problemin həlli üçün Milli Məclis üzvlər Əli Məsimli və Vahid Əhmədovun verdiyi mexanizmdən istifadə olunmalıdır. Yəni kredit verilən vaxtdakı məzənnədən artan hissə 3 tərəfin arasında bölünməlidir. Bunlar banklar, vətəndaşlar və dövlətdir. Bəziləri dördüncü tərəf kimi Mərkəzi Bankın da iştirak etməsini təklif edirlər, bu da qəbul olunandır. Hazırda məzənnə 1,70 manatdır. Birinci devalvasiyaya qədər isə 0,78 manat idi. Yəni bir dollarda artım 92 qəpikdir. Bu artımın hər birinə 30 qəpik olmaqla 3 tərəf arasında bölünməsi lazımdır. 30 qəpik bank keçir, 30 qəpik dövlət ödəyir, 30 qəpiyi də vətəndaş. Bu zaman vətəndaş krediti 1 dollar/1,08 manat məzənnə ilə qaytarmalı olacaq".

**Ə.Həsənov bildirir ki, dövlət heç bir halda bank rəhbərlərinin yaxınlarına, dostlarına faktiki təminatsız verdiyi kreditləri qaytarmamalıdır:** "Bir daha bəyan edirəm ki, problemli kreditlərin böyük bir hissəsi bank inzibatçılarının, bank sahiblərinin yaxınlarına heç bir təminat olmadan verilmiş yüksək məbləğli kreditlərdir. Mən ləğv olunmuş "Bank Standard"da bunu görmüşəm. Yüz minlərlə, hətta 5-10 milyon dollar pulu istehlak krediti kimi bir nəfərin adına rəsmiləşdiriblər. Belələrini sadə vətəndaşlardan ayırmaq lazımdır. Bunun üçünsə tam əhatəli, kompleks mexanizm hazırlanmalıdır".

**Hazırda məhkəmələrə verilmiş insanlara gəlincə, Ə.Həsənov deyir ki, müflisləşmə haqqında qanunvericiliyə kiçik bir dəqiqləşmə etməklə bu məsələni də həll etmək mümkündür:** "Krediti ödəmək imkanı olmayan insanlara şərait yaradılmalıdır ki, özlərini müflis elan edə bilsinlər. Bu vətəndaşların siyahısı açıq olmalıdır ki, digər banklar onlara kredit verməsinlər. Eyni zamanda onlara bir müddət hansısa vəzifələri tutmaq qadağan olmalıdır".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

# Ziya Məmmədovun 25 milyonluq avtobusları yararsız halda

## Cənubi Koreyadan gətirilən 300 avtobusun oturacaqlarını söküb çıxarıblar, hərracda alan da yoxdur

**Sabiq nəqliyyat naziri Ziya Məmmədovun dövründə Bakıya gətirilən iritutumlu avtobusların çoxu sınıq-salxaq, sıradan çıxmış vəziyyətdədir.**





Hazırda 40, 49, 24, 185, 186 saylı və onlarla belə marşrut xətlərində istifadəyə buraxılan avtobuslar dağılıb-tökülüb. Sürücülər ayaqüstə sərnişin daha çox götürmək üçün oturacaqları söküb çıxarıb, avtobusların qapıları cırıldıyır, dayanacaqda saxlayanda səsləri xarab araba kimi eşidilir, oturacaqlar natəmizdir, kart sistemi yoxdur.

Üstəlik, keçmiş nazirin gətirdiyi avtobuslar Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən satışa çıxarılıb. Nazirliyin Avtomobil Nəqliyyatı ilə Daşımaların Təşkili MMC-nin tabeli təşkilatı olan 3 nömrəli Bakı Avtonəqliyyat Müəssisəsi MMC hərraca 35 avtobus təqdim edib.

Onlardan 27-si ""Daewoo" BC212MA" markalı avtobus, 8-i isə "Man Lion S Klassik A-74" avtobuslardır. 2008-2009-cu il istehsalı olan bu avtobuslar Azərbaycana 2008-2010-cu illərdə gətirilib.

İlk hərracda 22.500 manata təqdim edilən "Man Lion S Klassik A-74" avtobusları dördüncü hərracda 18.750 manata təqdim edilib. 12.150 manata təqdim edilən ""Daewoo"BC212MA" avtobusları isə bu dəfə hərraca 10.125 manata çıxarılıb.

2008-ci ildə avtobusların alınmasına və gətirilməsinə dövlət büdcəsindən Nəqliyyat Nazirliyinə 25 milyon manat ayrılmışdı. 2010-cu ildə Nəqliyyat Nazirliyi Cənubi Koreyadan 300 "Daewoo" avtobusu alaraq Bakıdakı marşrut xətlərinə buraxıb.

Ancaq cəmi 8 il kifayət elədi ki, həmin avtobuslar yararsız vəziyyətə düşsün. Daha doğrusu, elə istifadəyə verildiyi dövrdən cəmi 1-2 il sonra bu avtobuslar tökülüb-dağılmağa başladı. Çünki vaxtlı-vaxtında təmirə getmir, sürücülər necə gəldi idarə edirlər, səliqə-sahmana baxılmır. Sərnişinlər də bu şəraitdən narazıdırlar.

Onların sözlərinə görə, "BakuBus" avtobuslarındakı səliqə ilə keçmiş nazirdən qalan avtobuslardakı eybəcərlik arasında ciddi fərq var. Amma şəhərin əksər istiqamətlərində həmin bu bərbad avtobuslar işləyir.

Sərnişinlər bildirirlər ki, bu avtobusların sürücülərinə ciddi nəzarət də yoxdur. Kimisi sükan arxasında siqaret çəkir, kimisi intervala əməl etmir, kimisi təhlükəli idarə edərək qəza riski yaradır.

Paytaxtda bir çox marşrut xətləri bir-birini təkrarlayır ki, bu da ilkin olaraq şəhərin yüklənməsinə səbəb olur. İkincisi, bu, ekologiyanın çirklənməsi deməkdir.

Bakının mərkəzindən kənarda işləyən sərnişin avtobuslarının əksəriyyəti sərnişindən başqa kimi desən daşımağa yarayır. Bir qisim avtobuslar isə bir vaxtlar sabiq nəqliyyat nazirinin oğluna məxsus "Transgate Azerbaijan" şirkəti tərəfindən gətirilib.

2008-ci ildə Bakıya 200 ədəd "Daewoo", 40 ədəd "MAN", 20 ədəd "MAZ", həmçinin 350 ədəd müxtəlif markalı iritutumlu avtobus gətirilərək paytaxt daxili xətlərə buraxılıb.

Bu proses sonrakı illərdə də davam etdirilib. Nəqliyyat Nazirliyinin o zamankı hesablamalarına görə, həmin illərdə Bakı şəhərində orta və iritutumlu 1000-dən artıq avtobusa ehtiyac olub.

Bir müddət əvvəl yazmışdıq ki, 2008, 2009 və 2010-cu illərdə Almaniya, Koreya, Çin, Özbəkistan və Belarusdan 948 ədəd iri və orta tutumlu avtobuslar alınıb.

Bu müddət ərzində müxtəlif markalı avtobusların xaricdən alınmasına və gətirilməsinə 798,3 milyon dollar xərc çəkilib. Dövlət büdcəsi hesabına Bakıya gətirilən bahalı avtobusların hər birinə ən azı 100 min dollar xərclənib. Hətta bəzi markalardan olan avtobusların alınma və gətirilmə xərcləri daha yüksək olub. Məsələn, Almaniya istehsalı olan "MAN" markalı avtobusların biri Azərbaycan dövlətinə 250 min dollara başa gəlib.

İrandan gətirilən və "M-trans" şirkətinə məxsus sarı rəngli "Mercedes" markalı avtobuslar əsasən şəhərlərarası, Koreya istehsallı "Daewoo", Almaniyanın "MAN" və Belarusdan alınmış "MAZ"lar isə Bakıda sərnişindaşımaya buraxılıb.

Bundan başqa, Türkiyə, Çin, Ukrayna, hətta Özbəkistan və Qırğızıstandan da Bakıya orta tutumlu sərnişin avtobusları gətirilib.

Paytaxtda sayına görə birinci sırada olan "Daewoo" avtobuslarının qiyməti isə 156 min dollar olub. Bütün avtobuslar dövlət vəsaiti hesabına alınsa da, sonradan həmin nəqliyyat vasitələri kredit yolu ilə özəl nəqliyyat şirkətlərinə satılıb.

Z.Məmmədov nazir olarkən, faktiki, paytaxtda sərnişindaşıma xidməti göstərən şirkətlərin hamısı Nəqliyyat Nazirliyinin patronajlığı ilə yaradılıb.

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

**Fotolar müəllifindir**



## TƏBRİK

***Bu gün Mələk balanın doğum günüdür. Əzizimiz Mələk, sənə həyatının sevincinin göydəki ulduzların sayı qədər çox, günəşin parıltısı qədər işıqlı olmasını, ulu nənələrimiz kimi uzun bir həyat yolu, sevgi dolu bir dünyan olmasını arzulayırıq. Ən əsası da ildırım kimi səs salacaq duman qədər başını bürüyəcək, göydən yağan qar kimi həyatını yeniləyəcək bir sevgi arzulayırıq. AD GÜNÜN MÜBARƏK!!***

Yeni MÜSAVAT
N 42 (7212) 22 fevral 2019




# Bu xüsusiyyəti anlasa, insan bütün psixoloji problemlərini həll edər

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Allaha həmd olsun ki, bizlərə nurani İlahi təlimin müddəaları əsasında yaşamaq və nemətlərdən bəhrələnmək lütfünü inayət edir.**

### Zati ehtiyaclılığı dərk etməmək

Allah Təala Qurani-Kərimin "Fatir" surəsinin 15-ci ayəsində buyurur: "Ey insanlar, sizin hamınız Allaha möhtacsınız. Allah isə (heç kəsə) möhtac deyil. (Onun) sifətləri və işləri öyülmüşdür (O, bəşərin xaliqi, qoruyucusu və ruzi verənidir, beləliklə məxluqlar tamamilə möhtac, O isə əsla möhtac deyil)".

Qurani-Kərimin bütün ayələri öz nuraniyyəti ilə qəlblərimizi sağalda bilər. O cümlədən bu ayəni gerçək mənada dərk edə bilsək, halımıza böyük təsir qoyar. İnsanın islah olması, düzəlməsi, özünə gəlməsi üçün bu ayəni anlaması, duyması yetərli ola bilər.

Çünki insanın bütün müsibətləri, insanın təkəbbürü, özündən razılığı, arxayınlığı, özünü Allahın hüzurunda hiss etməməsi, özünü sərbəst bir varlıq kimi duyması ondan başlayır ki, insan zati ehtiyaclılığını, büsbütün, bütün varlıq səviyyəsində ehtiyaclı olmasını unudur və ya bu həqiqətlə lazımi qədər tanış olmur.

### Niyə Allah Təala yaradılmışlar içərisindən insanı xüsusi vurğulayır?

Allah Təala ayənin əvvəlində bütün insanlara müraciət edir. Başa düşülən budur ki, bütün insanlar, bütün yaradılmışlar Allaha möhtacdırlar, Allaha ehtiyaclıdırlar. İnsanların yaradılmışlar içərisində xüsusi olaraq vurğulanması isə ona görədir ki, insan - iradəvi varlıqdır və insan qəflət yuxusunda öz kimliyini unuda bilir, o cümlədən, seçim zamanı həddini aşa bilir.

Əslində bütün yaranmışlar, bütün varlıqlar ehtiyaclıdır. Amma yaranmışlar içində məhz insan həddini aşa bilir, üsyan edə bilir, ehtiyaclı olduğunu unuda bilir. Və elə buna görə də birbaşa insanlara ehtiyaclı olmaları xatırladılır.

Varlığımızda bizdən asılı olmayan hissələrin, əzaların bizdən soruşmadan bütün ehtiyacları təmin olunur. Harada ki, bizdən asılıdır - orada da elə özümüz işləri korlayırıq. Asılı olduğumuz hissələrdə isə lazımi formada istifadə etmirik. Bir də iradəviliyimizə bağlı, özümüzü islahımıza bağlı olan ehtiyacımızın təmin olunması mövzusu var. Bu müstəvidə ehtiyacın ödənməsi başdan-başa iradəvidir.

Bizim dünyaya gəlişimiz, ümumi inkişafımız, yerimək, danışmaq qabiliyyətinin təmini, digər fiziki məsələlərimizin təmini bizdən asılı olmadan həyata keçirilir. Amma həyatda müəyyən bir şeylər var ki, onlardan istifadə etmək üçün iradə etməliyik. Əgər iradə etməsək - əldə etməyəcəyik, onlardan bəhrələnə bilməyəcəyik, o müstəvidə Allahın rübubiyyətindən istifadə edə bilməyəcəyik, özümüzü bəlli məsələlərdən məhrum edəcəyik.

O zaman bəhrələnmək olur ki, biz orada iradə edə bilək. İradə etməsək, ancaq Allahın təkvini rübubiyyətindən istifadə edə bilərik - yeyərik, içərik, yatarıq və s. Yalnız təkvini rübubiyyətlə yaşayan insan bioloji varlıq olmaqdan yuxarı qalxa bilməz. Halbuki bütün təkvini rübubbiyyət ona görə verilir ki, insan bununla başlasın və təşrii rübubiyyətdən istifadə etsin, bioloji varlıq olmaqdan başlayıb, kamil insan olmağa doğru hərəkət etsin.

Sanki bir valideyn övladının təhsil xərclərini qarşılayır ki, övlad oxuyub savadlı olsun. Övlad bu vəsaitdən istifadə edib, savadlı mütəxəssis də ola bilər, bu vəsaitlə gününü mənasız surətdə keçirə də bilər.

### Allahın vücud təmin etməsi ilə insan iradə göstərə bilir

Ayədə insanın ehtiyaclı olması, Allahın isə tamamilə ehtiyacsız olması vurğulanır. Bu həm də fəlsəfi dillə desək "beyna-beyn"ə işarədir. Yəni biz iradəvi varlığıq. İradəvi varlıq olaraq da, gərək bütün hallarda varlığımız təmin olunsun ki, iradəvi varlıq kimi yaşaya bilək.

Bütün hallarda biz ehtiyaclıyıq - gərək bütün hallarda mövcud olaq ki, nə isə edək. Bizim bir varlıq olaraq yaşayıb mövcud olmağımız üçün varlıq şəbəkəmiz olmalıdır, gərək Allah bizi varlıqla, var olma ilə təmin etsin. Bunun da içərisində bizim bir iradəmiz var ki, o iradəmiz bu varlıq şəbəkəmiz təmin olunan halda işə düşə bilər.

Ola da bilər ki, işə salmayaq. Əgər işə salsaq, Allahın digər təminetmə mexanizmindən də bəhrə apara biləcəyik - işə salmasaq, istifadə edə bilməyəcəyik.

### Həqiqi ehtiyacsız yalnız Allahdır

Ayədən başa düşülür ki, həqiqi ehtiyacsız yalnız Uca Allahdır. Allah Təala - Qənidir. Böyük İslam filosofu, mərhum Molla Sədra qeyd edirdi ki, varlıq ya qəni, ya da fəqir ola bilər. Fəqirlər özü-özlərinin varlığını heç cür təmin edə bilmirlər. Bununla da Qəninin varlığı sübut olunur.

Beş fəqir də olsa, yüz fəqir də olsa, milyon fəqir - zatən ehtiyaclı olan varlıq olduğu üçün - bunlar bir-birilərinin ehtiyaclılığını təmin edə bilmir. Gərək bir qəni olsun ki, onların varlıqları həmin mənbədən təmin olunsun.

Adətən imkanlı insanlara münasibət birmənalı olmur. Çünki insan nə qədər imkanlı olsa da, hamıya kömək edə bilmir. Ona görə də biri paxıllıqdan, biri rəqabətdən, biri istəkləri ödənmədiyi üçün, biri kin-küdurət səbəbindən həmin imkanlı şəxsə fərqli münasibət də olur.

Amma Allah o Qənidir ki, həm də Həmiddir. O imkanlıdır, o ehtiyacsızdır, o Qənidir ki, həm də həmd edilən, şükür ediləndir. Bütün varlıq aləminin ehtiyacını ödəyir və bütün varlıq aləmi ona şükür edir. Təkvini müstəvidə hamının ehtiyacını ödəyir, təşiri müstəvidə bir qədər hərəkət etsək, ödəyər.

### İnsanın nədə ehtiyaclı olması ona görə vurğulanmır ki...

Əllamə Təbətəbai (r.ə) buyurur ki, ayədə insanın nədə ehtiyaclı olmasının vurğulanmaması ona dəlalət edir ki, insan hər şeydə, hər mövzuda - başdan-ayağa Allaha ehtiyaclıdır. Yatmağında, durmağında, nəfəs almasında, ibadət etməsində - bütün hallarında ehtiyaclıdır.

Elə bir məsələ, elə bir mövzu göstərilə bilməz ki, insan Rəbbinə ehtiyaclı olmasın. İnsan olaraq, bizim lokal ehtiyacımız yoxdur, fraqmental ehtiyacımız yoxdur - başdan-ayağa ehtiyacın içərisindəyik.

Ən sadə işdən başlamış, ən ağır işə qədər insan ehtiyacın içərisindədir. Bir an Rəbbimiz varlıq verməsə, əlimizdən heç nə gəlməz.

### Tövhidi yaşam - ehtiyaclılığımızı dərk edərək yaşamamızdır

Ariflərdən biri buyurur ki, Həzrət Mövla - İmam Məhdi Sahibəz-Zaman (ə.f) zühur edəndə onun bütün hissələrindən, hətta ayaqqabısının bağından da Tövhid nidası gələcək. Həqiqi ehtiyacın nə olduğunu anlayan ən kamil insan zühur edəndə, varlığının hər cəhətindən Tövhid nidası gələcək. İndi bəzən görürsən ki, biri deyir: "olmaz ki, mən saçımı belə edim?", ya: "olmaz mən hicabımı bir az belə taxım?" Mövla (ə.f) zühur edəndə Mövlanın (ə.f) hər bir əzasından, hər bir hissəsindən Tövhid nidası gələcək. İnsan indi gərək elə etsin ki, saçından, saqqalından, hicabından, yaşayışından, ibadətindən Tövhid nidası gəlsin.

İnsanın bütün yaşayışı bəndəlik təzahürü olmalıdır - necə ki, zühurunu gözlədiyimiz Həzrət Mövlanın (ə.f) bütün təzahürlərindən Tövhid ətri gəlir.

Mərhum İmam (r.ə) buyurur ki, "İnsan gərək bütün qəlbi ilə anlasın ki, varlıq aləmində bir sözdən başqa söz yoxdur və o pak kəlmə - "Lə iləhə illəllah"dır və bu şərafətli möhürü gərək qəlbinə vursun".

Varlıq aləminin büsbütün kodu bu cümlədədir - Allahdan başqa ilah yoxdur. Bütün varlıq aləminin kodu bu cümlədə cəmləşib. İmam (r.ə) buyurur ki, gərək insan bu gözəl, bu şərəfli möhürü öz qəlbinə vursun. Əgər bunu edə bilsə, o zaman həyatı fərqli olar.

### Tövhid anlamının miqdarı

Əllamə Təbətəbai (r.ə) yuxarıdakı ayənin təfsirində buyurur ki, insan nə zaman ki, anlayar o, Allahın yoxsuludur, Allahın fəqiridir, Allahın möhtaclısıdır - Tövhid anlamı onun qəlbində hakim olar. Və bu fəqirliliyi, bu ehtiyaclılığı anlamasının miqdarına uyğun olaraq, Tövhid onun qəlbində hökumət edəcək.

Əvvəla insan gərək başa düşsün ki, Allahın yoxsuludur. Dərk etməliyik ki, fəqirik, bütün mənalarda ehtiyaclıyıq. Bunu insan nə qədər duysa, anlasa, dərk etsə, nə qədər miqdarda duysa - o qədər də Tövhidin hakimliyi həmin insanın qəlbində hökmranlıq edəcək. Deməli, biz gərək qəlbimizdə Tövhidin hakimliyini bərqərar edək. Qəlbimizin nə qədər hissəsi Tövhidin hakimliyi ilə idarə olunur? İnsan bunu qəlbən, ruhən nə qədər duysa, ehtiyaclılığını nə qədər ürəkdən hiss etsə - o qədər qəlbini Tövhidə bağlayacaq.

Bir çox zamanlarda insanın günah etməsinin səbəbi bu olur. Bizim bəzi xətalarımız, günahlarımız elə bu halımızla bağlıdır ki, ehtiyaclı varlığıq. Yəni bizim varlığımızın xarakteri budur ki, biz o qədər ehtiyacılıyıq ki, hətta düz yolda yıxırıq. Nə iləsə öyünə biləriksə, onun bir anlıq da saxlanılmasını təmin etməyə zəmanətimiz yoxdur. İnsan nə qədər anlasa ki, ehtiyaclıdır, o qədər qəlbində Tövhidin hakimliyi olacaq.

### Bütün peyğəmbərlər (ə) və övliyaların missiyası bunu xatırlatmaq olub

Bütün peyğəmbərlər (ə), bütün İlahi övliyalar buna görə gəlib. Allah Təalanın göndərdiyi bu qədər peyğəmbərlərin (ə), Məsumların (ə), Allah dostlarının missiyaları ondan ibarət olub ki, bizə zati fəqir olduğumuzu xatırlatsınlar.

Bizə anlatmaq istəyiblər ki, başdan-ayağa Allahın ehtiyaclıları, fəqirləriyik. Bizə xatırladıblar ki, bir Qəni var ki, nə qədər Ona bağlansaq, bir o qədər insan olarıq.

Biz bunu nə qədər duyub dərk etsək və əməlen bağlansaq, o qədər Allahın qəniliyindən bəhrələnə bilərik.

İnsan öz ehtiyaclılığını dərk etsə, onun bütün psixoloji problemləri həll olunar. Çünki, yəqinən bilər ki, onun bütün mövzularının həqiqi təminatçısı var və insan, həmin o mənbəyə bağlanar.

### Yalnız Allaha bağlantını saxlamaqla Tövhidi yaşam qurmaq mümkündür

Bunu elə bir zamanda danışırıq ki, bütün hər şey bu mövzunun alternativində və paralelində qoyulub. Təhriklər, iş, güc, təhsil, sosial media, tv, radio - hamısı bunun alternativindədir, hamısı bunu xatırlamaq üçün deyil, əksinə - bizə bunu unutdurmaq və bizdən bunu kənarlaşdırmaq üçündür.

Biz ehtiyaclı varlıq kimi ruzi dalınca gedirik, Rəzzaqdan ruzi istəyirik, amma Rəzzaq bizə ruzi verəndə Onunla bağlantını yaddan çıxarmış oluruq. Bizim həmin ehtiyaclı halımız yadımızdan çıxır, alternativ yollarda, ruzini verənə aparmayan yollarda ilişib qalırıq. Biz elm dalınca gedirik, həqiqi Alimə qovuşmaq üçün başlayırıq, amma o yollarda Alimə aparmayan alternativ yollarda ilişib qalırıq.

Ona görədir ki, qəlblər aram olmur, rahatlıq tapmır. İnsan vücudi, zati ehtiyacını duymasa, rahatlıq tapa bilmir. Bir maşında bir qədər kənar səs əmələ gəlirsə, insan narahat olur ki, nədən səs edir. Bir qədər səsi artanda, daha çox narahat olur. Tez mütəxəssisə baş vurur, mütəxəssis düzəltməyi tövsiyə edir, əks təqdirdə başqa yerləri də dağıdacağı barədə xəbərdar edir. Dərhal problemi əvvəl mərhələsində həll edir ki, sonra fəsadları böyüməsin. Amma bizim öz içərimizdə vicdanımız səs-küy salır ki, qaydasında deyilik. Onu müvəqqəti məsələlərlə susdururuq ki, hələ vaxtı çatmayıb. Səsi getdikcə artır, arada bizi yerə çırpır, bir də görürük ki, namazlarımız əvvəlki deyil, Allahla rabitəmiz əvvəlki deyil, hər şeyimiz var - amma aramlığımız yoxdur. Aradan qaldırmadıqca getdikcə fəsadları artmaqda davam edir.

Qəlb sıradan çıxandan sonra isə artıq onu bərpa etmək çox çətin olur. Ona görə də insan gərək ilk mərhələlərdən Allaha bağlantını itirməsin. Əgər Allaha bağlantını itirməsə, bütün işləri mübarək olacaq. Bu insanın bütün yaşamı Tövhid üzərində olacaq.

**Allahım, aqibətlərimizi xeyirli et!**

**Allahım, içərimizdə, halımızda, ruhumuzda ehtiyaclılığımızı duymağı bizə nəsib et!**

**Allahım, bütün ehtiyaclıların ehtiyacını Öz qəniliyinlə təmin et! Amin!**

# YENİ MÜSAVAT

## Son səhifə

N 42 (7212) 22 fevral 2019




## Restoranın tualetində əlini yudu, üzündə qanlı yara yarandı

**Amerikalı qadın ictimai ayaqyolunda əllərini maye sabunla yuduğu üçün Klebsiella oxytoca bakteriyasına yoluxub. Bu isə son nəticədə qanama yaralarına çevrilib. Cənubi Karolina ştatından olan Rayçel Star Viters bir restoranın tualetində maye sabundan istifadə etdikdən sonra öncə üzündə səpkilər əmələ gəlib, daha sonra isə qanlı yaraya çevrilib. Həkimlər 33 yaşlı pasientin orqanizmində Klebsiella oxytoca bakteriyası aşkarlayıb. Müalicə olduqca çətin keçir.**

Rayçel üzünün fotolarını paylaşıb və bu barədə digər insanlara da xəbərdarlıq edib ki, ictimai ayaqyollarında bakteriyalar dolaşır. Klebsiella oxytoca bakteriyası müəyyən faizlə insanların nəcisində yer alır. Amma bu bakteriya digər insanın orqanizminə yol tapanda pnevmoniya, çiyində ağrı, sidik yollarında infeksiya və dəridə problemlər şəklində üzə çıxır. İmmun sistemi zəif olan insanları bu bakteriya hətta öldürə də bilər.

Gigiyena üzrə ekspert Ralitsa Prodanova qeyd edib ki, təhlükə hətta olduqca təmiz yuyulmuş ictimai ayaqyollarında da özünü göstərə bilər: "Mən hər kəsə özü ilə antibakterial gel gəzdirməyi məsləhət görürəm. Ancaq bu halda bakteriyalardan sığortalanmaq mümkündür".

# Kəsilən ayağından özünə çanta düzəltmək istəyir

**Böyük Britaniya sakini şəxsi dərisindən çanta hazırlayacaq dizayner barədə axtarış elan edib. Lenta.ru saytının xəbərinə görə, qadın bu çantanı amputasiya olunmuş ayağının dərisindən hazırlanmasını istəyib.**

Mançesterdən olan Con bu yaxınlarda səhhətindəki ciddi problemlərə görə ayağının amputasiya əməliyyatına girəcək. 55 yaşlı qadın etiraf edir ki, ayağını itirməsi hissi ona çox pis təsir edir. Ona görə də heç olmasa ayağından bir parçanı özündə saxlamaq istəyib.




Britaniyalı yaxşı dərzi tapmaq üçün saytda axtarış verib. O qeyd edib ki, aksesuarın hazırlanması üçün 3 min funt sterlinq xərcləməyə hazırdır. "Mən anlayıram ki, bu, bir qədər qəribə və pis səslənir. Bəlkə də kimsə düşünür ki, mən ağlımı itirmişəm. Amma bu, mənim ayağımdır və istəmirəm ki, onu kimsə, haradasa çürüməyə məhkum etsin. O, mənim bir hissəmdir, mən də onu saxlamaq istəyirəm".

# Sinə böyütmə əməliyyatına girmədiyi üçün arvadını və uşaqlarını öldürdü



**Tayvand sakini özünü, iki uşağını və arvadını öldürüb. Buna səbəb arvadının ikinci dəfə döşünü böyütmək istəyinə rədd cavabı verməsi olub.**

Lenta.ru saytının xəbərinə görə, Peng Hui ilk dəfə 32 yaşlı ərinin istəyinə əsasən sinə böyütmə əməliyyatına girib. 2018-ci ilin noyabr ayından etibarən onların münasibəti pisləşib və cütlük bir müddət ayrı-ayrılıqda yaşamağa qərar verib.

Böyük oğlunun sözlərinə görə, kişi arvadından ikinci dəfə ideal bədən ölçüləri üçün cərrahiyyə əməliyyatı keçirməyi tələb edib. Amma 34 yaşlı Huey buna etiraz edərək, xarici görünüşünü dəyişmək istəmədiyini bildirib və ardınca boşanma arzusunu dilə gətirib. Sonuncu dəfə qadının ailəsi onu və uşaqlarını boşanmanın detallarını müzakirə etmək üçün ərinin evinə gedəndə görüb.

Polis qadının və onun üç uşağının meyitini maşında tapıb. Qadın sarı taksi maşınını atasından alıbmış ki, ərinin yanına getsin. Qadın arxa oturacaqda əlləri bağlı tapılıb. 9 yaşlı oğlu və 6 yaşlı qızı da huşsuz vəziyyətdə maşında tapılıb. Hüquq-mühafizə orqanları bu qətllərin versiyası barədə ehtimallar irəli sürür. Birinci versiya ondan ibarətdir ki, kişi bütün ailəsini qazla boğub. İkinci versiyaya görə isə kişi bütün ailəni zəhərləyib. O, bunu hansısa qidaya öldürücü zəhər qatmaqla edib. Hüquq-mühafizə orqanları sonuncu versiyanı daha ağlabatan hesab edir. Çünki maşında McDonalds restoranından alınan yeməklərin qalıqları tapılıb.




**QOÇ** - Şəxsi büdcənizdə, eləcə də qarşılıqlı münasibətlər zəminində müsbət dönüş yaratmaq üçün kifayət qədər şanslarınız var. Atacağınız hər bir addımı dönə-dönə ölçüb-biçin.

**BUĞA** - Ümumən darıxdırıcı təqvim olsa da, hisslərinizi cilovlamağı bacarmalısınız. Çünki qarşıda sizi böyük işlər gözləyir. Nahardan sonrakı ərəfəni bütünlüklə məhəbbətə həsr edin.

**ƏKİZLƏR** - Vaxt tapıb bir qədər Axirət haqqında düşünün. Son yolumuz Ora olduğu üçün savablarınızı artırmağa, hamı ilə mehriban davranmağa çalışın. Hakim Allahdır - məhz bunu anlamağa çalışın.

**XƏRÇƏNG** - Ulduzlar boş-boşuna oturmağınızı məsləhət görmür. Ən azı ona görə ki, bu təqvimin şanslarını görüb aktivliyinizi birə-beş artırmalısınız. Nahardan sonra müqəddəs yerlərə gedin.

**ŞİR** - Yeni görüş və məsləhətləşmələrdə iştirakınız gözlənilir. Qarşınızı kəsən maneələr yavaş-yavaş səngiməyə başlayacaq. Təcrübəli adamlardan yararlanın. Bəxtinizdə pul da var.

**QIZ** - Ümumi götürdükdə uğurlu təqvim hesab etmək olar. Əvvələ, əksər bürclərlə müqayisədə büdcə artımı yalnız sizdə gözlənilir. Bundan başqa, yeni təkliflər alacağınız da mümkündür.

**TƏRƏZİ** - Qərarlarınızda qəti və ədalətli olsanız, heç bir xoşagəlməzliyin şahidi olmayacaqsınız. Çalışın ki, bahalı əşyaların, o cümlədən daşınmaz əmlakın alqı-satqısında iştirak etməyəsiniz.

**ƏQRƏB** - Uzaq yola çıxmaq üçün gözəl vaxtdır. Hətta maddi durumunuz aşağı səviyyədə olsa da səfərdən imtina etməyin. Son vaxtlar sizə vəd verib reallaşdıra bilməyənlərə düşmən kimi baxmayın.

**OXATAN** - İşlərinizin çoxluğu fiziki cəhətdən yorğunluğunuza səbəb ola bilər. Lakin nəticənin uğurluluğunu nəzərə alıb usanmayın. Etibar etmədiyiniz adamların məsləhətlərinə əhəmiyyət verməyin.

**OĞLAQ** - Kifayət qədər düşərli vaxtdır. Göy qübbəsi gün ərzində nəzərdə tutduğunuz planların reallaşmasına təkan verəcək. Sadəcə, şəraitə uyğun addım atmalısınız. Bəxtinizə inanın.

**SUTÖKƏN** - Təxminən saat 15-ə qədər bütün mühüm işlərinizi təxirə salın. Əks təqdirdə uğursuz cəhdlər silsiləsinə mübtəla olacaqsınız. Sonrakı müddətdə isə maraqlı hadisə və insanlarla rastlaşacaqsınız.

**BALIQLAR** - Yeni əlaqələr üçün yaxşı vaxtdır. Sadəcə, qarşı tərəfə güzəştə getməyiniz vacibdir. Nahardan sonra fəaliyyət istiqamətində sevindirici olaylar da gözlənilir. Reallığı nəzərə alın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Hoteldə uşaq doğdu, işini itirdi



**ABŞ-ın Nyu-York şəhərindəki ən məşhur hotellərdən birinə rəhbərlik edən Tara Tan adlı qadının başına ilginc hadisə gəlib. Belə ki, doğuş sancıları başlayan kimi xəstəxanaya getmək istəyən, amma bunu çatdırmayacağını anlayan qadın elə hotel otağında da övladını dünyaya gətirib. "Şirkət mədəniyyətinə" uyğun olmadığı üçün işdən çıxarılan qadın isə boş dayanmadı. O da hoteldən məhkəməyə şikayət verərək, 10 milypn dollar tələb etdi.**

"New York Post" qəzetinə müsahibə verən Tan deyib ki, doğuşun gerçəkləşməsinə həyat yoldaşı kömək edib. O, həkimlə telefonla danışaraq doğuşun baş tutmasını təmin edib. 40 yaşındakı Tanın sözlərinə görə, hotel rəhbərliyi bu yaşlarda olan və analıq arzusuna düşən qadınlara müsbət yanaşmır, onları hər cür bəhanə ilə işdən çıxarır.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.755